RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 94 (10114) 2 iyun 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir

### Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində iştirak edib

İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.

5

BAKU ENERGY WEEK

## Biz, sözün əsl mənasında, müstəqil dövlətik



### Prezident İlham Əliyev Şuşa, Xankəndi və Xocalıya səfər edib

Prezident İlham Əliyev mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və kəndə qayıdan sakinlərlə görüşüb, Xankəndi şəhərində əsaslı şəkildə yenidən qurulmuş Mədəniyyət Mərkəzinin, Xankəndidə "GP Safety" MMC-nin iş əlcəkləri istehsalı müəssisəsinin açılışında iştirak edib.

Dövlət başçısı İlham Əliyev Müstəqillik Günü münasibətilə həmin gün Xankəndi şəhərindəki Zəfər parkında ucaldılan Zəfər tağının önünə gül dəstələri düzüb.

Prezident İlham Əliyev Xocalı rayonunda əsaslı təmir edilən və Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub, Xocalı şəhərində "Qarabağ Tekstil Evi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) açılışında iştirak edib.

2-4

### Prezident İlham Əliyev Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması ilə bağlı memoranduma görə Donald Trampa təşəkkür edib



August 8, 2025

Presidential Determination No. 2025-08

MEMORANDUM FOR THE SECRETARY OF STATE

SUBJECT: Extension of Waiver of Section 907 of the FREEDOM Support Act with Respect to Assistance to the Government of Azerbaijan

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Möhtərəm Prezident Donald Tramp!

Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".

## Azərbaycan bu gün qlobal proseslərdə söz sahibi kimi qəbul olunur

Prezident İlham Əliyevin xarici siyasət kursunun ən mühüm cəhətlərindən biri balanslaşdırılmış və çoxvektorlu diplomatiya modelidir. Dünyada bir çox dövlətlər böyük güclər arasında seçim etmək məcburiyyəti ilə üzləşdiyi halda, Azərbaycan müxtəlif güc mərkəzləri ilə eyni vaxtda qarşılıqlı faydalı münasibətlər qurmağa nail olub. Son aylar ABŞ, Avropa İttifaqı, Çin, Türkiyə, həmçinin Türk Dövlətləri Təşkilatının üzvləri, Yaxın Şərq dövlətləri, Afrika ölkələri və beynəlxalq təşkilatlarla fəal diplomatik təmaslar bunun əyani göstəricisidir.

Bu ilin fevralında ABŞ-nin vitse-prezidenti Cey.Di.Vensin ölkəmizə səfəri çərçivəsində ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması Azərbaycanın Vaşinqtonla münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Eyni zamanda Avropa İttifaqı rəhbərliyi ilə keçirilən görüşlər göstərdi ki, bu qurum da Azərbaycanı regionun əsas tərəfdaşlarından biri kimi görür. Ümumiyyətlə, bu gün dünya siyasətində eyni vaxtda həm Vaşinqton, həm Brüssel, həm Ankara, həm Pekin, həm də islam dünyası ilə etibarlı münasibətlər qura bilən dövlətlərin sayı çox deyil, Azərbaycansa məhz belə ölkələrdəndir.



13

## Azərbaycanın uğurlu tərəfdaşlıq modeli

### Ölkəmiz qlobal enerji təhlükəsizliyinin təminatında strateji önəmə və əhəmiyyətli mövqeyə malikdir

Dövlətimizin başçısının ABŞ Prezidenti Donald Trampın real enerji xəttini təqdir etməsi ölkəmizin beynəlxalq münasibətlərdə hər zaman rasional tərəfdaşlığa üstünlük verdiyini göstərir. Dövlət başçıları arasındakı birbaşa məktublaşmalar və səmimi dialoq şəxsi diplomatiyanın gücünü nümayiş etdirir. Bu münasibətlər Azərbaycanın xarici siyasətdə çevik olduğunu, böyük güclərlə qarşılıqlı hörmət və milli maraqlar çərçivəsində strateji tərəfdaşlıq qura bildiyini sübut edir.

Məlum olduğu kimi, son illərdə karbohidrogen resurslarına qarşı aparılan təbliğat "yaşıl keçid" adı altında sənayenin damğalanması qlobal enerji böhranlarına yol açmışdı. Burada ən mühüm tezis praqmatizmdir. Bu, ənənəvi enerjini tamamilə rədd etmək yox, onun gəlirləri ilə bərpaolunan enerjiyə investisiya qoymaq deməkdir.

14

## AÇG-dən sərbəst təbii qazın hasilatına başlandı

### 30 ilə yaxındır neft verən bu nəhəng blokun indi yeni səhifəsi açılır

AÇG blokunun STQ ehtiyatlarının iri həcmdə - təxminən 4 trilyon kubfut çıxarıla bilən ehtiyatlar və bunun da 6 trilyon kubfutadək artmaq imkanı olduğu proqnozlaşdırılır.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bu barədə belə deyib: "Bu gün Azərbaycan və AÇG tərəfdaşları üçün çox böyük bir gündür. AÇG-nin uzun və uğurlu bir tarixi var. Artıq 30 ilə yaxın neft hasil edən bu yataq indi də yeni səhifə açmaqla ölkə və öz investorları üçün dəyər gətirmək potensialını hələ də saxlayır. Neftlə yanaşı, qaz hasilatı dövrünü başlamaqla AÇG indi inteqrasiya olunmuş həm neft, həm də qaz yatağı kimi xüsusi bir mövqeyə malik bir yataq olaraq regional sənayedə aparıcı rol oynayacaq, Azərbaycanın Avropaya enerji təchizatını artırmaq planlarına töhfə verəcək və ölkənin enerji keçidi istiqamətində səylərini dəstəkləyəcək".

Qeyd edək ki, AÇG-də ilk STQ hasilatı əməliyyatları ötən il qazılmış və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layını - daha dayaz Qırmakıüstü Qumlu və daha dərin Qırmakıaltı Qumlu lay dəstlərini hədəfləyən ilk hasilat quyusunda başlanıb. Quyu Qırmakıüstü Qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləmiş, Qırmakıaltı Qumlu lay dəstində isə yüksəktəzyiqli qaz ehtiyatlarının olduğunu aşkar etmişdir.

14



◆ Prezident İlham Əliyevin
Şuşa, Xankəndi və Xocalıya səfəri

# Biz, sözün əsl mənasında, müstəqil dövlətik

## Şuşanın Böyük Qaladərəsi kəndində görülən işlərlə tanışlıq və sakinlərlə görüş





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və kəndə qayıdan sakinlərlə görüşüb.

AZƏRTAC xəbər verir ki, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, Böyük Qaladərəsi Şuşa rayonunun Qaladərəsi kənd inzibati ərazi dairəsində yerləşir.

Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatı zamanı Böyük Qaladərəsi işğaldan azad olunub.

Bildirildi ki, kənddə yaşayış üçün lazımi şəraitin yaradılması və sosial məsələlərin həlli istiqamətində bir sıra layihələr icra olunub. Burada transformator quraşdırılıb, yeni elektrik xətləri çəkilib, mövcud xətlər isə bərpa olunub. İlkin mərhələdə məskunlaşdırılacaq fərdi evlər sayğaclaşdırılıb. Bundan başqa, kənddə yeni qaz xətti çəkilib və sayğacların quraşdırılması işlərinə başlanılıb. Sakinlərin içməli su ilə təmin olunması üzrə də işlər görülüb, paylayıcı su xətləri çəkilib, sayğaclar quraşdırılıb. Hazırda kənddə rabitə xətlərinin çəkilməsi işləri davam etdirilir. Kənddaxili yollar abadlaşdırılıb. Həmçinin Böyük Qaladərəsində sakinlərin istirahəti üçün park salınıb, Bayraq meydanı yaradılıb.

Kənddə ümumilikdə 50 fərdi ev var. Onlardan 13-ü yararsızdır, 37-si isə qismən yararlıdır.

Birinci mərhələdə artıq 17 ev bərpa olunub. Növbəti mərhələdə isə 20 evin bərpası planlaşdırılır.

İlkin olaraq kəndə 64 nəfər (14 ailə) qayıdıb.

* * *

Sonra dövlətimizin başçısı kənd sakini Akif Qəhrəmanovun evində oldu.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Kişi sakin:** Xoş gəlmisiniz. Keçin.

**Prezident İlham ƏLİYEV:** Necədir ev şəraitiniz?

**Kişi sakin:** Ana, cənab Prezident gəlib, gəl.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Ağbirçək qadın:** Sənə qurban olum, sənin başına dönüm. Nə yaxşı gəlmisən. Bu qapımız Sənin üzünə açıqdır.

**Prezident İlham ƏLİYEV:** Siz də xoş gəlmisiniz doğma vətəninizə.

**Ağbirçək qadın:** Sənin hesabına, Sənin sayəndə gəlmişik. Allah Səni bizim üstümüzdən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun.

**Ağbirçək qadın:** Mənim qızımı niyə gətirməmisən, görərdim.

**Prezident İlham ƏLİYEV:** Onun da salamı var sizə.

**Ağbirçək qadın:** Məndən çoxlu-çoxlu salamlar apar Şuşa qızıma.

**Prezident İlham ƏLİYEV:** Mütləq. O da Şuşa qızıdır, bilirsiniz.




**Ağbirçək qadın:** Nə yaxşı ki, gəlmisən, bala. Bizi nə yaxşı ki, torpağımıza gətirmisən, ayağımız torpağımıza dəyib. Allah Səni min yaşatsın. Üstümüzdən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, sağ olun. Siz də xoşbəxt yaşayın burada, doğma Qarabağ torpağında.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Neçə gündür qayıtmısınız?

**Sakin:** Üç gündür buradayıq.

**Ağbirçək qadın:** Üç gündə yığışmışıq, rahatlaşmışıq. Gözəl havası var, gözəl suyu var. Qadan alım Sənin. Sən bizi gətirib çıxartdın bu torpağımıza, Səni Allah üstümüzdən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun. Birinci növbədə bura doğma vətəndir, vətən torpağıdır. İkinci tərəfdən də bura kurort zonasıdır. Təmiz havası, suyu, meşələr, dağlar.

**Ağbirçək qadın:** Elə iki gecənin rahatlığı, o iki gecənin rahatlığı.

**Kişi sakin:** Bakıda adam belə təzyiq... Buraya gələndə deyir çox rahatam.

**Prezident İlham ƏLİYEV:** Burada o təzyiq olmamalıdır. Burada heç bir xəstəlik olmamalıdır.

**Ağbirçək qadın:** Sənin hesabınadır hamısı.

**Prezident İlham ƏLİYEV:** Buranın bir havası özü də dərmandır.

**Ağbirçək qadın:** Gözəl. Buradan görürsən nə gözəldir.

**Prezident İlham ƏLİYEV:** Buradan gözəl mənzərə açılır. Baxanda adamın gözünü oxşayır.

**Ağbirçək qadın:** Adamın ürəyi açılır.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə necə idi yaşayışınız?

**Kişi sakin:** İşğal dövrü çətinliklərimiz çox oldu.

**Prezident İlham ƏLİYEV:** Bakıda yerləşmişdiniz?

**Kişi sakin:** Sumqayıt, Bakı. Amma Allaha şükür, gəldik, çıxdıq.

**Prezident İlham ƏLİYEV:** Artıq o dövr qaldı arxada, getdi.

**Kişi sakin:** Şükür Allaha, bəli, Sizin sayənizdə.

**Prezident İlham ƏLİYEV:** Burada nə ilə məşğul olacaqsınız?

**Kişi sakin:** Mən hazırda elə Şuşada Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin işçisiyəm.

**Prezident İlham ƏLİYEV:** Lap yaxşı.

**Kişi sakin:** Bəli. İndi yəqin ki, ola bilsin, buraya da ehtiyac olacaq, elə burada işləyəcəyəm.



**Prezident İlham ƏLİYEV:** Buraya Laçın da yaxındır, Şuşa da yaxındır.

**Ağbirçək qadın:** Yəni ortalıqdır, hər tərəfə yaxındır.

**Prezident İlham ƏLİYEV:** Yol da çəkilir, görmüsünüz, genişləndirilir.

**Kişi sakin:** Çox gözəl.

**Prezident İlham ƏLİYEV:** İndi Turşsu da tikilir. Yəni qonşuluqda da kəndlər bərpa edilir.

**Kişi sakin:** Allah qoysa.

**Prezident İlham ƏLİYEV:** Darıxmayacaqsınız burada.

**Ağbirçək qadın:** Turşsuda mənim evim nağdı var, yoxdur, bilmirəm. Amma bağım, ağaclarım durur.

**Prezident İlham ƏLİYEV:** Hə, onda gərək bağı bərpa edəsiniz.

**Ağbirçək qadın:** Bağım, bağçam durur.

**Prezident İlham ƏLİYEV:** Turşsu nə vaxt hazır olacaq?

**Məsul şəxs:** Gələn il.

**Prezident İlham ƏLİYEV:** Gələn il. Orada da indi keçmiş köçkünlər üçün evlər tikilir. Amma bağ eviniz olubsa, gərək oraya - o bağa gedəsiniz, dincələsiniz.

**Ağbirçək qadın:** Sizin hesabınızadır.

**Prezident İlham ƏLİYEV:** Bir daha təbrik edirəm sizi.

**Sakinlər:** Çox sağ olun, əskik olmayın.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun.

* * *

Sonra dövlətimizin başçısı Böyük Qaladərəsi kəndinə qayıdan sakinlərlə görüşdü.

**Prezident İlham ƏLİYEV**: İlk növbədə, sizi bayramlar münasibətilə təbrik edirəm - həm Qurban bayramı, həm Müstəqillik. Siz həm Müstəqillik, həm Qurban bayramlarını doğma Qarabağ torpağında qeyd edirsiniz. Bu, böyük xoşbəxtlikdir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Uzun fasilədən sonra doğma vətənə qayıtmaq böyük xoşbəxtlikdir.

**Qadın sakin:** Şərəfdir bizim üçün, şərəfdir.

**Prezident İlham ƏLİYEV:** Bəli. Burada sizin üçün gözəl şərait yaradılıb. Burada evlərin, demək olar ki, əksəriyyəti dağılmışdı. Onların 17-si hazırdır, 20-si də ikinci mərhələdə hazır olacaq və ondan sonra da evlər tikiləcək. Burada qonşuluqda da iş gedir. Kiçik Qaladərəsi, Turşsu, Sarıbaba. Laçın da yaxındır, Şuşa da yaxındır. İndi yeni yol da çəkilir və gediş-gəliş də daha rahat olacaq. Yəqin ki, görmüsünüz, biz Şuşa-Laçın yolunu genişləndiririk, həm də tunellər inşa edilir. Hər şey edilir ki, insanlar burada rahat yaşasınlar və əsas odur ki, doğma vətən torpağında.

Müstəqillik - bu, böyük nemətdir, böyük nailiyyətdir. Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri doğrudan da müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik. Çünki öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq. Buna görə də dünyada böyük şöhrət qazanmışıq. Baxmayaraq ki, torpaqlarımız uzun illər erməni işğalı altında idi, hətta o vaxt müstəqil siyasət apararaq böyük hörmət qazanmışıq dünyada. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi və ondan üç il sonra antiterror əməliyyatı, bizim Şanlı Zəfərimiz ölkəmizin, xalqımızın nüfuzunu dünyada daha da artırmışdır.

Bax 1991-ci ilin oktyabrında müstəqillik əldə ediləndə o vaxt hakimiyyətdə olanlar ərazi bütövlüyümüzü qoruya bilmədilər. Hakimiyyətə can atanlar faktiki olaraq Şuşanı, Laçını, o cümlədən bax bu gözəl kəndi Ermənistana, demək olar ki, satmışdılar. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi. Ovaxtkı hakimiyyət hakimiyyətdə qalmaq istəyirdi. Hakimiyyətə can atan AXC-Müsavat istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. Buna görə də təxribat nəticəsində bu gözəl diyarımız Ermənistana verildi ki, yenidən Azərbaycan bu fəlakətlə üzləşsin. Ondan sonrakı dövr də sizin yadınızdadır: vətəndaş müharibəsi, torpaqlarımızın itirilməsi. Şuşa, Laçın işğal ediləndən sonra bu kənd də işğal olunub. Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradılıb və əfsuslar olsun ki, ondan sonra işğal 30 il davam etmişdir.

Biz güc yığırdıq, güc toplayırdıq - həm iqtisadi, həm hərbi, həm beynəlxalq müstəvidə. Hazır olan zaman gəldik və elə gəldik ki, bütün dünyaya səs saldı bizim Şanlı Zəfərimiz. Həm 2020-ci il, həm də 2023-cü il Şanlı Zəfərimizdir və biz əbədi bu Zəfərlə fəxr edəcəyik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq bizim nəzarətimizdədir. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam bərpa edilmişdir. Əldə edilmiş sülh bizim şərtlərimiz əsasında olmuşdur.

Bu, bir daha göstərir ki, xalqımız böyük xalqdır. Əzab-əziyyətə baxmayaraq, əyilmədi, iradəsini yerində saxladı və bir ümidlə yaşayırdı ki, gün gələcək və biz bu torpaqlara qayıdacağıq. Son illər ərzində - 2003-cü ildən bu yana keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə həm işğal dövründə, həm Zəfərdən sonra bir daha əmin oluram ki, bizim xalqımız nə qədər əzəmətlidir, vüqarlıdır və yenilməzdir. Siz 30 il doğma diyarınızdan məhrum edilmişdiniz, amma ümidinizi itirmədiniz, iradənizi qırmadınız və inanırdınız ki, bu gün gələcək və gəldi.

**Kişi sakin:** Bəli, "dəmir yumruğ"a inanırdıq.

**Prezident İlham ƏLİYEV:** "Dəmir yumruq" hesabına, xalqımızın birliyi hesabına, ordumuzun qüdrəti, şəhidlərimizin qanı-canı bahasına bu gün buradayıq və bundan sonra bizi heç kim buradan tərpədə bilməz. Əksinə, hər gün gücümüz artır, imkanlarımız artır. Bölgədə söz sahibiyik.

Ermənilər tərəfindən viran qoyulmuş bu torpaqları, şəhər və kəndləri artıq beş ildir ki, bərpa edirik. Özü də necə? Dünyada bunun tayı-bərabəri yoxdur. Cəmi 5 il ərzində bu qədər iş görmək - ancaq bunu güclü dövlət edə bilər. Bu güclü dövlətin əsasını xalq-iqtidar birliyi təşkil edir.

Sizə isə bundan sonra ancaq cansağlığı. Bu gözəl havanı udun, gözəl suyu için, gözəl mənzərələrə tamaşa edin ki, könül açılsın, adamın zövqünü oxşasın.

**Kişi sakin:** Cənab Prezident, oradan baxırlar bizə, peşmandırlar ki, bir vaxt biz baxırdıq. İndi deyirlər ki, günah özlərindədir. Yaşayırdılar, hər şey də gözəl. Allah Sizə dəyməsin.

**Prezident İlham ƏLİYEV:** Mən laçınlılarla görüşəndə, Laçın şəhərinə biz ilk keçmiş köçkünləri qaytaranda elə oturmuşdum ki, bu mənzərə elə düz gözümün qabağında idi. Dedim ki, bilin ha, biz sizi görürük buradan. Özünüzü yaxşı aparın.

**Kişi sakin:** Allah Sizə dəyməsin. Xoş gəlmisiniz. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi. Gəlin, şəkil çəkdirək birlikdə, burada, bu gözəl mənzərədə.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi.

**Sakinlər:** Allah Sizi var eləsin.

**Qadın sakin:** Bugünkü Qurban bayramı münasibətilə, müstəqilliyimiz münasibətilə təbrik edirəm. Bu gün bu gözəl torpaqda o gözəl vaxtınızı sərf edib bu vətəndaşlarla görüşdüyünüz üçün Sizə "çox sağ olun!" deyirəm. Bu Qaladərəsi sakinləri adından Sizə "çox sağ olun!" deyirəm. Bizim salamlarımızı hörmətli Mehriban xanıma çatdırmağınızı istəyirəm. Çox sağ olun, çox sağ olun ki, bu gözəl Vətəndə, bu torpaqda bizimlə görüşdünüz. Allah şəhidlərimizə rəhmət eləsin. Sizə cansağlığı, uzun ömür arzulayıram. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Şanlı Zəfərimizdən sonra bu gözəl bayramı - 28 May - Müstəqillik Günü bayramını azad edilmiş torpaqlarda qeyd edirəm və bu, artıq bir ənənəyə çevrilib. Hesab edirəm ki, ən düzgün seçimdir. Bu Müstəqillik Günü hər birimiz üçün çox əzizdir. Amma o da faktdır ki, o vaxt - 1918-ci ildə əldə edilmiş müstəqillik cəmi iki il çəkdi. Onu o vaxt saxlaya bilmədik, əlimizdən alındı. Ondan sonra 70 il müstəqil dövlət kimi yaşamadıq.

Müstəqillik 1991-ci ildə bərpa edildi, amma yenə də təhlükə altında idi. Dediyim kimi, erməni işğalı, daxildəki hərc-mərclik, qarşıdurma, vətəndaş müharibəsi, hakimiyyət uğrunda mübarizə faktiki olaraq ölkəmizi məhvə aparırdı. Əgər o vaxt Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, indi xalqımızın, dövlətimizin taleyi necə olacaqdı, onu demək çətindir. Hər halda o vaxt Azərbaycan böyük fəlakətlə üz-üzə idi. O vaxt müharibə dayandırıldı, inkişafa qədəm qoyuldu, güc toplanıldı. Mənim dövrümdə biz hər gün azadlıq gününü arzulayırdıq və hər gün onu yaxınlaşdırırdıq. Siz də, bu ərazilərdə yaşamış insanlar da yaxşı bilirsiniz, nə qədər çətin relyefdir həm buralar, həm də Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl, orada yeddi müdafiə xətti, minalar var idi. Bizim qəhrəman övladlarımız sinələrini qabağa verərək, özlərini qurban verərək o xətləri yardılar və cəmi 44 gün ərzində biz Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etdik.

Nə ondan qabaq, nə də ondan sonra bu dərəcədə mütləq Qələbə olmamışdır. İndi hər şey göz qabağındadır. Müharibələr yan-yörəmizi əhatə edib: istər Şimalda, istər Cənubda, istər başqa yerlərdə. Yəni bu müharibələrin sonu olacaqmı? Heç kim bilmir. Nə ilə nəticələnəcək? Heç kim bilmir. Bu müharibələrin qalibi kimdir? Onu da demək çətindir, hərə deyir ki, mən qalibəm.

**Kişi sakin:** Allah dövlətimizi qorusun, Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Amma bizim Qələbə elə mütləq Qələbə idi ki, burada artıq şəkk-şübhə qalmadı. Bayrağımız da Şuşada, ondan sonra Xankəndidə qaldırıldı və düşmən torpaqlarımızdan qovuldu. Ermənistan ordusu tamamilə darmadağın edilmişdir. Bu gün biz rahat yaşayırıq, qalib xalq kimi və qalib dövlət kimi. Bu, böyük qürur mənbəyidir.

Qısa müddət ərzində belə bərpa-quruculuq işləri aparmaq, bu da xalq üçündür. Yəni insanlar tez qayıtsınlar, rahat yaşasınlar və burada özlərini, necə deyərlər, çox rahat, təhlükəsiz hiss etsinlər, qurub-yaratsınlar, uşaqları böyütsünlər, ağbirçəklərə qulluq etsinlər və həyatdan zövq alsınlar. Siz buna layiqsiniz. Siz 30 il əzab-əziyyət içində yaşamısınız, bundan sonra ancaq xoşbəxt həyat olmalıdır.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi.

* * *

Sonda xatirə şəkilləri çəkdirildi.

◆ **Prezident İlham Əliyevin Şuşa, Xankəndi və Xocalıya səfəri**

# Biz, sözün əsl mənasında, müstəqil dövlətik

## Prezident İlham Əliyev Xankəndidə əsaslı şəkildə yenidən qurulmuş Mədəniyyət Mərkəzinin açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xankəndi şəhərində əsaslı şəkildə yenidən qurulmuş Mədəniyyət Mərkəzinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhəri, Xocalı və Ağdərə rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, Xankəndi şəhərində yerləşən Mədəniyyət Mərkəzinin binası XX əsrin 60-70-ci illərində tikilib. Uzunmüddətli istismar nəticəsində binanın yükdaşıyan konstruksiyalarında aşınmalar, deformasiyalar və müxtəlif zədələnmələr yaranmışdı.

Aparılmış əsaslı yenidənqurma işləri nəticəsində Mədəniyyət Mərkəzində müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, kino və səhnə fəaliyyəti, yaradıcılıq, təlim, məşğələ, inzibati idarəetmə, turizmyönümlü xidmətlərin həyata keçirilməsi üçün zəruri şərait yaradılıb. Üçmərtəbəli binada akt və kino zalları, müxtəlif sahələrə aid dərnəklərin yerləşdiyi çoxfunksiyalı zona, qrim otaqları, bufet, kassa və suvenir mağazası var. Mərkəzin 348 yerlik zalında konsert, tamaşa, film nümayişi, təqdimat, rəsmi görüş və digər mədəni-kütləvi tədbirlərin keçirilməsi mümkün olacaq.

Yenidənqurma işlərindən sonra bu mərkəz əhalisi artan, o cümlədən tələbələrlə dolu Xankəndinin mədəni mühitinin canlandırılmasında mühüm rol oynayacaq, kütləvi tədbirlərin keçirilməsində əsas məkanlardan biri olacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə digər sahələrlə yanaşı, mədəni abidələrimizin bərpasına da xüsusi diqqət yetirilir. Bu, ilk növbədə zəngin mədəni irsimizin qorunmasına Azərbaycan dövlətinin böyük əhəmiyyət verdiyini göstərir. Eyni zamanda bu cür layihələrin icrası ümumilikdə işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin həcmini nümayiş etdirir.

## Prezident İlham Əliyev Xankəndi şəhərində Zəfər tağının önünə gül dəstələri düzüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqillik Günü münasibətilə mayın 28-də Xankəndi şəhərindəki Zəfər parkında ucaldılan Zəfər tağının önünə gül dəstələri düzüb.

## Xankəndidə iş əlcəkləri istehsalı müəssisəsinin açılışı olub






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xankəndidə "GP Safety" MMC-nin iş əlcəkləri istehsalı müəssisəsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "GP Safety" MMC-nin təsisçisi Hikmət Əsədov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, burada müxtəlif təyinatlı 4 növdə iş əlcəkləri istehsal ediləcək. Müəssisənin illik istehsal gücü 25 milyon cüt əlcəkdir. Məhsullar daxili bazarın tələbatını ödəmək üçün nəzərdə tutulur. Gələcəkdə isə onların Avropa bazarına ixracı da planlaşdırılır. Burada 35 nəfər işlə təmin olunacaq. Müəssisənin investisiya həcmi 3,5 milyon manatdır. Onun yaradılmasına dövlət dəstəyi də göstərilib. Belə ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, investisiya təşviqi sənədi əsasında idxal olunan texnika və avadanlıqlar üzrə 238 min manat ƏDV-dən azadolma tətbiq edilib.

Sonra dövlətimizin başçısı müəssisənin işçiləri ilə söhbət etdi.







**Prezident İlham ƏLİYEV:** İşğal dövründə harada qalırdınız?

**Qadın işçi:** Gəncədə.

**Digər qadın işçi:** Şuşa sakiniyəm.

**Prezident İlham ƏLİYEV:** İndi harada yaşayırsınız? Şuşada?

**Qadın işçi:** Xankəndidə.

**Prezident İlham ƏLİYEV:** Yaxındır, indi yol da çəkilir, daha rahat olacaq. On dəqiqəyə Şuşaya getmək mümkün olacaq. Bir də kanat yolu da olacaq, yəqin ki, eşitmisiniz. Xankəndidən Şuşaya kanat yolu, eşitmisiniz?

**Qadın işçi:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, cansağlığı arzulayıram.

**Qadın işçi:** Allah Sizə dəyməsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

* * *

Qeyd edək ki, bu müəssisənin yaradılması Xankəndidə yüngül sənaye sahəsinin inkişafına töhfə verməklə yanaşı, şəhərin iqtisadi potensialının bərpasında da rol oynayacaq. Bu cür sənaye infrastrukturunun yaradılması yerli əhalinin işlə təmin olunmasına şərait yaradır, həm daxili bazarın tələbatını ödəməyə, həm də ixracyönümlü istehsalın həcmini artırmağa xidmət edir. Bütün bu işlər Azərbaycan dövlətinin Qarabağın iqtisadi potensialının bərpası, onun möhkəmləndirilməsi və müxtəlif təyinatlı məhsul istehsalının təşkili istiqamətində atdığı ardıcıl və məqsədyönlü addımların bir hissəsidir.

## Prezident İlham Əliyev Xocalıda hərbi qulluqçular üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xocalı rayonunda əsaslı təmir edilən və Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verildi.

Bildirildi ki, burada ümumilikdə 191 fərdi ev var. Onlardan 1-i ikiotaqlı, 70-i üçotaqlı, 93-ü dördotaqlı, 8-i beşotaqlı, 1-i isə səkkizotaqlıdır. Bundan başqa, ərazidə ikimərtəbəli, yeddiotaqlı 18 ev də var.

Evlərdə sakinlərin rahat yaşaması və istirahəti üçün zəruri şərait yaradılıb. Evlər elektrik enerjisi və qazla təchiz olunub.

*Ardı 4-cü səh.*

◆ Prezident İlham Əliyevin
Şuşa, Xankəndi və Xocalıya səfəri

# Biz, sözün əsl mənasında, müstəqil dövlətik

## Prezident İlham Əliyev Xocalıda hərbi qulluqçular üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub

*Əvvəli 3-cü səh.*

Həmçinin ərazidə kommunikasiya layihələri, o cümlədən məhəllədaxili yolların yenidən qurulması icra olunub. Sakinlərin istirahəti üçün park salınıb, Bayraq meydanı yaradılıb.

Qeyd edək ki, hərbi qulluqçuların xidməti evlərlə təmin olunması, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mühüm istiqamətlərindəndir. Bu yanaşma ilk növbədə hərbi qulluqçuların, onların ailələrinin sosial qayğılarının həllinə xidmət edir. İndiyədək minlərlə hərbçinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların dövlət vəsaiti hesabına mənzillərlə təmin edilməsi istiqamətində konkret layihələr icra olunub.





## Xocalı şəhərində "Qarabağ Tekstil Evi" MMC istifadəyə verilib












**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xocalı şəhərində "Qarabağ Tekstil Evi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Qarabağ Tekstil Evi" MMC-nin təsisçisi Rizvan Təhməzov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Türkiyə və Çin texnologiyalarının quraşdırıldığı müəssisədə il ərzində 1,4 milyon ədəd tekstil məhsulu istehsal olunacaq. İlkin mərhələdə müəssisədə müxtəlif çeşiddə və ölçülərdə ev tekstili məhsulları, o cümlədən yataq dəsti, çarpayı və divan örtüyü, dəsmal və digər məhsulların istehsalı nəzərdə tutulur. Xammal tədarükü əsasən daxili bazar hesabına təmin ediləcək müəssisəyə, eyni zamanda Türkiyə, Özbəkistan və Çindən də xammal idxal olunacaq. Müəssisənin məhsulları daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək.

Müəssisədə 85 nəfər daimi işlə təmin olunub ki, onlar da əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlardır. Bununla yanaşı, Xocalı və Ağdam rayonlarının 40 sakini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq



Agentliyinin dəstəyi ilə təşkil edilən 2 aylıq peşə təliminə cəlb olunacaq. Təlim proqramını uğurla başa vuran iştirakçılar müəssisədə işlə təmin ediləcəklər. Gələcəkdə iş yerlərinin sayının 200-ə çatdırılması, əlavə olaraq geyim istehsalının təşkili planlaşdırılır. Qeyd edək ki, "Qarabağ Tekstil Evi" MMC-nin Xankəndi şəhərində yerləşən tikiş fabrikində hazırda 60 nəfər çalışır.

İstehsal müəssisəsinin ilkin investisiya dəyəri 4,2 milyon manatdır. Onun yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3,2 milyon manat məbləğində güzəştli kredit ayrılıb, 1 milyon manat isə özəl investisiya yönləndirilib. Müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentləri üçün nəzərdə tutulan bütün güzəşt və azadolmalardan yararlanacaq.

Müəssisənin fəaliyyətə başlaması ölkəmizdə sənayenin inkişafına, yerli istehsalın və ixrac potensialının genişləndirilməsinə, idxaldan asılılığın azaldılmasına töhfə verəcək, işğaldan azad edilmiş ərazilərdə məşğulluğun artırılmasına şərait yaradacaq. Ümumilikdə işğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün əlverişli investisiya və biznes mühiti yaradılıb ki, bu da regionda iqtisadi fəaliyyətin genişlənməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir. İşğaldan azad edilmiş ərazilərin rezidentləri üçün geniş vergi, gömrük və sosial güzəştlər tətbiq olunur.

# Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir

## Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində iştirak edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın "ICA Events" şirkətinin İdarə Şurasının müşaviri **Tomas HORD** çıxış edərək dedi:

- Sabahınız xeyir, Zati-aliləri cənab Prezident!

Hörmətli nazirlər, Zati-aliləri xanımlar və cənablar!

Təşkilat Komitəsi adından Sizi 31-ci "Bakı Enerji Həftəsi"ndə salamlamaqdan böyük şərəf duyuruq. Bu gün burada iştirak etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə olduqca minnətdarıq. Bu, tədbirin Azərbaycanın enerji sektoru və bütövlükdə beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini vurğulayır. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müasir tarixində yeni bir səhifə açdı. Tarixi "Əsrin müqaviləsi"nin imzalanması ilə yanaşı, təşkil olunan ilk Xəzər Neft və Qaz Sərgisi ölkənin uzunmüddətli enerji strategiyasının təməlini qoydu, Azərbaycanı qlobal enerji sektorunda etibarlı və vacib tərəfdaş kimi təsdiqlədi. Son üç onillikdə "Bakı Enerji Həftəsi" regionun aparıcı beynəlxalq enerji platformalarından birinə çevrilərək dövlət başçılarını, nazirləri, qlobal enerji şirkətlərini, investorları və sənaye mütəxəssislərini enerji sənayesinin gələcəyini formalaşdıran əsas prioritetləri müzakirə etmək üçün bir araya gətirmişdir. Bu il keçirilən tədbirə gəldikdə, regional enerji əməkdaşlığına, enerji təhlükəsizliyinə və beynəlxalq bazarlara enerji təchizatının şaxələndirilməsinə əhəmiyyətli töhfələr verən əlamətdar bir inkişaf olan "Şahdəniz" layihəsinin 30-cu ildönümünü qeyd etdiyimiz üçün xüsusi əhəmiyyət kəsb edir. Bu mərhələnin əhəmiyyəti cari ildə həyata keçirilən proqram və müzakirələrdə öz əksini tapır.

Bildiyiniz kimi, bu il keçirilən "Bakı Enerji Həftəsi", həmçinin geniş beynəlxalq tədbirlər və yüksəksəviyyəli görüşlər proqramı ilə müşayiət olunur ki, bu da Azərbaycanın beynəlxalq dialoq, strateji tərəfdaşlıq və qlobal əməkdaşlıq üçün mühüm platforma kimi rolunu daha da gücləndirir. 2026-cı ildə keçirilən tədbir yeni iştirakçılar və milli pavilyonlar da daxil olmaqla 46 ölkədən 270-dən çox şirkəti bir araya gətirir ki, bu da Azərbaycanın enerji sektoruna artan beynəlxalq marağı və ölkənin uzunmüddətli strateji potensialına inamı aydın şəkildə əks etdirir.

Bu mühüm tədbirin uğurlu təşkilinə verdiyi davamlı dəstəyə və töhfəyə görə Azərbaycan Respublikasının Energetika Nazirliyinə, Dövlət Neft Şirkətinə, bütün dəyərli tərəfdaşlarımıza və sponsorlarımıza səmimi minnətdarlığımı bildirmək istəyirəm.

İcazə verin, bütün iştirakçıları 31-ci "Bakı Enerji Həftəsi"nin açılışı münasibətilə təbrik edim və sizə məhsuldar müzakirələr, görüşlər və həftə ərzində davamlı uğurlar arzulayım. Diqqətinizə görə təşəkkür edirəm.

İndi isə mən böyük şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevi tribunaya dəvət edirəm.

* * *

Sonra dövlətimizin başçısı tədbirdə çıxış etdi.




## Prezident İlham Əliyevin çıxışı

- Sabahınız xeyir, xanımlar və cənablar!

Mən "Bakı Enerji Həftəsi"nin bütün iştirakçılarını salamlayıram, bu cür böyük tədbirə uğurlar arzu edirəm.

Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub.

Bu bir daha göstərir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində, həqiqətən, aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm.

Enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar.

Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz. Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!

Bir sözlə, hesab edirəm ki, hazırda qlobal enerji səhnəsində baş verən hallar ABŞ Prezidentinin çox müdrik və praqmatik siyasəti sayəsində ərsəyə gəlmişdir. Hamımız ona bir daha minnətdarıq. Ölkələr neft və qazın mövcud olmasına görə günahlandırılmalı deyil, çünki neft və qaz digər adi əmtəə kimidir. Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı öz inkişafı üçün istifadə edir. Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, "yaşıl gündəlik" məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız.

Hörmətli iştirakçı və təşkilatçı tərəfindən qeyd edildi ki, Azərbaycanın enerji inkişafı 1994-cü ildə başladı. Yeri gəlmişkən, təşkilatçılara da öz dərin təşəkkürümüzü bildiririk. Əgər 1994-cü ilə nəzər salsaq, keçmişdə Azərbaycanın çox ağır vəziyyətdə olduğunu görə bilərik. Ölkə iqtisadi baxımdan tam qarışıq, siyasi baxımdan qeyri-sabit idi. Ərazinin təxminən 20 faizi Ermənistanın işğalı altında idi. Bir milyon qaçqın var idi və həmin vaxt, bu, ola bilsin, adambaşına düşən ən yüksək qaçqın sayı idi. Bizim heç bir vəsaitimiz yox idi. Elektrik enerjisini idxal edirdik. Biz hətta təbii qazı idxal edirdik. Yoxsulluq səviyyəsi 50 faizdən artıq idi. İşsizlik geniş yayılmışdı. Müstəqil ölkə kimi yaşamaq və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi. Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu.

Əgər bu gün biz Azərbaycana nəzər salsaq həmin transformasiyaya gəldikdə, bu sərvətlərdən necə istifadə etdiyimizə, onun yenidən sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına yatırdığımıza əsasən deyə bilərik ki, ölkələr necə inkişaf etməlidir və bu yol 1990-cı illərin əvvəlində üzləşdiyimiz eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək olmalıdır.

Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı. Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər.

Enerji təhlükəsizliyi. Biz hamımız ondan danışırıq, xüsusilə indi Yaxın Şərqdəki böhran bir çox ölkələrin, istehsalçı və istehlakçıların enerji təhlükəsizliyinə ciddi zərbə vurduğu vaxtda. Biz bunun üzərində uzun illər çalışmışıq. Biz böyük sərmayələr yatırmışıq və Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərləri kimi irimiqyaslı infrastruktur layihələrinə başlamışıq. Cənubi Qafqaz qaz kəməri ilə günümüzün ən iddialı enerji infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi"ni təşkil edən TANAP və TAP, Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri 3500 kilometr uzunluğunda birləşmiş boru xətti sistemindən ibarətdir. Layihənin bir hissəsi yüksək dağlıq ərazidən keçir, bir hissəsi isə dənizin dibi ilə gedir. Bu gün bu layihə sayı artmaqda olan ölkələrin enerji təhlükəsizliyini təmin edir. Biz bu layihəyə başladıq və bizimlə birlikdə olan tərəfdaş ölkələrə və şirkətlərə minnətdarıq.

Bu gün Avropa enerji bazarının "Cənub qaz dəhlizi" olmadan necə olacağını təsəvvür etmək çətindir. Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada – "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq. Yeri gəlmişkən, bu gün bizdə bir neçə sənədin imzalanma mərasimi olacaq. Mən xüsusilə "Azəri-Çıraq-Günəşli" dərin qaz layihəsini vurğulamaq istəyirəm, biz bunu belə adlandırırıq. Bu layihə üzrə Abşeron yatağı və bir çox digər yataqlarla yanaşı, əlavə qaz hasil ediləcəkdir. Beləliklə, bizim qlobal enerji təhlükəsizliyinə töhfəmiz, əlbəttə ki, artacaqdır. Düzgün enerji siyasəti bizə Azərbaycandan xaricə sərmayə yatırmağa imkan verdi. Otuz il bundan əvvəl biz investorları cəlb edirdik. İndi isə öz investisiyalarımızla xaricə çıxırıq. Bu gün Dövlət Neft Şirkəti – SOCAR Yaxın Şərq, Afrika və Mərkəzi Asiyaya investisiya yatırır və bu coğrafiya daha da genişlənəcək.

Biz Xəzər dənizinin şərq sahillərində yerləşən dost və tərəfdaşlarımız üçün mühüm tranzit imkanları təqdim edirik. Mərkəzi Asiyadan hasil olunan neft Azərbaycan ərazisindən keçərək beynəlxalq bazarlara çıxarılır. Ümid edirəm ki, yaxın gələcəkdə təbii qazla bağlı da eyni sözləri deyə biləcəyik.

Biz emal sənayesində yüksək dərəcədə şaxələndirilmiş imkanlar yaratmışıq. Bu gün SOCAR-ın neft emalı gücü 30 milyon tondan artıqdır. Bu yaxınlarda "Italiana Petroli"nin satın alınması nəticəsində Aralıq dənizi hövzəsindəki emal gücümüz 13 milyon tondan 23 milyon tona yüksəlmişdir. Beləliklə, biz yalnız neft və qaz deyil, həm də neft məhsullarını təchiz edirik. Bununla yanaşı, elektrik enerjisi, neft-kimya məhsulları və bərpaolunan enerji sahəsində də ixrac imkanlarımız mövcuddur. Bu istiqamət fəaliyyətimizin əsas prioritetlərindən biridir. Artıq qeyd etdiyim kimi, ölkələr sahib olduqları neft ehtiyatlarına əsasən deyil, həmin resurslardan əldə olunan gəlirləri necə idarə etdiklərinə və bərpaolunan enerjiyə necə sərmayə yatırdıqlarına görə qiymətləndirilməlidirlər.

Mövcud qaz ehtiyatlarımız ən azı növbəti yüz il ərzində həm ölkəmizin, həm də tərəfdaşlarımızın tələbatını ödəməyə kifayət edəcəkdir. Əslində, bu ehtiyatlar nəzərə alındıqda, elektrik enerjisinin istehsalı üçün əlavə mənbələrə ehtiyacımız olmazdı. Lakin məsuliyyətimiz bizdən bərpaolunan enerji mənbələrinə sərmayə yatırmağı tələb edir. Biz bunu edirik. Tərəfdaşlarımızla birlikdə investorlar üçün olduqca əlverişli şərait yaratmışıq. Bu şərait mahiyyət etibarilə ötən əsrin 90-cı illərinin əvvəllərində neft şirkətləri üçün yaradılmış imkanlara bənzəyir. Bu gün eyni əməkdaşlıq ruhu və investisiyaya açıq yanaşma bərpaolunan enerji sektorunda fəaliyyət göstərən şirkətlərə də tətbiq olunur.

Artıq bir sıra layihələrimiz istismar mərhələsindədir. Gələn ilin sonunadək Günəş və külək enerjisi üzrə ümumi gücümüz 2 giqavata çatacaq. 2032-ci ilin sonunadək isə bu göstərici 8 giqavat təşkil edəcək. Əgər fəal şəkildə inkişaf etdirdiyimiz hidroenerji potensialını da nəzərə alsaq, xüsusilə Qarabağda və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox güc istifadəyə verilmişdir. Bu da ölkəmiz üçün əlavə enerji potensialı yaradır. Həmin potensial neft və qaz ixracımızı tamamlayan bir mənbəyə çevriləcəkdir.

Bu gün biz tərəfdaşlarımızla enerji kabeli layihələri üzrə sıx əməkdaşlıq edirik. Texniki-iqtisadi əsaslandırma mərhələsinin artıq yekunlaşmaq üzrə olduğu "Qara dəniz Enerji Kabeli" layihəsi Azərbaycanı Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan və digər ölkələrlə birləşdirəcək. Azərbaycan–Gürcüstan–Türkiyə–Bolqarıstan marşrutu üzrə quruda çəkiləcək elektrik kabeli layihəsi də hazırda icra mərhələsindədir. Bu yaxınlarda həmin ölkələrin hökumət nümayəndələrinin çox səmərəli görüşü keçirilmişdir.

Biz həmçinin Mərkəzi Asiyadakı tərəfdaşlarımızla birlikdə Xəzərin şərq sahillərindən Azərbaycana qədər uzanacaq "yaşıl enerji" kabeli layihəsi üzərində işləyirik.

Beləliklə, söhbət geniş coğrafiyanı əhatə edən böyük əməkdaşlıq məkanından gedir və bu bağlılıq yalnız nəqliyyat sahəsi ilə məhdudlaşmır. Halbuki nəqliyyat sahəsində əldə etdiyimiz nailiyyətlərlə də haqlı olaraq fəxr edə bilərik. Dəmir yolu və avtomobil yolu infrastrukturuna qoyduğumuz sərmayələr sayəsində yeni nəqliyyat dəhlizləri açmışıq və qitələri bir-biri ilə əlaqələndirmişik.

"Şərq-Qərb" dəhlizi uğurla fəaliyyət göstərir. Şübhəsiz ki, "Şərq-Qərb" dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizi də inşa ediləcəkdir. Bu, ötən il avqustun 8-də Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti, Ermənistanın Baş naziri və mənim tərəfimdən imzalanmış sənədə əsaslanır. Bütün bunlar hamımız üçün böyük sərvətdir.

Xüsusilə vurğulamaq istədiyim digər bir məsələ isə ondan ibarətdir ki, bütün bu nailiyyətlər yüksəksəviyyəli diplomatik fəaliyyət nəticəsində mümkün olmuşdur. Çünki Azərbaycan dənizə birbaşa çıxışı olmayan ölkədir. Bizim dünya okeanlarına çıxışımız yoxdur. Bu səbəbdən enerji resurslarımızı ixrac etmək üçün digər ölkələrin ərazisindən keçmək zərurəti yaranır. Buna nail olmaq üçün isə yalnız qonşularınızla deyil, qonşularınızın qonşuları ilə də yaxşı münasibətlər qurmalısınız. Biz buna nail olmuşuq.

Qeyd etdiyim kimi, bu gün "Cənub qaz dəhlizi" və onun genişləndirilmiş marşrutları vasitəsilə Azərbaycanın qazı 16 ölkəyə çatdırılır. Bu ölkələrin hər biri ilə danışıqlar aparmışıq, sazişlər imzalamışıq, fikir ayrılıqlarını aradan qaldırmışıq və imzalanma mərasimləri təşkil etmişik. Nəticədə geniş mənada regional əməkdaşlığın çoxşaxəli və əhatəli formatı meydana gəlmişdir. Bu prosesdə aparıcı qüvvə yenə də Azərbaycan olmuşdur. Bu, bizim resurslarımız idi. Bu, bizim təşəbbüslərimiz idi. Əsas etibarilə, məhz bizim investisiyalarımız bu geniş əməkdaşlıq formatının yaranmasını təmin etmişdir.

Əminəm ki, ənənəvi olaraq "Bakı Enerji Həftəsi" bu dəfə də uğurlu nəticələr verəcəkdir. Bir neçə dəqiqədən sonra bu nəticələrin bir qisminin şahidi olacağıq. Lakin əminəm ki, aparılan müzakirələr, təmaslar, yeni ideyalar və nəticəyönümlü planlar hamımız üçün faydalı olacaqdır. Bir daha bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi **Kaleb ORR** çıxış edərək dedi:

- Sağ olun, Prezident Əliyev. Prezident Trampın rəhbərlik keyfiyyətləri ilə bağlı söylədiyiniz fikirlərə görə Sizə təşəkkürümüzü bildiririk və düşünürəm ki, Prezident Tramp və Dövlət katibi Rubio bundan çox məmnundur. Sizə uğurlar arzu edirik.

Hörmətli cənab Prezident, nazir Şahbazov, hörmətli Rövşən Nəcəf, nazirlər, xanımlar və cənablar.

Bu gün 31-ci "Bakı Enerji Həftəsi"ndə sizinlə burada olmaqdan çox məmnunam.

Üç onillik ərzində ABŞ və Azərbaycan Respublikası uzunmüddətli tərəfdaşlıq qurmuşdur. Azərbaycan enerji təhlükəsizliyinin irəliyə doğru aparılmasında regionda çox mühüm tərəfdaşdır. Azərbaycan həmçinin müasir neft sənayesinin beşiyidir. Bizim 30 il öncə imzaladığımız "Əsrin müqaviləsi" bütövlükdə bütün neft və qaz bazarlarında vəziyyəti dəyişdi, bir çox nəsillərə xidmət etdi.

Bizim strateji tərəfdaşlığımıza dair saziş Bakıda Vitse-prezident Vens və Azərbaycan Prezidenti Əliyev tərəfindən imzalanmışdır. Birləşmiş Ştatlar bundan sonra da təbii sərvətlərin hasil olunması və ixrac edilməsi istiqamətində Azərbaycanla əməkdaşlığı davam etdirmək arzusundadır. İndi isə mən ABŞ Prezidenti Donald Trampın məktubunu oxumaq istərdim.

*"Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev.*

*31-ci "Bakı Enerji Həftəsi"ni keçirdiyiniz vaxtda Sizə və Azərbaycan xalqına öz təbriklərimi çatdırıram. Bu nailiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur.*

*Ölkələrimiz karbohidrogen sektorunda uzun tarixi olan əməkdaşlığa malikdir və əlçatan, zəngin enerjinin təmin edilməsinə sadiqdirlər. Birləşmiş Ştatlar Azərbaycanın neft-qaz sənayesinin çox böyük tərəfdarıdır və mən qətiyyətlə inanıram ki, qlobal enerji təhlükəsizliyi sahəsində əsaslı tərəfdaşlığımızın əhəmiyyəti gələcək illərdə yalnız artacaqdır.*

*Biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq. Bildiyiniz kimi, regional enerji inteqrasiyası avqustun 8-də keçirilmiş tarixi sülh sammitinin əsas sütunudur. Mənim Administrasiyam bu mövzu ilə əlaqədar iyun ayında məhsuldar müzakirələri səbirsizliklə gözləyir.*

*Biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq. Uğurlu "Bakı Enerji Həftəsi" münasibətilə bir daha təbriklərimi çatdırıram.*

***Səmimiyyətlə,***
***Donald TRAMP".***

*Ardı 6-cı səh.*

# Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir

## Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində iştirak edib

*Əvvəli 5-ci səh.*

**Kaleb ORR:** Bir daha təşəkkür edirəm, cənab Prezident, hörmətli qonaqlar, sizə bu həftə işinizdə uğurlar arzulayıram.

* * *

Daha sonra Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri **Alparslan BAYRAKTAR** Prezident Rəcəb Tayyib Ərdoğanın "Bakı Enerji Həftəsi"nə məktubunu oxudu:

*"Hörmətli iştirakçılar, hörmətli qonaqlar!*

*Sizi ən səmimi duyğu və sevgi ilə salamlayıram!*

*Otuz ildən artıq müddətdir qlobal enerji liderlərini, investorları və şirkətləri bir araya gətirən bu mötəbər foruma məktub göndərməklə də olsa, müraciət etməkdən böyük məmnunluq duyuram.*

*Regionumuzda yaşanan proseslər Azərbaycanla birlikdə enerji sahəsində atdığımız addımların nə qədər düzgün olduğunu göstərir. Bölgəmiz üçün xəyal kimi görünən bir çox meqalayihəni Azərbaycanla birlikdə uğurla həyata keçirməkdə davam edirik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP boru kəmərləri kimi layihələr Azərbaycanla birlikdə başlatdığımız və digər bir dost ölkə Gürcüstanın da töhfələri ilə başa çatdırdığımız layihələr arasındadır.*

*"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" layihələrində tərəfdaşlığımız sayəsində Azərbaycanla əməkdaşlığımızın daha da dərinləşdiyini görürük. "Şəfəq-Asiman" yatağı üzrə yeni tərəfdaşlığımız bu əməkdaşlığımızın fasiləsiz şəkildə davam etməsinin növbəti bariz sübutudur. Ötən il istifadəyə verilən İğdır-Naxçıvan qaz kəməri Naxçıvan bölgəsinin enerji təhlükəsizliyini dəstəkləyib və möhkəmləndirib.*

*Türkiyə ilə Azərbaycan arasındakı elektrik bağlantıları bizim üçün strateji əhəmiyyət daşımaqdadır. İnşallah, Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstan arasında "yaşıl elektrik enerjisi"nin ötürülməsi və ticarəti layihəsinin həyata keçirilməsi ilə bütün regionumuzun enerji təhlükəsizliyinə töhfə verməyi düşünürük.*

*Eyni qaydada ötən ilin avqust ayında Türkiyə və Azərbaycanın birgə təşəbbüsü nəticəsində Suriyaya qaz tədarükünün başlanmasının bu ölkənin inkişafına və regional təhlükəsizliyə töhfələri mübahisəsizdir. Türkmənistan qazının Azərbaycan və Türkiyə vasitəsilə ixracı istiqamətində əməkdaşlığımızı genişləndirmək üçün qarşımızda böyük imkanlar mövcuddur. Qazaxıstanın təbii ehtiyatlarının Qərb bazarlarına çatdırılmasında Bakı-Tbilisi-Ceyhan boru kəmərindən istifadənin daha da artmasının şahidi oluruq.*

*Hörmətli iştirakçılar, Türkiyə bərpaolunan və "yaşıl enerji" də daxil olmaqla enerji sektorunun bütün istiqamətlərində səmərəliliyi və ətraf mühitə qayğını əsas götürərək məhsuldarlığı təmin etməyə yönəlmiş baxışa sahibdir. Qlobal iqlim fəaliyyəti sahəsində öncül və nümunəvi ölkələrdən biri olmaq əzmimizi bu il noyabrın 9-20-də Antalyada ev sahibliyi edəcəyimiz COP31 Sammiti ilə daha da möhkəmləndirəcəyik.*

*Bu fikirlərlə "Bakı Enerji Həftəsi"nin ölkələrimiz və regionumuz üçün xeyirlərə vəsilə olmasını arzulayıram. Tədbirin təşkilində əməyi olanlara təşəkkür edir, Əziz Qardaşım Prezident cənab Əliyevi və bütün iştirakçıları səmimiyyətlə salamlayıram.*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Prezidenti".***

**Alparslan BAYRAKTAR:** Hörmətli Prezident Əliyev, hörmətli iştirakçılar. Bir daha "Bakı Enerji Həftəsi"nin açılışında sizin qarşınızda çıxış etməkdən çox məmnun olduğumu bildirirəm. Mən cənab




Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürümü bildirirəm ki, onlar bizə çox səmimi qonaqpərvərlik göstərdilər.

Bu gün biz məhz əlçatan və etibarlı enerjinin təchizatı haqqında danışırıq. Geosiyasi təlatümlər, regionumuzda müharibələr – bu, bizim vəziyyətimizi daha da çətinləşdirir və biz daim enerji sistemimizdə qlobal çətinlikləri görürük. Bu gün baş verən qlobal hadisələr bir daha bizə xatırlatdı ki, enerji təhlükəsizliyi bütün ölkələr üçün strateji prioritet olaraq qalır. Bu gün enerji təhlükəsizliyi sərvətlərə sırf çıxışla məhdudlaşmır, bu, həmçinin təchizatın etibarlılığı, əməliyyatların çevikliyi, bütün imkanların genişləndirilməsi və əməkdaşlıqla bağlıdır. Biz bu gün qarşımızda duran çağırışlara tab gətiririk. Lakin eyni zamanda biz yeni meydana gələn, bəşəriyyətin üzləşdiyi çətinliklər və iqlim dəyişiklikləri ilə mübarizə aparırıq. Bütün bunlar bizim tərəfimizdən səylərin birləşdirilməsinə, düzgün və etibarlı şəkildə bütün ölçülər arasında tarazlığın tapılmasına imkan yaradır. Biz Türkiyə olaraq hesab edirik ki, burada asılılığımızı azaltmalıyıq və 2050-ci ildə xalis sıfır göstəricisinə nail olmaq planımızı vacib hesab edirik. Bu gün biz Türkiyənin bütün mövcud gücündən istifadə edirik və bütün Avropada beşinciyik, aparıcı mövqedəyik.

Eyni zamanda biz Günəş enerjisinin daha geniş şəkildə istifadəsinə ümid bəsləyir, yeni enerji quruluşu üzərində işləyirik və daha müqavimətli, daha çevik, daha rəqəmsal formatda çalışan sistemlər qururuq. Təbii ki, bu gün təbii sərvətlər, enerji bizim bazarlarımızın əsasını təşkil edir və bir çox layihələr bundan asılıdır. Bu isə infrastrukturun genişləndirilməsindən, daha böyük sərmayələrin yatırılmasından və əlbəttə ki, qonşularımızla işbirliyinin qurulmasından keçir. Təbii ki, bu gün Türkiyə öz tərəfdaşları ilə iş sayəsində maye qaz və qaz bazarında da çox mühüm dayanıqlı mövqeyə malikdir. Əlbəttə, biz özümüzün qaz hasilatına gəldikdə, növbəti illər ərzində bu artacaq və ümid edirik ki, 7,5 milyard kubmetr həcminə çatacaq, eyni zamanda bu ilin sonuna qədər biz "Ağ quyu" layihəsinin ilk mərhələsinin tamamlanmasına ümid edirik.

Hörmətli iştirakçılar, bu gün Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər çox gözəl bir nümunədir ki, əməkdaşlıq, strateji dəyər bütün region üçün təmin edilə bilər. Bizim tərəfdaşlığımız ümumi tariximizdə, qardaşlığımızda əks olunur və biz Avropanın enerji təhlükəsizliyinə birgə töhfə veririk.

Burada Zati-aliləri cənab Prezident Əliyev Bakı-Tbilisi-Ceyhan, TANAP və digər layihələri xatırlatdı. Bütün bunlar məhz regionda enerji quruluşunun təmin edilməsinə yönəlib ki, bu da əslində həm istehlakçılar, həm hasilatçılar, həm də tranzit ölkələr üçün çox mühüm bir nümunəyə çevrilmişdir. Hesab edirik ki, bizim əməkdaşlığımız bu hüdudlardan kənara çıxır. Türkiyə ilə Azərbaycan, həmçinin bərpaolunan elektrik enerjisinin nəql edilməsində və enerji dəhlizlərinin açılmasında əməkdaşlıq edir. Gürcüstanla, Bolqarıstanla və digər qonşularımızla əməkdaşlıq edirik. Biz istəyirik ki, həmin TANAP-ın elektrik variantını yaradaq. Şərq ilə Qərb arasındakı strateji mövqeyindən irəli gələrək Türkiyə bundan sonra da etibarlı tərəfdaş olaraq qalacaq və regionda enerji layihələrinin icrasına öz töhfəsini davam etdirəcək. Bu il ərzində nəzərdə tutulan işlərə gəldikdə, ümid edirik ki, Türkiyə həmçinin iqlim sahəsində aparılan dialoqa öz töhfəsini verəcək.

Mən bir daha cənab Prezident Əliyevə və Azərbaycan hökumətinə bu gün bizi qəbul etdiyinə görə təşəkkürümü bildirirəm ki, bizi belə mühüm məkanda ənənəvi tədbir çərçivəsində bir araya gətirib. Təşəkkür edirəm.

* * *

Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı **Devid RİD** çıxış edərək dedi:

- Zati-aliləri Prezident İlham Əliyev!

Zati-aliləri xanımlar və cənablar!

Mən böyük məmnunluq hissi ilə Birləşmiş Krallığı 31-ci "Bakı Enerji Həftəsi"ndə təmsil edirəm və ticarət komissarı kimi ezam olunmuşam.

İndi isə Baş nazir Kir Starmerin məktubunu oxumaq istəyirəm.

*"Hörmətli Prezident Əliyev!*

*2026-cı ilin "Bakı Enerji Həftəsi"ndə iştirak edən hər kəsə səmimi salamlarımı yetirməkdən məmnunam. Qlobal qeyri-müəyyənlik dövründə Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin və dayanıqlı mövqenin gücləndirilməsində çox mühüm tərəfdaş olaraq qalır.*

*On səkkiz ay əvvəl COP29-da iştirak üçün Bakıya səfər etdiyimiz zaman enerji keçidinə Azərbaycanın yetirdiyi ciddi diqqət mənə dərin təəssürat bağışladı. Həmin vaxtdan etibarən planlar fəaliyyətə çevrildi və bərpaolunan mənbələrdə enerji istehsalı sürətləndi, həm quruda, həm də dənizdə "yaşıl enerji"nin nəqli üçün geniş həll variantları təqdim olundu. Ölkəniz Ukraynanın enerji infrastrukturuna Rusiyanın davamlı və qanunsuz hücumları qarşısında həmin ölkənin enerji dayanıqlılığının möhkəmləndirilməsində mühüm rol oynadı. Ölkəniz təchizat zəncirlərinin şaxələndirilməsi yolu ilə öz enerji dayanıqlılığını formalaşdırmaq məqsədilə Avropa ölkələrinə imkanlar yaratdı. Həmçinin ötən il ölkəniz Sizin uzunmüddətli sülhə sadiqliyinizi gücləndirərək Ermənistana enerji ixracına başladı.*

*Ortaq iqlim məqsədlərinə doğru çalışdığımız bir vaxtda Birləşmiş Krallıq iqlimə müqavimətimizi gücləndirmək və 2050-ci ilə qədər xalis sıfra nail olmaq məqsədilə bu hökumətin planları üçün çox vacib olan qlobal enerji keçidini sürətləndirmək naminə Azərbaycanla çiyin-çiyinə işləməyə sadiq qalır. Britaniyanın sənayesi başda olmaqla, bizim uzunmüddətli enerji tərəfdaşlığımız ikitərəfli münasibətlərimizin təməl daşı rolunu oynayacaq, hər iki iqtisadiyyatda artımı sürətləndirən amil kimi davamlı xidmət edəcək. Bərpaolunan enerji və təmiz texnologiyalar sahəsində ekspert bacarıqlarımızı birləşdirərək, biz xalis sıfra nail olmaq və çiçəklənən, davamlı gələcəyi təmin etmək baxımından zəruri olan innovasiyanı inkişaf etdirə bilərik.*

*Bu təşəbbüs üçün göstərdiyiniz liderlik keyfiyyətlərini alqışlayır, Sizə və bütün iştirakçılara olduqca məhsuldar və uğurlu tədbir arzu edirəm.*

***Kir STARMER,***
***Britaniyanın Baş naziri".***

* * *

Avropa Komissiyasının Enerji üzrə Baş Direktorluğunun Enerji, təhlükəsizlik və beynəlxalq münasibətlər üzrə şöbəsinin rəhbəri **Kristina Lobilla BORRERO** çıxış edərək dedi:

- Zati-aliləri!

Hörmətli nazirlər, hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Xəzər Neft və Qaz Sərgisinin açılışında sizinlə birlikdə olmaqdan şərəf duyuram.

Yaxın Şərqdəki mövcud böhran, enerji təhlükəsizliyi bir daha qlobal məsələləri ön plana çıxartdı. Rusiyanın Ukraynaya hücumunun doğurduğu kəskin təchizat böhranından yenicə çıxdıqdan sonra indi başqa bir böhranla qarşılaşırıq. Avropada bu, təchizat çatışmazlığı ilə deyil, dəyişkən qiymətlərlə müəyyən edilir.

Avropa İttifaqı 2050-ci ilə qədər dekarbonizasiya hədəflərimizə qətiyyətlə sadiqdir. Bu yolda irəlilədiyimiz dövrdə biz qazın xalis idxalçısıyıq və həm qiymət dəyişməsindən, həm də təchizat problemlərindən asılıyıq. Bu kontekstdə etibarlı tərəfdaşlar çox vacibdir. Azərbaycan enerji tərəfdaşı, Avropa İttifaqının daha geniş əlaqə və gündəliyinin bir hissəsi kimi mühüm rol oynayır. Buna görə də icazə verin, bu mühüm tədbir üçün hökumətləri, sənaye nümayəndələrini, investorları və texnologiya təminatçılarını bir araya gətirdiyi üçün Azərbaycana təşəkkürümü ifadə edim.

Uzun illərdir ki, bu forum enerji sektoru üçün vacib olan məsələləri gündəmə gətirir. Bunlar təkcə Xəzər regionu üçün deyil, həm də Avropa və daha geniş beynəlxalq enerji birliyi üçün mühüm məsələlərdir. Bakının uzun və möhtəşəm enerji tarixi var. Bununla yanaşı, Bakı enerji tərəfdaşlıqlarının gələcəyinin müzakirə olunduğu bir məkandır. Avropa Komissiyası üçün bu görüş neft və qazın qlobal enerji təhlükəsizliyi, sənaye fəaliyyəti, nəqliyyat və enerji bazarlarının sabitliyində mühüm rol oynamağa davam etdiyi xüsusi bir vaxtda keçirilir. Azərbaycan və Xəzər regionu Avropanın enerji təchizatının etibarlılığını gücləndirməyə kömək edən "Cənub qaz dəhlizi" də daxil olmaqla bu səylərə əhəmiyyətli töhfə verib. Bu töhfə olduqca yüksək qiymətləndirilir. 2021-ci ildən etibarən Avropa İttifaqı Azərbaycandan təbii qaz idxalını 40 faizdən çox artırıb. Bu ilin yanvarında Trans-Adriatik boru kəməri ilə 1,2 milyard kubmetr həcmində qaz çatdırılıb. Bu da 2026-cı ildə əlavə qaz tədarükü deməkdir.

Bu gün güclü enerji tərəfdaşlığı yalnız həcmlərlə ölçülmür. Onlar həmçinin etibarlı təchizat, yüksək əməliyyat standartları, resurslardan səmərəli istifadə, şəffaf hüquqi çərçivələr və metan emissiyalarının azaldılması daxil olmaqla ətraf mühit göstəriciləri ilə ölçülür. Azərbaycanla əməkdaşlığımız bərpaolunan enerji mənbələri və interkonnektorlar sahəsində də genişlənir. Biz Xəzər- Qara dəniz-Avropa "Yaşıl Enerji Dəhlizi" planını diqqətlə izləyirik.

Xəzər regionu Cənubi Qafqaz və Avropa arasında gələcək bağlantıya aid daha geniş müzakirənin bir hissəsidir. Bu layihənin növbəti vacib addımı Avropa İttifaqının qarşılıqlı maraq doğuran layihələr çərçivəsində qiymətləndirilmənin aparılmasıdır. Bütün iştirakçı ölkələrin bu ilin sonuna doğru qarşılıqlı maraq doğuran layihə statusunu almaq üçün müraciət etmək niyyəti çox mühüm mərhələdir. Gələcəyə baxdıqda ən güclü enerji tərəfdaşlıqları bu günün etibarlılığını sabahın hazırlığı ilə birləşdirən tərəfdaşlıqlar olacaq. Bu, kommersiya baxımından əlverişli infrastruktur, proqnozlaşdırılabilən investisiya şərtləri, davamlı təchizat zəncirləri, həm də enerji təhlükəsizliyi və enerji keçidini dəstəkləyən texnologiyalar deməkdir.

Avropa İttifaqı Azərbaycanla əməkdaşlığı bu ruhda - açıqlıq, praqmatizm, qarşılıqlı fayda, təhlükəsiz, əlverişli və getdikcə dayanıqlı enerji təmin etmək barədə ortaq öhdəliklə davam etdirmək istəyir. Bugünkü tədbir müxtəlif sahələrdə bu iddiaları həyata keçirə biləcək şəxsləri bir araya gətirib. Bütün iştirakçılara sərgi və tədbirlərdə uğurlar arzulayır, tərəfdaşlıqları və müzakirələri səbirsizliklə gözləyirəm.

Təşəkkür edirəm.

* * *

Qaz İxrac Edən Ölkələr Forumunun Baş katibi **Filip MŞELBİLA** çıxış edərək dedi:

- Zati-aliləri Prezident İlham Əliyev!

Hörmətli nazirlər, beynəlxalq təşkilatların rəhbərləri!

Xanımlar və cənablar!

Adı müasir enerji sənayesinin təməlinə yazılmış bu tarixi şəhərdə bu il "Bakı Enerji Həftəsi"nin açılış mərasimində çıxış etmək mənim üçün böyük şərəfdir. İcazə verin, əvvəlcə Azərbaycan hökumətini və xalqını Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə ürəkdən təbrik edim. Zati-aliləri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycana davamlı inkişaf, dayanıqlılıq və uğurlar arzulayıram.

Bakı müasir neft sənayesinin yarandığı yerlərdən biri kimi geniş miqyasda tanınır. Qlobal enerji dövrünün mühüm bir fəsli bu torpaqdan başlayır. Bu gün Azərbaycan bu uzun enerji tarixində yeni bir fəsil yazır. Neftdən təbii qaza və indi də bərpaolunan enerji mənbələrinə qədər Azərbaycan enerji lideri kimi yerində dayanmadığını göstərir. Burada söhbət dəyişikliklərə uyğunlaşmaqdan, gələcəyə investisiya qoymaqdan, bazarları birləşdirməkdən və etimad yaratmaqdan gedir. Qeyd olunduğu kimi, hazırda Azərbaycan qazı artıq 16 ölkəyə ixrac olunur və bu, Azərbaycanı təchiz etdiyi bazarların sayına görə dünyanın aparıcı ölkəsinə çevirir. Qaz İxrac Edən Ölkələr Forumunda biz Azərbaycanın fəaliyyətini yüksək qiymətləndiririk. Aparıcı təbii qaz ixracatçılarından biri kimi Azərbaycan istehsalçı ölkələr arasında dialoqa dəyərli təcrübə gətirir. Bu əməkdaşlığın regional və beynəlxalq qaz bazarlarında artan rolunu əks etdirən şəkildə daha da dərinləşməsini görməkdən şərəf duyarıq.

Forum hazırda qlobal qaz ehtiyatlarının təxminən 70 faizini, bazara çıxarılan qaz istehsalının isə 40 faizindən çoxunu və qlobal LNG ixracının yarısını təmin edən aparıcı ölkələri bir araya gətirir. Bu kollektiv çəki ilə yanaşı, konstruktiv dialoqu təşviq etmək, maraqlı tərəflərimiz arasında məlumatlı qərarqəbuletməni dəstəkləmək, qlobal enerji təhlükəsizliyində, davamlı inkişafda və inklüziv enerji keçidlərində təbii qazın rolunun real sübuta əsaslanan anlaşılmasına töhfə vermək məsuliyyəti də var. Bu yaxınlarda biz 2025-ci il üzrə dünyada təbii qazla bağlı hesabat dərc etmişdik və bunun beş əsas məqamını qeyd etmək istərdim. Birincisi, təbii qaz beynəlxalq enerji qarışmasında öz rolunu artırır. Qlobal səviyyədə 2055-ci ilə qədər təbii qaza tələbat artacaq. Beləliklə, təbii qazın qlobal enerji qarışığında payı 23 faizdən 26 faizədək artacaq. İkinci məsələ, elektrik enerjisinin istehsalıdır. Bu, təbii qaza olan tələbatın əsas şərtidir. Elektrik enerjisində təbii qazın rolu 22 faizdən 2055-ci ilə qədər 32 faizə qədər artacaq ki, bu da tələbatın ciddi artımı deməkdir. Beləliklə, sabit təchizat, yüksək səviyyədə elektrik sistemləri üçün sabit qaz təchizatı lazımdır. Üçüncüsü, tələbatın artımı. Tələbatın artımı əsasən inkişaf etməkdə olan ölkələrdə müşahidə edilir. Asiya və Sakit Okean bölgəsi, Yaxın Şərq, Avrasiya və Afrikada qaza daha çox tələb olacaq. Asiya və Sakit Okean hövzəsində yerləşən ölkələrin tələbatı qlobal səviyyədə qaza tələbatı kəskin şəkildə artıracaq. Bu, iqtisadi artım, sənayeləşmə və elektrik enerjisinə olan tələbatla şərtlənir. Təchizat məsələsi. Təbii qazla bağlı təchizat marşrutları dəyişir. Yaxın Şərqdə, Avrasiyada və Afrikada artım təxminən 80 faizə bərabərdir və bu, kəskin artım deməkdir. Bazarlar hazırda istiqamətini dəyişməkdədir. Bu regionlar qlobal tələbatın artımının mərkəzinə çevriləcək ki, bu, təchizat marşrutlarına da təsir göstərəcək. Beşinci məsələ, qazın çeşididir. LNG və digərləri bir-birindən fərqlənir. Hazırda qlobal səviyyədə 2024-cü ildə olan tələbatın üçdəbiri qədərində artmasını görürük. LNG hazırda ticarət olunan qazın üçdə ikisini təşkil edir və onun növbəti mərhələlərdə ikiqat artması gözlənilir.

Xanımlar və cənablar, qeyri-müəyyənlik mərhələlərində biz enerjiyə olan tələbatın davamlı artdığını görürük və bu reallıq enerji təhlükəsizliyinin yalnız qısamüddətli reaksiyalarla təmin oluna bilməyəcəyini bir daha xatırladır. Bu uzunmüddətli baxış vaxtında həyata keçirilən investisiyalar, dayanıqlı infrastruktur, şaxələndirilmiş marşrutlar, bazarlar və istehsalçılar, istehlakçılar və tranzit ölkələri arasında dayanıqlı əməkdaşlıq yolu ilə qurulmalıdır. Təbii qaz üçün bu əməkdaşlıq vacibdir və beləliklə, həm tələb, həm də təklif sahəsində əməkdaşlıq güclənəcək. Gələcəyin enerji təhlükəsizliyi yalnız resursların mövcudluğundan deyil, həmçinin istehsalçıların və istehlakçıların müştərək öhdəliyindən asılı olacaq ki, onlar birlikdə bu resursları etibarlı, əlçatan və dayanıqlı şəkildə bazarlara çatdırsınlar. Buna görə də təbii qaz və bərpaolunan enerji bir-birini tamamlayır. Forumun baxışına görə, onlar balanslı, real, ədalətli və inklüziv enerji keçidləri prosesində tərəfdaşlardır. Bərpaolunan enerji mənbələri sürətlə genişlənməyə davam edəcək. Təbii qaz isə müasir enerji sistemləri tərəfindən tələb olunan çevikliyi, etibarlılığı və dayanıqlığı təmin edəcək. Artıq təbii qaz bunu edir və bu dəyişkənliyi tənzimləyir.

Azərbaycan bu "ağıllı" strategiyanın praktik nümunəsini təqdim edir. Bərpaolunan enerji potensialının genişləndirilməsi daxili qaz yanmasının istifadəsini azalda, iqtisadi artımı dəstəkləyə və təbii qazın regional, beynəlxalq enerji təhlükəsizliyinə töhfə verməsi üçün əlavə imkanlar yarada bilər. Eyni zamanda enerjinin resurslardan bazarlara səmərəli şəkildə ötürülməsini təmin etmək üçün qaz infrastrukturu, qarşılıqlı əlaqələr və uzunmüddətli əməkdaşlıq vacib amil olaraq qalır.

*Ardı 7-ci səh.*

# Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir

## Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində iştirak edib

Əvvəli 6-cı səh.

Bu ruhu nəzərə alaraq, "Bakı Enerji Həftəsi" dünyanın hər tərəfi və beynəlxalq dialoq, beynəlxalq əməkdaşlıq, digər həllərin əldə olunması üçün mühüm bir platformadır. Bu mühüm toplantının keçirilməsinə görə Azərbaycan hökumətinə və təşkilatçılara təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Təşəkkür edirəm.

* * *

Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) Baş direktoru **Françesko La KAMERA** çıxış edərək dedi:

- Zati-aliləri cənab Prezident, hörmətli nazirlər! Sabahınız xeyirli olsun! Bu gün Bakı Enerji Həftəsinin açılışında sizinlə birlikdə olmaqdan böyük məmnuniyyət duyuram. Bizi belə bir mühüm məqamda bir araya gətirdikləri üçün əziz dostum, Azərbaycanın energetika naziri Pərviz Şahbazova səmimi minnətdarlığımı bildirirəm. Çünki o, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi altında bu tədbirləri, həmçinin bizim burada iştirakımızı təşkil etmişdir.

Hörmətli dostlar, enerji təhlükəsizliyi qlobal bir məsələdir və o, artıq geosiyasi şoklara qarşı həssas olan yanacaq növlərindən asılı qala bilməz. Ən təhlükəsiz enerji daxili bazarda rəqabətədavamlı olan və geosiyasi dəyişikliklərə məruz qalmadan yerli imkanlar hesabına istehsal edilə bilən enerjidir. Son hadisələr enerji bazarlarındakı böhranın dünyanın hər yerində iqtisadiyyatlar, sənaye və ev təsərrüfatları arasında nə qədər tez əks-səda verə biləcəyini bizə xatırlatmış oldu. Bu, hökumətlər və sənaye üçün aydın prioriteti vurğulayır: ölkələr etibarlı, əlverişli, yerli mənbələrdən əldə edilə bilən, bərpaolunan enerjiyə keçidi sürətləndirməlidirlər, eyni zamanda qeyri-müəyyən dünyada rəqabət qabiliyyətlərini gücləndirməlidirlər. Bu kontekstdə biz müasir dövrün ən kəskin enerji böhranını yaşayırıq və bunun fərqli şərhləri var. Bildiyiniz kimi, fərqli-fərqli həllər irəli sürülür. Lakin həmin həllər tarixdə olan enerji böhranları zamanı keçərli idi. Dünya isə dəyişməkdədir və biz bu dəyişkən dünyaya hazır olmalıyıq. Biz qısamüddətli həllər təklif edirik və çalışırıq ki, yeni enerji sisteminə keçidi daha da sürətləndirək. Lakin bu, heç də asan deyil. IRENA bu yaxınlarda dayanıqlığı gücləndirmək və uzunmüddətli enerji təhlükəsizliyini artırmaq üçün strateji tədbirləri müəyyən edən siyasi məsləhətləşmələrə dair sənəd dərc etdi və ismarış aydındır. Üç müddətdə fəaliyyətə və tədbirlərə ehtiyac var. Qısamüddətli prioritet miqyası dəyişmək, enerji səmərəliliyini artırmaqdır. Orta müddətdə isə biz əlaqələri gücləndirməliyik. Nəhayət, uzun müddətdə biz enerji sistemlərini daha təhlükəsiz etməli, sənaye və maliyyə arasında daha güclü uyğunlaşma yolu ilə təhlükəsiz enerji sistemləri qurmalıyıq.

Regionlar fərqli reallıqlarla üzləşsələr də, ortaq prioritetlərimiz aydındır: 2030-cu ilə qədər bərpaolunan enerji potensialını üç dəfə, enerji səmərəliliyini isə iki dəfə artırmaq, həmçinin şəbəkələrin, anbarların və dayanıqlı yanacaq növlərinin inkişafı üzrə öhdəlikləri irəli aparmaq. Bu gündəliyin aktuallığı, xüsusilə sürətli iqtisadi artım və infrastruktur inkişafı dövrünü yaşayan bölgələrdə özünü aydın büruzə verir. Mərkəzi Asiyada bol təbii sərvətlər və geniş bərpaolunan enerji potensialı mövcuddur. Onun strateji mövqeyi, qonşu bölgələri birləşdirən "yaşıl enerji" dəhlizlərinin yaradılması səyləri artım üçün geniş imkanlar vəd edir. Bu baxımdan Azərbaycanın liderliyini xüsusilə qeyd etmişəm. 2027-ci ilə qədər 2 giqavat "yaşıl enerji" layihələrini həyata keçirmək iddiasına görə Azərbaycanın liderliyini təqdir edirəm. Həmçinin Azərbaycanın 2026-cı il üçün şuramızın üzvü və 2027-ci ildə XVII IRENA Assambleyasının sədr müavini olmaqla, IRENA-nın idarəetməsində fəal rolunu vurğulamaq istərdim.







Bundan əlavə, Azərbaycan Bakıda keçirilən COP29-da IRENA-nın Mərkəzi Asiyada bərpaolunan enerji üzrə sürətləndirilmiş tərəfdaşlığının - APRECA adlanan tərəfdaşlığın başlanmasında əsas rol oynamışdır. Növbəti COP-un ev sahibi olaraq, Türkiyədən olan dostlarımızla əməkdaşlıq çərçivəsində Azərbaycanda əldə edilən uğurları daha da inkişaf etdirmək niyyətindəyik. Biz COP29-un prezidenti Muxtar Babayevin rəhbərliyi dövründə Bakıda qazanılan nailiyyətləri daha da irəli aparmaq istəyirik. APRECA artan investisiya, daha güclü regional qarşılıqlı əlaqə və davamlı artım yolu ilə enerji keçidini inkişaf etdirməyə çalışır. Bizə maliyyələşdirilməsi üçün 1600-dən çox layihə daxil olub və çıxışımın sonunda istərdim qeyd edim ki, keçən il 700 giqavat bərpaolunan enerji potensialı yaradılmışdır. Bu, həmçinin effektivlik, potensialın artırılması deməkdir. Bizim bir il ərzində yaratdığımız elektrik enerjisi potensialı, nüvə enerjisinin 70 il ərzində yaratdığı ümumi potensiala bərabərdir. Beləliklə, biz öz potensialımızı artırmalıyıq. Son beş ildə elektrik enerjisinin əldə olunması üçün 90 faizə yaxın bərpaolunan enerjidən, mənbələrdən istifadə edilib. Odur ki, enerji sistemi dəyişməkdədir.

Bunu dəfələrlə ictimaiyyət qarşısında demişəm, sual ondan ibarət deyil ki, bərpaolunan enerji tamamilə təmizdir. Sosial baxımdan bəlkə də bu, daha məqbul hesab olunacaq. Çünki biz yeni iş yerləri yaradırıq, investisiyalar cəlb edirik. Lakin ən önəmli məqam odur ki, gələcək iqtisadiyyatların rəqabət qabiliyyəti birbaşa enerji sistemlərinin potensialından və bu sistemlərin sənayeni ən aşağı qiymətlə elektrik enerjisi ilə təmin edə bilməsindən asılı olacaq. Bu isə bərpaolunan enerji olmadan mümkün deyil.

Təşəkkür edirəm.

* * *

BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti **Qordon BİRREL** çıxış edərək dedi:

- Zati-aliləri cənab Prezident Əliyev!

Xanımlar və cənablar, hörmətli qonaqlar, nazirlər, dostlar!

Bir daha Azərbaycana qayıtmaq, yaşadığın bir ölkəyə qayıtmaq çox xoşdur və xüsusilə bu tədbir çərçivəsində. Biz burada AÇG-də ilk kommersiya qaz hasilatını qeyd etmək üçün görüşmüşdük. Bundan əlavə, daha geniş mənada bir insanın baxışı sayəsində buradayıq. Ümummilli Lider Heydər Əliyevin illər əvvəl üzləşdiyi çətinlik bu idi: müstəqilliyini yeni bərpa etmiş ölkə və onun enerji resursları sözsüz ki, yenilənməli, modernləşməli idi və Azərbaycan böyük enerji ixrac edən ölkə kimi öz layiqli yerinə qayıtmalı idi. Plan ondan ibarət idi ki, kapital və təcrübə gətirilsin, bu sənaye sıfırdan qurulsun. Bu baxış BP-ni 32 il əvvəl Bakıya gətirmişdir və biz o vaxtı "Əsrin müqaviləsi"ni imzaladıq. O vaxtdan bəri AÇG-dən ixrac üçün təxminən 4,6 milyard barel neft hasil edilmişdir. Birlikdə bacarıqlı işçi qüvvəsi yaratmışıq. BP-nin Azərbaycandakı komandasının 90 faizindən çoxu Azərbaycan vətəndaşlarıdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında Bakı üfüq xətti daha da yüksəlib və daha da parlaqdır. Azərbaycan dünyanın enerji təhlükəsizliyinin təməl daşına çevrilib. Bu da mənə bu layihə ilə əlaqədar sizin qarşınızda çıxış etmək üçün əsas yaradır. AÇG yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatının başlanması, doğrudan da, böyük hadisədir. Çünki əvvəllər - biz Hasilatın Pay Bölgüsü Sazişini imzalayanda bazarlar və infrastruktur hələ mövcud deyildi. İndi isə iki il əvvəl imzaladığımız əlavə sənəd əsasında 4,6 trilyon kub hasil edə bilirik. Beləliklə, bizim heyətlərimizin və əməkdaşlarımızın birgə işini qeyd etmək istəyirəm.

AÇG dünyanın ən böyük yataqlarından biri olaraq nəhəng və mürəkkəb yataqdır. Qeyri-səmt qazı neftin üstündəki və altındakı təbəqələrdə mövcuddur. Gözəl bir xəbər - daha dərin yataqların dibində qaz və su arasında nazik bir neft kanalı aşkar etmişik. Bütün bunlar böyük texniki bacarıqlar tələb edir. Yeni qaz sistemlərinin mövcud neft infrastrukturu ilə inteqrasiyası üfüqi qazma və qabaqcıl geoidarəetmə kimi mürəkkəb texnologiyalar vasitəsilə mümkündür. Bu proses tamamilə təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirilməlidir. Bütün bunlar təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirilməlidir. Buna görə də BP-Azərbaycan komandasına, SOCAR-a, AÇG layihəsindəki tərəfdaşlarımıza, yüzlərlə yerli və beynəlxalq podratçımıza səmimi-qəlbdən təşəkkürümü ifadə edirəm. Bu, doğrudan da, əsl həqiqi komanda işidir. Həmçinin Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürümü çatdırmaq istəyirəm.

Neft və qaz hər hansı millət üçün bir nemətdir. Lakin bu, heç vaxt təkbaşına kifayət deyil. Böyük karbohidrogen sektoru səbir və investisiya qoymağa hazırlıq tələb edir. Yalnız illik büdcə dövrləri ilə deyil, onillik üfüqlərlə düşünmək lazımdır və Azərbaycan bunu bacardı. Vizyona malik rəhbərlik, SOCAR-la parlaq tərəfdaşlıq və ağıllı tənzimləmə. Bunlar daha çox bareli hasil etməyə imkan verdi.

Gələcəyə baxaq. Bizim çox sabit bir boru kəmərlərimiz var və onlar Xəzər dənizindən resurslar daşıyır. Həmçinin "Şahdəniz" kompressiya layihəmiz var. Hazırda yerli istehsal müəssisələri platformanı inşa edir. AÇG-nin ilk sualtı birləşdiricisi olan "Qarabağ" yatağı var. Həmçinin bu, Xəzərdə ilk dəfə boru kəmərləri və kabelləri vahid dəstə halında çatdıracaq. Həmçinin Cəbrayılda Günəş elektrik enerjisi layihəmiz var ki, bu, Səngəçal terminalının elektrikləşdirilməsinə və ixrac üçün qaza qənaətə kömək edəcək. Biz həmçinin universitetlərlə, müxtəlif qurumlarla enerjidən başqa, ətraf mühit sahəsində də layihələr reallaşdırırıq. Bu da gələcəyimiz üçün çox vacibdir. Eyni zamanda Azərbaycan uzun müddətdir ki, Xəzərin aparıcı istehsalçısıdır. İnanıram ki, bu rol Mərkəzi Asiyadakı istehsalı Avropa və ondan kənardakı bazarlara çatdırmaq üçün daha da artacaq.

Bu yaxınlarda Özbəkistanda SOCAR tərəfindən idarə olunan altı blok üzrə ilk Pay Bölgüsü Sazişini imzalamışıq. BP həmçinin Qazaxıstanda qiymətləndirmə və prosessual olaraq inkişaf etdirmə barədə razılıq əldə edib. Eyni zamanda biz güclü, uzunmüddətli tərəfdaşlıqların yaradılmasını bilirik və birlikdə daha çox məsələlərə nail ola bilərik.

Zati-aliləri, xanımlar və cənablar, bizi qarşıda böyük iş gözləyir, amma bu gün mərasimdir - biz yeni qaz hasilatını, AÇG üçün yeni imkanları qeyd edirik. Bu, böyük yatağın potensialı haqqında bizə daha çox məlumat verəcək yeni bir mərhələdir. Həmçinin xalqınızın bacarığını, ölkənizlə BP arasındakı dostluğu, istedadları və komanda işini qeyd edirik. Heç vaxt unutmamalıyıq ki, bunun əsasında nə dayanır. Bu, hər yerdə işığın yanmasına, dünyanı hərəkətlə təmin etməyə və inkişaf etdirməyə aparan bir yoldur. Biz bunu heç zaman unutmamalıyıq.

Təşəkkür edirəm.

* * *

SOCAR-ın prezidenti **Rövşən NƏCƏF** çıxış edərək dedi:

- Zati-aliləri cənab Prezident, hörmətli qonaqlar! Bu gün biz yeni fəslin açılışının şahidi oluruq. Bu, "Azəri-Çıraq-Günəşli" yatağının tarixinin növbəti mərhələsidir, ilk sərbəst təbii qaz hasilatının başlanması mərasimidir. Bu layihə fundamental olaraq yeni mərhələyə keçid alır və strateji dəyər yaradacaq. Bu, AÇG-nin inkişafında strateji mərhələdir və inteqrasiya olunmuş bir layihənin çərçivəsi olacaq, Azərbaycan üçün yeni imkanlar açacaq, tərəfdaşlar üçün yeni imkanlar vəd edəcək. AÇG illər boyu vacib mənbə kimi tanınıb və beləliklə, ilk sərbəst təbii qaz hasilatının başlanması bir daha onu nümayiş etdirir ki, bu layihə geniş potensiala malikdir, uzunmüddətli enerji təhlükəsizliyinə öz töhfəsini verir və Azərbaycanın qlobal enerji bazarında rolunu gücləndirir.

Hörmətli qonaqlar, eyni zamanda yeni mərhələnin başlanması bir daha Azərbaycanın artan potensialını nümayiş etdirir, yataqların optimizasiyasını və dənizdə aparılan əməliyyatların gücləndirilməsini göstərir. Beləliklə, Azərbaycan bu istiqamətdə uzunmüddətli resursların bərpası üçün dərin təcrübəyə malikdir və bu yeni mərhələ mövcud infrastrukturun səmərəli istifadəsi nəticəsində mümkün olmuşdur - müasir texnologiyalarla və onların dənizdə tətbiqi ilə. Bu, həm də iqtisadi baxımdan layihənin uzunmüddətli dayanıqlığını təmin edəcək. Enerji bazarlarının, enerji təhlükəsizliyinin və təchizat zəncirlərinin çətinliklə üzləşdiyi dövrdə Azərbaycan özünü etibarlı, uzunmüddətli və məsuliyyətli enerji təchizatçısı kimi nümayiş etdirir.

Xanımlar və cənablar, bu gün qeyd etdiyimiz nailiyyət güclü baxışın təcəssümüdür və beynəlxalq əməkdaşlıq nəticəsində mümkün olmuşdur. İstərdim ki, Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevə səmimi-qəlbdən təşəkkürümüzü bildirim. Bu layihə onun dəstəyi, strateji baxışı və davamlı diqqəti nəticəsində mümkün olmuşdur. Bu, Azərbaycanın uzunmüddətli enerji sektorunun inkişafını təmin edəcək. Bu, sözsüz ki, bizim üçün böyük bir öhdəlik və məsuliyyətdir. Biz cənab Prezidentin rəhbərliyi ilə həm şirkətin, həm də sektorun inkişafını təmin etməliyik. Bu, Azərbaycan şirkəti olan SOCAR-ı beynəlxalq şirkətə çevirəcək, eyni zamanda çox mühüm regional enerji və qaz layihələrinin icrasına dəstək olacaq.

Bütün beynəlxalq tərəfdaşlara və maraqlı tərəflərə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Mühəndislərə, geoloqlara, texniklərə və bütün mütəxəssislərə ki, onların səyləri nəticəsində biz bu mühüm mərhələyə çatmışıq. AÇG-dən ilk sərbəst təbii qazın hasilatı - bu, yalnız texnoloji nailiyyət deyil. Bu göstərir ki, AÇG 30 il ərzində müvəffəqiyyətli hasilatla bərabər, yenə də strateji dəyər yaratmaqdadır və Azərbaycanın uzunmüddətli inkişafına öz töhfəsini verməkdə davam edəcək.

Diqqətiniz üçün təşəkkür edirəm.

* * *

Sonra "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatına başlanması mərasimi keçirildi.

* * *

Daha sonra sənədlərin imzalanması mərasimi oldu.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), "TotalEnergies EP Absheron B.V.", "SOCAR Absheron", "ADNOC International Project Co 1 RSC Limited" və "BOTAŞ Boru Hatları İle Petrol Taşıma A.Ş." arasında Abşeron yatağından təbii qazın alqı-satqısına dair Saziş"i SOCAR-ın prezidenti Rövşən Nəcəf, BOTAŞ-ın İdarə Heyətinin sədri və baş direktoru Abdulvahit Fidan, "TotalEnergies" şirkətinin Avropa regionunda kəşfiyyat və hasilat üzrə baş vitse-prezidenti Martina Opizzi və XRG-nin beynəlxalq qaz üzrə prezidenti Mohammed Al Aryani imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Serbiyanın "Elektroprivreda Srbije" (EPS) dövlət enerji şirkəti arasında Serbiyada Niş qaz-turbinli elektrik stansiyası layihəsi üzrə Niyyət Protokolu"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və EPS-in baş direktoru Duşan Jivkoviç imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "Shell Overseas Holdings Ltd" arasında Anlaşma Memorandumu"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Shell" şirkətinin satınalmalar, aktivlərin satışı və yeni biznesin inkişafı üzrə icraçı vitse-prezidenti Valid Hadi imzaladılar.

"SOCAR Trading Gas & Power" SARL ilə "Azienda Autonoma Di Stato Per I Servizi Pubblici" (AASS) arasında təbii qazın tədarükü və qəbulu ilə bağlı Baş Saziş"i "SOCAR Trading Gas & Power" SARL şirkəti adından SOCAR-ın prezidenti Rövşən Nəcəf və AASS-nin baş direktoru Marsello Forsellini imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "Comstock Resources, Inc". (COSTOCK) arasında Anlaşma Memorandumu"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Comstock Resources, Inc."in maliyyə və investorlarla əlaqələr üzrə vitse-prezidenti Ron Mills imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "J.P. Morgan Securities Plc" arasında Anlaşma Memorandumu"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və "J.P. Morgan Securities Plc" adından qurumun Mərkəzi və Şərqi Avropa, Yaxın Şərq və Afrika üzrə kreditlər və strukturlaşdırılmış kreditlər üzrə vitse-prezidenti Martinas Saltenis imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "Chevron Caspian Exploration B.V." arasında Birgə Tədqiqat Sazişi"ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Chevron Caspian Exploration B.V."in Avrasiya biznesi üzrə prezidenti Derek Magness imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və "Apollo Capital Management L.P." arasında Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), "SOCAR Türkiye Enerji A.Ş", "SOCAR CASPIAN HOLDING" LTD və "AP CASPIAN ISSUER" MMC arasında İnvestisiyaya Dəstək Sazişi"ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Apollo Capital Management, L.P."nin kredit və əsas strukturlaşdırılmış maliyyə üzrə baş meneceri Conatan Bar imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Corc Vaşinqton Universiteti arasında Əməkdaşlıq üzrə Niyyət Məktubu"nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və Corc Vaşinqton Universitetinin qlobal təşəbbüslər üzrə dekan köməkçisi Sevinc Məmmədova imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və "Haimaker.ai Inc." şirkəti arasında süni intellekt buludunun inkişafı üzrə Əməkdaşlıq Sazişi"ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Haimaker.ai Inc"in baş icraçı direktoru Su Le imzaladılar.

"Kritik mineralların və nadir torpaqların mədəni və emalı sahəsində təchizatın təminatı üzrə Azərbaycan-Amerika Birləşmiş Ştatları Çərçivəsi"ni Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Amerika Birləşmiş Ştatları Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orr imzaladılar.

* * *

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

* * *

Sonra dövlətimizin başçısı sərgilərlə tanış oldu.

İyunun 3-dək davam edəcək "Bakı Enerji Həftəsi" Xəzər regionunun ən nüfuzlu enerji tədbirlərindən olaraq, qlobal enerji liderlərini, dünyanın aparıcı enerji şirkətlərini, dövlət qurumlarını, investorları və sənaye mütəxəssislərini bir araya gətirir.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə əsası qoyulmuş "Caspian Oil and Gas" sərgisinin məntiqi davamı olan bu tədbir təşkil edildiyi illər ərzində həm regional, həm də beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi formalaşıb.

"Bakı Enerji Həftəsi" özündə üç mötəbər tədbiri birləşdirir: 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum".

Uzun illərdir ki, "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, SOCAR isə baş tərəfdaş qismində çıxış edir.

Builki tədbirdə dünyanın 46 ölkəsindən 276 şirkət iştirak edir. Bu, ölkələrin sayına görə sərgi tarixində rekord göstəricidir. Almaniya və Rusiya "Bakı Enerji Həftəsi"ndə milli pavilyonlarla təmsil olunurlar. Sərgi iştirakçılarının təxminən 60 faizini xarici şirkətlər, 40 faizini isə yerli müəssisələr təşkil edir.

Daimi iştirakçılar isə ümumilikdə sərgi sahəsinin 40 faizini əhatə edir.

Regionun ən böyük enerji şirkəti - "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti" – **SOCAR** axtarış-kəşfiyyat, hasilat, nəql, emal, kimya məhsullarının istehsalı, marketinq, yanacağın pərakəndə satışı, qaz paylanması və bərpaolunan enerji mənbələrinin inkişafı ilə məşğul olur. SOCAR dünyanın 15-dən çox ölkəsində fəaliyyət göstərir. Şirkət şanlı neft və qaz irsimizi innovativ texnologiyalarla genişləndirir. SOCAR yerli, regional və beynəlxalq kontekstdə davamlı inkişafa və enerji təhlükəsizliyinə uğurla töhfə verir. 2035-ci ilə qədər Korporativ Strategiyaya əsasən SOCAR-ın uzunmüddətli hədəfləri rəqəmsallaşma, innovasiya və "yaşıl enerji"yə keçid yolu ilə fəaliyyətini inkişaf etdirən müasir enerji şirkəti olmaqdır.

Qlobal enerji şirkəti olan **"BP Azərbaycan"** ölkəmizin enerji sektorunda ən iri beynəlxalq tərəfdaşlardan biridir və Xəzər dənizində yerləşən əsas neft-qaz yataqlarının operatorudur. Şirkət "Azəri-Çıraq-Günəşli" (AÇG) neft yatağının və "Şahdəniz" qaz-kondensat yatağının operatoru kimi fəaliyyət göstərir.

Ardı 8-ci səh.

# Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir

## Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində iştirak edib




















*Əvvəli 7-ci səh.*

Hasil olunan karbohidrogenlər BP-nin region üzrə strateji mərkəzi hesab olunan Səngəçal terminalında emal edilir və Bakı–Tbilisi–Ceyhan (BTC), Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə beynəlxalq bazarlara nəql olunur. Şirkət hazırda AÇG-də ACE platforması, "Şahdəniz Compression" layihəsi, "Şəfəq-Asiman" strukturu, həmçinin platformaların elektrikləşdirilməsi və "yaşıl enerji" istiqamətində layihələr həyata keçirir. BP Azərbaycanda yerli kadrların inkişafına da xüsusi diqqət ayırır. "BP Azərbaycan"ın işçilərinin böyük hissəsini yerli mütəxəssislər təşkil edir.

**"TotalEnergies"** neft-qaz, LNG, bərpaolunan enerji və elektrik enerjisi sahələrində Fransanın ən iri enerji şirkətlərindən biridir. Şirkət ölkəmizin əsas beynəlxalq enerji tərəfdaşları sırasında Azərbaycanda 1996-cı ildən fəaliyyət göstərir. "TotalEnergies" Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəmərində 5 faiz paya malikdir və Abşeron qaz-kondensat yatağının əsas iştirakçılarından biridir. Şirkət bu yataqda 35 faiz paya sahibdir və layihəni SOCAR ilə birlikdə həyata keçirir. Abşeron yatağının birinci fazası üzrə hasilata 2023-cü ilin iyulunda başlanılıb. Hazırda hasilat gücü gündəlik 4 milyon kubmetr qaz, həmçinin 13 min barel kondensat təşkil edir. Bu qaz Azərbaycanın daxili bazarına yönləndirilir. 2025-ci ildə tərəfdaşlar yatağın tammiqyaslı işlənməsi üzrə ilkin texniki layihələndirmə mərhələsinə start veriblər.

Layihənin növbəti mərhələsində maksimum hasilat dövründə əlavə 110 min barel neft ekvivalenti həcmində gündəlik hasilat nəzərdə tutulur. Şirkət eyni zamanda Azərbaycanda enerji keçidi, dekarbonizasiya və "yaşıl enerji" istiqamətində əməkdaşlığı genişləndirir.

Səudiyyə Ərəbistanı Krallığının **"Acwa"** bərpaolunan enerji şirkəti dəniz suyunun duzsuzlaşdırılması sahəsində dünyanın ən böyük özəl operatorlarından olaraq, "yaşıl hidrogen" texnologiyaları və qlobal enerji transformasiyası sahəsində aparıcı şirkətlərdən biridir. 2004-cü ildə yaradılmış "Acwa" hazırda Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiya daxil olmaqla 15 ölkədə fəaliyyət göstərir. Şirkətin portfelinə enerji və su sahəsində ümumi investisiya dəyəri 117 milyard ABŞ dollarından çox olan 100-dən artıq layihə daxildir. Azərbaycanda "Acwa" əsasən "yaşıl enerji" istiqamətində fəaliyyət göstərir və ölkənin enerji keçidi strategiyasının əsas beynəlxalq tərəfdaşlarından biridir. Şirkət Xızı və Abşeron rayonlarında yerləşən 240 MVt gücündə külək-elektrik stansiyasının investorudur. Bu layihə Azərbaycanın ilk iri xarici investisiyalı bərpaolunan enerji layihələrindəndir. "Acwa", həmçinin SOCAR ilə birlikdə Xəzər dənizində külək enerjisi və "yaşıl hidrogen" layihələri üzrə əməkdaşlıq edir.

Amerika Birləşmiş Ştatlarının **"SLB"** şirkəti enerji sahəsində qlobal texnoloji şirkətdir. Dünyanın ən iri neft-mədən xidmətləri və enerji texnologiyaları şirkətlərindən biri kimi "SLB" bir əsrdən artıq müddətdə sənayenin ən mürəkkəb çağırışlarını texnoloji yeniliklərə çevirərək enerji sektorunda lider mövqeyini qoruyub saxlayır. Bu gün "SLB" neft-qaz yataqlarının kəşfiyyatı, qazma, quyu tamamlama, geofizika, rəqəmsal texnologiyalar və enerji keçidi həlləri sahələrində çalışır. Şirkət Azərbaycanda uzun illərdir fəaliyyət göstərir və AÇG, Şahdəniz kimi iri layihələrdə əsas texnoloji tərəfdaşlardandır. "SLB" BP və SOCAR ilə əməkdaşlıq çərçivəsində qazma, texniki xidmət, avtomatlaşdırma və rəqəmsal həllər təqdim edir. Son illərdə şirkət emissiyaların azaldılması, rəqəmsallaşma və dayanıqlı enerji texnologiyalarına da xüsusi diqqət yetirir.

ADNOC-un beynəlxalq enerji investisiya şirkəti olan Birləşmiş Ərəb Əmirliklərinin **"XRG"** şirkəti təbii qaz, kimya sənayesi və enerji həlləri sahələrində qlobal portfel formalaşdırıb. 2024-cü ildə yaradılan şirkət hazırda LNG, qaz infrastrukturu, aşağıkarbonlu enerji, "yaşıl hidrogen" və enerji transformasiyası istiqamətlərində fəaliyyətini genişləndirir. Azərbaycanda ADNOC-un regional əməkdaşlıq strategiyasının bir hissəsi kimi SOCAR ilə enerji keçidi, qaz infrastrukturu və aşağıkarbonlu layihələr üzrə əməkdaşlığı inkişaf etdirən şirkət qlobal enerji bazarında strateji mövqeyini möhkəmləndirir.

Özbəkistanın milli neft-qaz şirkəti və Mərkəzi Asiyanın ən böyük dövlət enerji qurumlarından biri olan **"Uzbekneftegaz"** neft və qaz yataqlarının kəşfiyyatı, hasilatı, emalı, neft-kimya məhsullarının istehsalı və enerji infrastrukturu sahələrində fəaliyyət göstərir. Son illərdə qaz emalı, neft-kimya və enerji səmərəliliyi layihələrinə böyük investisiyalar yatıran "Uzbekneftegaz" beynəlxalq tərəfdaşlarla əməkdaşlığı genişləndirir. Şirkət Azərbaycanda əsasən regional enerji əməkdaşlığı və beynəlxalq enerji platformaları çərçivəsində iştirak edir, SOCAR və digər şirkətlərlə təcrübə mübadiləsi və enerji layihələri üzrə tərəfdaşlığı möhkəmləndirir.

Birləşmiş Ərəb Əmirliklərinin **"Masdar"** şirkətinin bu gün dünya üzrə layihə portfelinin ümumi gücü 50 GVt-dan çoxdur. Şirkət 2030-cu ilə qədər bu göstəricini 100 GVt-a çatdırmağı planlaşdırır. Hazırda qlobal enerji keçidinin aparıcı iştirakçılarından biri olan "Masdar" Azərbaycanda "yaşıl enerji" sahəsində ən fəal beynəlxalq tərəfdaşlardandır. Şirkət ölkənin ilk iri sənaye miqyaslı Günəş-elektrik stansiyası olan 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının investorudur. "Masdar" ölkəmizin "yaşıl enerji" strategiyasının əsas tərəfdaşlarından biri kimi SOCAR və Azərbaycan hökuməti ilə birlikdə ümumi gücü bir neçə giqavat olan Günəş və külək enerjisi layihələrinin inkişafı istiqamətində əməkdaşlıq edir.

Çinin 1973-cü ildə təsis edilmiş **"China Petroleum Pipeline Engineering"** şirkəti neft və qaz boru kəmərlərinin tikintisini həyata keçirir. Şirkət eyni zamanda enerjinin saxlanması və nəqli infrastrukturu sahəsində ixtisaslaşıb və Çində uzunmüddətli boru kəmərləri üzrə ümumi iş həcminin 70 faizindən çoxunu icra edir. O, elmi-tədqiqat, layihələndirmə, məsləhət, tikinti və istismar daxil olmaqla tam sənaye zənciri üzrə fəaliyyət göstərir. Şirkətin beynəlxalq fəaliyyəti 50-dən çox ölkəni əhatə edir və əsas istiqamətlərinə neft-qaz boru kəmərləri, kompressor stansiyaları, LNG terminalları və enerji infrastrukturu layihələri daxildir. Hazırda şirkət potensial tərəfdaş kimi SOCAR ilə əməkdaşlığın qurulmasını nəzərdən keçirir.

Türkiyənin milli neft şirkəti "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) qlobal enerji şirkəti olaraq karbohidrogen kəşfiyyatı və hasilatı sahəsində 70 ildən çox təcrübəyə malikdir. Şirkət Azərbaycan, İraq, Liviya, Pakistan, Somali və digər ölkələrdə fəaliyyət göstərən geniş beynəlxalq layihələr portfeli ilə neft və qaz yataqlarının kəşfiyyatı, hasilatı, qazma işləri və enerji layihələrinin idarə olunması ilə məşğuldur. Şirkət Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərir və "Şahdəniz", "Azəri-Çıraq-Günəşli", "Cənubi Qafqaz Boru Kəməri", "Bakı–Tbilisi–Ceyhan" və "Şəfəq-Asiman" layihələrində iştirak payına malikdir. Şirkət Azərbaycan və Türkiyə arasında enerji əməkdaşlığının inkişafında mühüm rol oynamaqla, regionun enerji təhlükəsizliyi üçün mühüm layihələrdə iştirak edir, dayanıqlı inkişaf və ətraf mühitə məsuliyyət prinsipini uzunmüddətli strategiyasının əsas istiqamətlərindən biri kimi müəyyənləşdirib.

# "Bakı Enerji Həftəsi" nüfuzlu platformaya çevrilib

## "Bakı Enerji Həftəsi"nin iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən bu mötəbər tədbirdə səmimi-qəlbdən salamlayıram.

Artıq uzun illərdir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji gündəliyinin formalaşdırıldığı, yeni yanaşma və əməkdaşlıq formatlarının təşəkkül tapdığı nüfuzlu platformaya çevrilib. Bu tədbirin əhəmiyyəti hər il daha da artır. Çünki dünya ənənəvi enerji modelindən dayanıqlı, aşağıkarbonlu inkişaf strategiyasına və texnoloji yeniliklərə əsaslanan yeni enerji sisteminə keçid mərhələsini yaşayır. Belə bir şəraitdə Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir.

Ölkəmizin enerji tarixi zəngin ənənələrə və mühüm tarixi nailiyyətlərə əsaslanır. Hələ XIX əsrdə Azərbaycanda müasir neft sənayesinin formalaşması ölkəmizi qlobal enerji tarixinin aparıcı mərkəzlərindən birinə çevirmişdir. XX əsr Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq enerji tərəfdaşlıqlarının formalaşdığı dövr olmuşdur. XXI əsrdə isə ölkəmiz artıq "yaşıl enerji"yə keçid və dayanıqlı enerji modelinin qurulması istiqamətində yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycanın həyata keçirdiyi enerji siyasəti bu gün də mühüm nəticələr verməkdədir. Cari il enerji sahəsində bir sıra əlamətdar hadisələrlə yadda qalır. Xüsusilə "Şahdəniz" qaz yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişinin imzalanmasının 30 illiyi və bu yataqdan kommersiya qaz hasilatına başlanmasının 20 illiyi Azərbaycanın qlobal enerji bazarında güclü mövqeyini və ölkəmizin enerji strategiyasının uğurla həyata keçirildiyini bir daha təsdiqləyir.

Hazırda dünyada enerji sektoru dayanıqlı inkişafın əsas sütunlarından biridir. Müasir geosiyasi proseslər göstərir ki, enerji təhlükəsizliyinin etibarlı təminatı enerji mənbələrinin şaxələndirilməsi və innovativ texnologiyaların tətbiqi ilə birbaşa bağlıdır. Bu baxımdan, bərpaolunan enerji və aşağı karbon texnologiyalarına investisiyalar sürətlə artır. Enerji keçidi artıq yalnız ekoloji məsələ deyil, həm də iqtisadi təhlükəsizlik və rəqabətqabiliyyətlilik amilinə çevrilmişdir.

Ölkəmiz də "yaşıl enerji" istiqamətində ardıcıl siyasət həyata keçirir və strateji mövqeyini daha da möhkəmləndirir. Avrasiyanın enerji və nəqliyyat marşrutlarının kəsişməsində yerləşən ölkəmiz regional enerji əməkdaşlığının inkişafına etibarlı tərəfdaş kimi mühüm töhfə verir. Bol enerji resursları, formalaşdırılmış infrastruktur və beynəlxalq səviyyədə qazanılmış yüksək etimad əsas üstünlüklərimizdir.

Azərbaycanın zəngin bərpaolunan enerji potensialı "yaşıl enerji" istiqamətində uzunmüddətli strateji hədəflərin həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Beynəlxalq enerji şirkətləri ilə irihəcmli "yaşıl enerji" layihələrinin həyata keçirilməsi və təbii qaz ixracının geniş coğrafiyanı əhatə etməsi ölkəmizin qlobal enerji sistemində etibarlı və strateji tərəfdaş kimi rolunu daha da gücləndirir. Dünya İqtisadi Forumunun enerji keçidi ilə bağlı hesabatında Azərbaycanın qabaqcıl mövqelərdə qərarlaşması da bunun beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini göstərir.

Bərpaolunan enerji sahəsində mövcud potensialın reallaşdırılması və "yaşıl enerji" imkanlarının genişləndirilməsi qarşıdakı dövrün əsas strateji hədəfləridir. Bu yanaşma enerji sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcını ifadə edir. Həmin mərhələdə əsas prioritetlər enerji resurslarının səmərəli idarə olunması ilə yanaşı, bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçidin sürətləndirilməsi və müasir texnologiyaların tətbiqidir.

Xüsusilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri çərçivəsində "yaşıl enerji zonası" modelinin uğurla tətbiqi ölkəmizin gələcək enerji strategiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu yanaşmanın uğurla həyata keçirilməsi onun daha da genişləndirilməsinə və Naxçıvanın da "yaşıl enerji zonası" elan edilməsinə zəmin yaratmışdır.

Əminəm ki, "Bakı Enerji Həftəsi" bundan sonra da qlobal enerji dialoqunun genişlənməsinə, yeni təşəbbüslərin formalaşmasına və dayanıqlı enerji gələcəyinin qurulmasına mühüm töhfə verəcəkdir.

Sonda tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürümü bildirir, hər birinizə uğurlu əməkdaşlıq, məhsuldar müzakirələr və yeni nailiyyətlər arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2026-cı il*

# A.H.Hacıyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə və elmin inkişafında xidmətlərinə görə Asəf Hacı oğlu Hacıyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2026-cı il*

# Q.S.Qurbanovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında humanitar, o cümlədən təhsil sahəsində əlaqələrin inkişafında xidmətlərinə görə Qurban Səidoviç Qurbanov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2026-cı il*

# ABŞ Prezidenti Donald Trampın "Bakı Enerji Həftəsi"nə məktub ünvanlamasından məmnunuq

## Prezident İlham Əliyev ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Kaleb Orra "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən sərgilərin və "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak etdiyinə görə təşəkkürünü bildirdi.

ABŞ Prezidenti Donald Trampın bu tədbirə məktub ünvanlamasını məmnunluqla vurğulayan Prezident İlham Əliyev bu yanaşmanın və tərəfdaşlığın çox yüksək qiymətləndirildiyini bildirdi, buna görə ABŞ dövlətinin başçısına minnətdarlığını ifadə etdi.

Son dövrlərdə ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının, həmçinin bu Xartiya əsasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılmasının əhəmiyyətinə toxundu, Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının keçiriləcəyini vurğuladı. Bu xüsusda Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığı bildirildi.

Dövlətimizin başçısı "Bakı Enerji Həftəsi" çərçivəsində imzalanan sənədlərin əhəmiyyətinə də toxundu.

Kaleb Orr ABŞ Prezidenti Donald Trampın və Dövlət katibi Marko Rubionun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Donald Trampa və Marko Rubioya çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Donald Trampın "Bakı Enerji Həftəsi"nə məktub ünvanlaması tədbirin Amerika Birləşmiş Ştatları üçün nə qədər önəmli olduğunu göstərir.

Kaleb Orr eyni zamanda dedi ki, bu tədbir enerji bazarlarının vəziyyəti ilə bağlı müzakirələr aparmaq baxımından Prezident İlham Əliyevin liderlik rolunu nümayiş etdirir.

Söhbət zamanı "Bakı Enerji Həftəsi"nin qlobal enerji məsələləri barədə fikir mübadiləsi aparmaq, həmçinin dünyanın qabaqcıl enerji şirkətləri, dövlət qurumları, investorlar və sənaye mütəxəssisləri arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün uğurlu platforma olduğu vurğulandı.

Görüşdə Azərbaycan-ABŞ əlaqələrinin hər iki ölkənin dövlət başçılarının səyləri nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğu qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 may tarixli 404-VIIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 may tarixli 404-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 may tarixli 404-VIIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyun 2026-cı il*

# Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Quba rayonunun aşağıdakı ərazi vahidlərinin adları dəyişdirilsin:

1. Vladimirovka kənd inzibati ərazi dairəsi tərkibindəki Vladimirovka kəndi Elbir kəndi adlandırılsın və Vladimirovka kənd inzibati ərazi dairəsi Elbir kənd inzibati ərazi dairəsi hesab edilsin.

2. Alekseyevka kənd inzibati ərazi dairəsi tərkibindəki Alekseyevka kəndi Çinarlı kəndi, Timiryazev kəndi Bəhrəli kəndi adlandırılsın və Alekseyevka kənd inzibati ərazi dairəsi Çinarlı kənd inzibati ərazi dairəsi hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2026-cı il*

# Prezident İlham Əliyevin sosial media hesablarında Azərbaycanın Müstəqillik Günü ilə bağlı paylaşım edilib




Prezident İlham Əliyevin sosial media hesablarında 28 May - Azərbaycanın Müstəqillik Günü ilə bağlı paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir.

# Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə paylaşım edib




# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı sosial media hesablarında paylaşım edib




# Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinə Prezident Donald Tramp tərəfindən təqdim edilmiş xatirə hədiyyəsini göstərib



**Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisi Kaleb Orr ilə bu gün keçirilən görüş zamanı ona ABŞ Prezidenti Donald Tramp tərəfindən daha əvvəl təqdim edilmiş xatirə hədiyyəsini göstərib.**

AZƏRTAC xəbər verir ki, bu, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılmasının uzadılması haqqında memorandumdur. ABŞ Prezidenti tərəfindən imzalanmış həmin xatirə nüsxəsində Azərbaycan dövlət başçısına öz xətti ilə yazılaraq ünvanlanmış səmimi müraciət yer alıb.

# Prezident İlham Əliyevin sosial media hesablarında Şuşaya səfəri ilə bağlı videoçarx paylaşılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında Şuşanın Böyük Qaladərəsi kəndinə səfəri ilə bağlı videoçarx paylaşılıb.**

AZƏRTAC paylaşımı təqdim edir.

**https://azertag.az/xeber/prezident_ilham_aliyevin_sosial_media_hesablarinda_susaya_seferi_ile_bagli_videocharx_paylasilib_video-4229775**

# Prezident İlham Əliyevin sosial media hesablarında Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edilib.**




AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əziz övladlar! 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə hər birinizi təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram".

# Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib



# Azərbaycan ilə Xorvatiya arasında dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir

## Xorvatiya Respublikasının Prezidenti zati-aliləri cənab Zoran Milanoviçə

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Xorvatiya arasında dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. İnanıram ki, konstruktiv dialoqumuzun davam etdirilməsi, ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi və əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi xalqlarımızın rifahı naminə bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# Azərbaycan ilə Efiopiya arasında münasibətlərin zənginləşməsi məmnunluq doğurur

## Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri zati-aliləri cənab Abiy Əhməd Əliyə

Hörmətli cənab Baş nazir!

Efiopiya Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Efiopiya arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Fevral ayında Azərbaycana səfəriniz çərçivəsində Sizinlə məhsuldar görüşümüzü, apardığımız fikir mübadiləsini və müzakirələri yüksək qiymətləndirirəm. Səfər əsnasında Azərbaycan-Efiopiya əlaqələrinin gələcək fəaliyyət istiqamətlərinə dair əldə etdiyimiz razılaşmalar ikitərəfli gündəliyimizin əhatə dairəsinin genişləndirilməsi üçün yeni imkanlar açmışdır.

Əminəm ki, dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq potensialının reallaşdırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Efiopiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasına işgüzar səfərə gedib



**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak etmək üçün Serbiya Respublikasına işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Belqrad şəhərinin Nikola Tesla Beynəlxalq Hava Limanında spiker Sahibə Qafarovanı Serbiya Milli Assambleyasının Serbiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Duşan Mariç, Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanın çağırılması haqqında sərəncam imzalayıb



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova 82 deputatın tələbi ilə Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin II hissəsinə əsasən, 2026-cı il iyunun 1-dən Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasının çağırılması haqqında sərəncam imzalayıb.

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Milli günlər ölkələrin keçdiyi yolu, beynəlxalq ictimaiyyətə verdiyi töhfələri və gələcəyini istiqamətləndirən arzuları dəyərləndirmək üçün mühüm fürsətdir. Eyni zamanda onlar qlobal çağırışların həllində dialoqun və həmrəyliyin əhəmiyyətini bizə xatırladır.

Bu gün dünya təxirəsalınmaz sınaqlarla - müharibələrin sona çatdırılması və yenilərinin qarşısının alınması, iqlim böhranı ilə mübarizə, bərabərsizliklərin azaldılması və güclü texnologiyaların məsuliyyətlə yönləndirilməsi ilə üz-üzədir. Bu və digər çağırışların həlli sülhün, təhlükəsizliyin təmin olunması, Dayanıqlı İnkişaf Məqsədlərinin irəlilədilməsi və insan hüquqlarının qorunması naminə yenilənmiş əməkdaşlığa, çoxtərəfli tərəfdaşlığa sadiqlik tələb edir.

Bu əlamətdar gün münasibətilə bir daha Azərbaycan Respublikasının xalqına ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antonio QUTERREŞ,***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Polşa Respublikası adından və öz adımdan ölkənizə, xalqınıza və şəxsən Sizə ən səmimi təbriklərimi, uğurlar və firavanlıq arzularımı çatdırmaqdan şərəf duyuram.

Polşa Respublikası ilə Azərbaycan Respublikasını ənənəvi dostluq əlaqələri və dinamik inkişaf edən əməkdaşlıq birləşdirir. Sizi əmin etmək istəyirəm ki, Polşa bu münasibətlərin gələcəkdə daha da inkişaf etdirilməsinə, əməkdaşlığın bütün sahələrini əhatə etməsinə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı çərçivəsində daim hazırdır.

Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda Polşa üçün mühüm tərəfdaş olaraq qalır və dünyada baş verən ciddi geosiyasi dəyişikliklər fonunda əməkdaşlığımızın əhəmiyyəti daha da arta bilər. Bunu nəzərə alaraq, Sizi münasib hesab etdiyiniz vaxtda Varşavada qarşılamağı səbirsizliklə gözləyirəm.

Bir daha milli bayram münasibətilə bütün Azərbaycan vətəndaşlarını səmimi-qəlbdən təbrik edirəm. Ölkənizin gələcək inkişafı, suverenliyinin möhkəmləndirilməsi və regionda mehriban qonşuluq münasibətlərinin qurulması istiqamətində Sizə yeni uğurlar arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

***Karol NAVROTSKİ,***
***Polşa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Sizə və xalqınıza Finlandiya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Konstruktiv əməkdaşlığımızı, Avropa və qlobal təhlükəsizlik məsələləri ilə bağlı substansiv dialoqumuzu davam etdirməyə ümidvar olduğumu bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Aleksandr STUBB,***
***Finlandiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Müsəlman dünyasında ilk demokratik respublikanın yaradılması günü kimi qeyd edilən bu əlamətdar bayram Azərbaycan xalqı üçün azadlıq, suverenlik və tərəqqi rəmzidir.

Slovakiya Respublikası Azərbaycan Respublikası ilə yaxşı səviyyədə olan ənənəvi dostluq münasibətlərini yüksək qiymətləndirir. Ötən ilin dekabr ayında zati-alinizin Slovakiyaya ilk rəsmi səfəri ilə ölkələrimiz arasında əlaqələr əhəmiyyətli dərəcədə möhkəmlənmişdir.

Mən Sizin gözəl ölkənizə tezliklə baş tutacaq rəsmi səfərimi səbirsizliklə gözləyirəm. Əminəm ki, ən yüksək səviyyədə qarşılıqlı səfər mübadiləsi əlaqələrimizi daha da dərinləşdirəcək, enerji, nəqliyyat, investisiyalar və mədəniyyət sahələrində əməkdaşlıq üçün yeni imkanlar açacaq.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, şəxsi rifah və ali dövləti vəzifənizdə yeni müvəffəqiyyətlər arzularımı qəbul etməyinizi xahiş edirəm.

Eyni zamanda Sizə, eləcə də bütün Azərbaycan xalqına davamlı uğurlar, əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Latviya xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Latviya və Azərbaycan arasında mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirdiyimi bildirirəm. Əminəm ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq suverenliyə, ərazi bütövlüyünə və qaydalara əsaslanan beynəlxalq nizama ortaq sadiqliyimiz əsasında daha da möhkəmlənəcək və inkişaf edəcək.

Həmçinin 2026-cı il aprelin 21-23-də Azərbaycan Respublikasına rəsmi səfərim zamanı mənə və nümayəndə heyətimə göstərilən səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm. Bu səfər ölkələrimiz arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi üçün əla imkan yaratdı. Xüsusilə praktiki əməkdaşlığın inkişafı, eləcə də cari regional və beynəlxalq məsələlər üzrə apardığımız açıq və konstruktiv müzakirələri yüksək qiymətləndirirəm. Səfərim çərçivəsində keçirilən Azərbaycan-Latviya Biznes Forumunda iştirakınıza görə də Sizə təşəkkür edirəm.

Yaxın dialoqumuzun davam etdirilməsini səbirsizliklə gözləyirəm və Sizi münasib vaxtda Latviyaya rəsmi səfərə dəvət etməkdən məmnunluğumu ifadə edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Edqars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Sizi və bütün xalqınızı Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edim. Sizə və ölkənizə davamlı rifah, sülh və təhlükəsizlik arzulayıram.

Litva ilə Azərbaycanı uzunmüddətli dostluq münasibətləri birləşdirir. Qarşılıqlı faydalı sahələrdə ikitərəfli dialoqumuzu ardıcıl şəkildə gücləndirməyə sadiqik. Əminəm ki, siyasi, iqtisadi və mədəni əlaqələrimizin daha da inkişaf etdirilməsi ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirəcək və xalqlarımıza fayda verəcək.

Qəti şəkildə inanıram ki, ortaq tarixi təcrübələrlə, suverenliyə və azadlığa birgə hörmətlə çoxtərəfli səviyyədə uğurlu əməkdaşlığımızı davam etdirəcəyik. Şübhəsiz ki, Azərbaycanla Avropa İttifaqı arasında qarşılıqlı etimada və konstruktiv tərəfdaşlığa əsaslanan dialoq daha da güclənəcək və xalqlarımızın rifahına töhfə verəcək.

Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərdə müsbət dinamika dialoqa və sülhə möhkəm sadiqliyinizi nümayiş etdirir. Bu prosesin davam etdirilməsi Cənubi Qafqaz regionunun təhlükəsizliyi və rifahı ilə yanaşı, regionun hüdudlarından kənarda sülhə də mühüm töhfə verir.

Cənab Prezident, milli bayramınız münasibətilə Sizi və xalqınızı bir daha təbrik edirəm. Ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı bildirirəm. Ölkənizə və dost Azərbaycan xalqına davamlı tərəqqi, rifah və firavanlıq arzulayıram.

Monteneqro və Azərbaycan Respublikası arasında qarşılıqlı hörmət, etimad və anlaşma əsasında qurulmuş ənənəvi dostluq münasibətlərinin inkişaf etdiyini vurğulamaqdan xüsusi məmnunluq duyuram. Ölkələrimiz ortaq maraq doğuran bir sıra sahələrdə çox yaxşı əməkdaşlıq qurub və inkişaf etdirib. Əminəm ki, birgə səylərimiz sayəsində xalqlarımızın qarşılıqlı rifahı naminə bu əlaqələri daha da inkişaf etdirməyə və dərinləşdirməyə davam edəcəyik. Həmçinin inanıram ki, Monteneqro ilə Azərbaycan Respublikası arasındakı tərəfdaşlıq və dostluq münasibətləri konstruktiv əməkdaşlığın və səmimi ikitərəfli münasibətlərin nümunəsi olaraq daha da möhkəmlənəcək.

Bu ilin sonunda ölkənizə rəsmi səfər etməyi səbirsizliklə gözləyirəm. Bu səfər zamanı birbaşa ünsiyyət vasitəsilə dövlətlərarası münasibətlərimizin inkişafı üçün gələcək istiqamətlər barədə fikir mübadiləsi apara bilərik.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Yakov MİLATOVİÇ,***
***Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi, həmçinin sülh, tərəqqi və rifah arzularımı çatdırıram.

Yunanıstan Azərbaycanla illər ərzində çoxşaxəli tərəfdaşlığa çevrilmiş və davamlı şəkildə inkişaf edən ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət verir. Əminəm ki, beynəlxalq hüquqa, suverenlik və ərazi bütövlüyü prinsiplərinə tam hörmətlə yanaşılmaqla ikitərəfli münasibətlərimizi xalqlarımızın rifahı naminə daha da inkişaf etdirə və möhkəmləndirə bilərik.

Zati-aliləri, bir daha Sizə ən xoş arzularımı bildirir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Konstantinos TASULAS,***
***Yunanıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım!

Qardaş Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluğumu bildirirəm. Qardaş xalqlarımızın qarşılıqlı mənafeyinə xidmət naminə bu münasibətlərin daha da möhkəmləndirilməsi və yeni zirvələrə yüksəldilməsi istiqamətində fəaliyyətimizi davam etdirməyə sadiqliyimi bir daha təsdiq edirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə zati-alinizə, hökumətinizə və dost Azərbaycan xalqına Hindistan hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi yetirirəm.

Hindistan və Azərbaycan arasında tarixi və mədəni əlaqələr mövcuddur. İnsanlar arasında təmaslarla yanaşı, iqtisadi və ticarət sahələrində əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensial var.

Sizə möhkəm cansağlığı və rifah, Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Draupadi MURMU,***
***Hindistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi və Azərbaycan xalqını ölkənizin Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ildən-ilə regional və beynəlxalq proseslərdə öz rolunu və nüfuzunu artıraraq energetika, logistika və iqtisadiyyat sahələrində regional əməkdaşlığın mühüm iştirakçısı kimi dinamik inkişafını nümayiş etdirir.

Ukrayna ölkələrimiz arasında münasibətlərin strateji xarakterini və Azərbaycanın dövlətimizə, eləcə də Ukrayna xalqına bu son dərəcə çətin dövrdə göstərdiyi ardıcıl dəstəyi yüksək qiymətləndirir.

Ukraynaya göstərilən humanitar və enerji yardımı, İrpen şəhərinin bərpasında iştirak, həmçinin ukraynalı uşaqların reabilitasiyası və sağlamlaşdırılması proqramlarının həyata keçirilməsi üçün Sizə xüsusi minnətdarlığımı bildirirəm. Bu addımlar dövlətlərimiz arasında həqiqi həmrəyliyin və qarşılıqlı hörmətin təzahürüdür.

Ukrayna beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində dövlətlərin suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəyişməz şəkildə dəstəkləyir. Əminəm ki, bu prinsiplərə sadiqlik bundan sonra da Qara dəniz-Xəzər regionunda sabitliyin və təhlükəsizliyin əsası olaraq qalacaq.

Əminəm ki, Ukrayna ilə Azərbaycan arasında energetika, logistika, nəqliyyat əlaqələrinin, infrastruktur və təhlükəsizlik sahələrində əməkdaşlığın daha da inkişafı üçün böyük potensial mövcuddur. Qlobal enerji və logistika marşrutlarının transformasiyası şəraitində dövlətlərimizin regional qarşılıqlı əlaqələrin təmin edilməsindəki rolu və dayanıqlılığı daha da artacaq. İnanıram ki, Ukrayna-Azərbaycan strateji tərəfdaşlığı dövlətlərimizin və xalqlarımızın maraqları naminə bundan sonra da möhkəmlənəcək.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Maldiv hökuməti və xalqı adından zati-alinizə, Azərbaycan hökumətinə və xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Ölkələrimizin qarşılıqlı hörmətə, etimada və əməkdaşlığa əsaslanan davamlı ikitərəfli əlaqələrinin inkişafını minnətdarlıqla qeyd edirəm. Əminəm ki, Maldiv Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq münasibətləri gələcək illərdə də inkişaf edəcək.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və rifah, Azərbaycan xalqına davamlı tərəqqi, sülh və firavanlıq arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Sinqapur xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Ölkənizə davamlı sülh, tərəqqi və rifah arzu edirəm.

*Hörmətlə,*

***Tarman ŞANMUQARATNAM,***
***Sinqapur Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Laos Xalq Demokratik Respublikası xalqı adından və öz adımdan zati-alinizə və bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Son illərdə Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud əməkdaşlıqdan çox məmnunam. Əminəm ki, ölkələrimiz arasındakı dostluq əlaqələri və yaxşı səviyyədə olan əməkdaşlıq gələcək illərdə xalqlarımızın qarşılıqlı faydası, eləcə də regionda və bütövlükdə dünyada sülh, sabitlik və davamlı inkişaf naminə daha da möhkəmlənəcək və inkişaf edəcək.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar, dost Azərbaycan xalqına isə davamlı rifah və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından zati-alinizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi, Sizə cansağlığı, şəxsi rifah, xalqınıza isə tərəqqi və firavanlıqla bağlı ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Mən Kamboca Krallığı ilə Azərbaycan Respublikası arasında mehriban dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, bu əlaqələr qarşıdakı illərdə ölkələrimizin və xalqlarımızın qarşılıqlı faydası naminə daha da inkişaf edəcək.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Norodom SİHAMONİ,***
***Kambocanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Sizə və dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə San-Marino xalqı adından və öz adımızdan təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gündə zati-alinizə müvəffəqiyyətlər, bütün Azərbaycan xalqına firavanlıq və rifah dolu gələcək arzulayırıq.

*Hörmətlə,*

***Aliçe MİNA və Vladimiro SELVA,***
***San-Marino Respublikasının Regent Kapitanları***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə zati-alinizə, Azərbaycan Respublikasının hökumətinə və dost xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar milli bayram Azərbaycan xalqının dəyanətini və nailiyyətlərini əks etdirir.

Somali Federativ Respublikası Azərbaycan Respublikası ilə dostluq münasibətlərini yüksək qiymətləndirir və xalqlarımızın qarşılıqlı faydası naminə ikitərəfli əməkdaşlığı daha da inkişaf etdirməyi səbirsizliklə gözləyir.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı və Azərbaycan xalqına davamlı sülh, sabitlik və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Hasan Şeyx MAHMUD,***
***Somali Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident, əziz Qardaş!

Nikaraqua Respublikasının Barışıq və Milli Birlik Hökuməti və xalqı adından, həmçinin öz adımızdan Sizi, qardaş Azərbaycan Respublikasının xalqını və hökumətini 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Biz hörmətli Azərbaycan xalqının tarixini, ləyaqətini və vətənpərvərlik ruhunu dəyərləndirir, ölkənizin suverenliyinə, tərəqqi və rifah yoluna hörmətimizi bir daha ifadə edirik.

Mübarək və əbədi azad Nikaraquamızdan xalqlarımızı və hökumətlərimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələrini qarşılıqlı hörmət prinsipi əsasında daha da möhkəmləndirmək iradəmizi bir daha təsdiqləyirik.

Cənab Prezident, əziz Qardaş, Sizə və dost Azərbaycan xalqına davamlı sülh, tərəqqi və yeni qələbələr arzulayır, ən səmimi qardaşlıq salamlarımızı qəbul etməyinizi xahiş edirik.

***Daniel Orteqa SAAVEDRA və***
***Rosario MURİLYO,***
***Nikaraqua Respublikasının Həmprezidentləri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident!

Peru Hökuməti və xalqı adından, habelə şəxsən öz adımdan 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının firavanlığı və tərəqqisi naminə ən səmimi arzularımı bildirir, Peru ilə Azərbaycan arasında üç onillik ərzində formalaşmış siyasi dialoqu daha da dərinləşdirmək əzmini bir daha təsdiqləyirəm. Əminəm ki, birgə səylərimiz ölkələrimizin davamlı inkişafına xidmət edərək, qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın genişləndirilməsinə töhfə verəcək.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimi bir daha çatdıraraq, fürsətdən istifadə edib zati-alinizə dərin hörmət və ehtiramımı ifadə etməkdən məmnunluğumu bildirirəm.

*Hörmətlə,*

***Xose Mariya Balkasar SELADA,***
***Peru Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi Gürcüstan Hökuməti və gürcü xalqı adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

28 May rəmzi və tarixi əhəmiyyətə malik bir gündür, Azərbaycan xalqının müstəqillik, dövlət quruculuğu və milli birlik arzusunu əks etdirir.

Gürcüstan Azərbaycanla möhkəm dostluğa və strateji tərəfdaşlığa böyük əhəmiyyət verir. Məmnunluqla qeyd etmək istərdim ki, ölkələrimiz arasında əməkdaşlıq bir çox istiqamətlərdə uğurla inkişaf edir və qarşılıqlı hörmətə, mehriban qonşuluğa, ortaq maraqlara əsaslanır.

Əminəm ki, Gürcüstan və Azərbaycan arasında ənənəvi yaxın münasibətlər gələcəkdə daha da möhkəmlənəcək və regionda sabitliyin, təhlükəsizliyin, rifahın təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Cənab Prezident, mənim xüsusi ehtiramımı və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm. Sizə məsuliyyətli işinizdə uğurlar, Azərbaycan Respublikasına və xalqına sülh, tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Yunanıstan Azərbaycanla qarşılıqlı hörmətə, konstruktiv əməkdaşlığa əsaslanan güclü və dinamik tərəfdaşlığı yüksək qiymətləndirir. Enerji sahəsinin ikitərəfli münasibətlərimizin təməl daşı olmasına baxmayaraq, əməkdaşlığımızın davamlı şəkildə ümumi maraq doğuran yeni istiqamətlərdə genişlənməsini görməkdən məmnunam.

Biz beynəlxalq hüququ və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş prinsipləri, o cümlədən suverenliyə və ərazi bütövlüyünə hörməti rəhbər tutaraq əlaqələrimizi daha da dərinləşdirməyə sadiqik. Azərbaycan xalqına davamlı sülh, firavanlıq və tərəqqi arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Kiriakos MİTSOTAKİS,***
***Yunanıstan Respublikasının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Əlahəzrət Kral III Msvati, Kraliça Ana, Esvatini Krallığının Hökuməti və xalqı adından Azərbaycan Respublikanın Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırıram.

Esvatini Krallığı Azərbaycanın inkişaf yolunda əldə etdiyi irəliləyişi, beynəlxalq miqyasda mövqeyini, xalqın iradəsini, mətanətini təqdir edir.

Zati-aliləri, Sizin rəhbərliyinizlə Azərbaycan getdikcə daha da artan, qlobal əhəmiyyətə malik mövqeyə yüksəlmişdir və xalqınızın öz ölkəsinin nailiyyətləri ilə fəxr etmək üçün hər bir əsası vardır. Esvatini Krallığı ölkələrimiz arasında mövcud olan çox səmimi dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir və xalqlarımızın rifahı naminə qarşılıqlı ilərdə bu münasibətləri daha da möhkəmləndirmək niyyətindədir.

Bu əlamətdar bayram münasibətilə zati-alinizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***Rassel Mmiso DLAMİNİ,***
***Esvatini Krallığının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə zati-alinizə, Hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Tarixdə mühüm dönüş nöqtəsi olan 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının qeyd edildiyi bu əlamətdar bayram xalqınızın suverenliyə, milli ləyaqətə və maariflənməyə sarsılmaz sadiqliyinin qürurverici təsdiqidir.

Azərbaycanın əvəzolunmaz Ümummilli Lideri Heydər Əliyevin və Bakıda Şəhidlər xiyabanında uyuyan qəhrəman şəhidlərin məzarlarını ehtiramla yad etmək mənə Azərbaycan xalqının cəsarətini, fədakarlığını və möhkəm iradəsini bir daha xatırladı. Mərhum atanız Heydər Əliyevin milli ləyaqət və dövlətçiliklə bağlı zəngin irsi bu gün Azərbaycanın hüdudlarından kənarda da böyük hörmətlə qarşılanır.

Azərbaycan Respublikası bu gün zati-alinizin uzaqgörən rəhbərliyi altında böyük uğurla və inamla inkişaf edir, dünya dövlətlərinin hörmət və rəğbətini qazanır. Fürsətdən istifadə edərək bu yaxınlarda zati-alinizlə görüşümüz zamanı, ümumiyyətlə Bakıda olduğumuz müddətdə mənə və nümayəndə heyətimə göstərdiyiniz yüksək səmimiyyətə və qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Zati-aliniz və qardaş Azərbaycan xalqı tərəfindən Pəncab xalqına qarşı ifadə edilən, qəlbimizdə silinməz iz buraxan dostluq və qardaşlıq hisslərini həmişə hörmət və məhəbbətlə xatırlayacağıq. Pakistan İslam Respublikası, onun Pəncab əyaləti və Azərbaycan Respublikası arasındakı əlaqələrin əsasında ortaq dəyərlər, qarşılıqlı etimad, həm çətin, həm də xoş günlərdə bir-birinə göstərilən sarsılmaz dəstək dayanır. Bu əlaqələrin qarşıdakı illərdə daha da möhkəmlənəcəyinə və Pəncab xalqı ilə Azərbaycan xalqı arasındakı qardaşlıq əlaqələrinin daha da dərinləşəcəyinə səmimi-qəlbdən inanıram.

Zati-aliləri, bir daha ən yüksək ehtiramımı və Azərbaycan Respublikasına davamlı sülh, tərəqqi və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məryəm Nəvaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Pəncab əyalətinin Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Beynəlxalq Katibliyi adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik, mütərəqqi yolla irəliləməkdə davam edir, ölkənin müstəqilliyi, suverenliyi daha da möhkəmlənir, xalqın arzu və istəkləri gerçəkləşir.

Ənənəyə uyğun olaraq, bu il də Müstəqillik Günü həm sosial-iqtisadi inkişaf istiqamətində, həm də regional və qlobal məsələlərdə yeni mühüm nailiyyətlərlə qeyd olunur.

Azərbaycan Silahlı Qüvvələrinin şanlı Qələbəsindən sonra azad edilmiş torpaqların bərpası və yenidən qurulması prosesi uğurla və sürətlə davam edir. Keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı ilə bağlı Proqram Qarabağ bölgəsinin dirçəlişinə, yenilənməsinə, eləcə də ölkə iqtisadiyyatına inteqrasiyasına töhfə verir.

Bu gün dinamik və inkişaf edən iqtisadiyyatı ilə Azərbaycan əsas layihələr, təşəbbüslər irəli sürməklə və həyata keçirməklə regional tərəqqi, beynəlxalq əməkdaşlıq üçün hərəkətverici qüvvə kimi çıxış etməkdə davam edir.

Azərbaycan həmçinin böyük nüfuz və təsir gücünə malik mühüm regional və beynəlxalq aktora çevrilir, Qoşulmama Hərəkatı, COP və digər beynəlxalq platformalar kimi qlobal təşkilatlarda və təşəbbüslərdə liderlik yolu ilə sülhü, təhlükəsizliyi və dialoqu müdafiə edir. Bu yaxınlarda ölkənin evsahibliyi etdiyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası bunun daha bir sübutudur. Beynəlxalq münasibətlər sistemindəki böhran dövrlərində, beynəlxalq hüququn prinsiplərinin pozulduğu bir vaxtda Azərbaycan nümunə göstərərək bütün millətlər üçün dinc yanaşı yaşamağın müəyyən edilmiş norma və prinsiplərinə əsaslanan ədalətli bir dünyanı müdafiə edir.

Ermənistanla sülhün əldə edilməsi istiqamətində atılan addımlar Azərbaycanın regional sülhün və əməkdaşlığın bərqərar olmasına sadiqliyini nümayiş etdirir və bu, təqdirlə qarşılanır. Xüsusilə Ermənistanla ədalətli və davamlı sülhün əldə olunmasında Sizin şəxsi iştirakınızı və səylərinizi yüksək qiymətləndiririk. Bu məqsədə çatmaqda Sizə uğurlar arzulayırıq.

Zati-aliləri, bu il 20-ci ildönümünü qeyd etdiyimiz GUAM-ın təsisçi üzvü kimi Azərbaycanın fəal və konstruktiv rolunu yüksək qiymətləndiririk. Biz GUAM-ın sülhün, təhlükəsizliyin və əməkdaşlığın təşviqi üçün nadir və səmərəli regional platforma olduğuna qətiyyətlə inanırıq. Son zamanlar baş verən dərin geosiyasi dəyişikliklər coğrafiyamızın Şərq ilə Qərb, Avropa ilə Asiya arasında təbii bir əlaqə kimi geostrateji əhəmiyyətini daha çox nümayiş etdirdi. Həmçinin təşkilatımızın üzv dövlətlərin və beynəlxalq ictimaiyyətin maraqları, rifahı naminə regionumuzun üstünlüklərindən və potensialından istifadə etmək gücündə olduğuna inanırıq.

Müstəqilliyi daha da gücləndirəcək və xalqlarımızın rifahını artıracaq ortaq təşəbbüslərimizi, layihələrimizi həyata keçirməklə Azərbaycan Respublikası ilə əməkdaşlığımızı dərinləşdirməyi səbirsizliklə gözləyirik.

Hörmətli cənab Prezident, bu əlamətdar bayram münasibətilə Sizə ölkənin daha da inkişaf etdirilməsi, müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi ilə bağlı səylərinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram Azərbaycan üçün dirçəlişin və öz tarixinə hörmətin rəmzidir. Suveren inkişaf illərində ölkə zəngin mədəni ənənələrini və milli kimliyini qoruyub saxlayaraq beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirib. Azərbaycanın dinamik iqtisadi inkişafının insanlara, elm və təhsilə, mədəniyyətə qayğı ilə birləşdirmək qabiliyyəti xüsusi hörmətə layiqdir. Sözsüz ki, bu, ölkənizin gələcəyini müəyyən edən və bütün səylərini onun tərəqqisinə sərf edən lider kimi şəxsən Sizin xidmətinizdir.

Biz Qaraçay-Çərkəz ilə Azərbaycan arasında dostluq və mehriban qonşuluq münasibətlərinə dəyər veririk. Əminəm ki, əməkdaşlığımız respublikalarımızın xalqlarının rifahı naminə daha da möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və yeni-yeni uğurlar, Azərbaycan vətəndaşlarına isə sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan gözəl və firavan ölkədir, qeyri-adi zəngin insan potensialına malikdir. Bu gün Azərbaycan Respublikası gələcəyə inamla baxır və bütün vətəndaşlarının rifahı naminə dinamik şəkildə inkişaf edir.

Qoy, ölkələrimiz arasında tərəfdaşlıq və xalqlarımızın dostluğu ildən-ilə daha da möhkəmlənsin!

Azərbaycana davamlı inkişaf və rifah arzulayıram.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Avrasiya Yəhudi Konqresi adından və şəxsən öz adımdan Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bu bayram Azərbaycanın suverenliyinin, milli ləyaqətinin və ardıcıl inkişafının rəmzidir. Ölkəniz Sizin rəhbərliyinizlə beynəlxalq arenada mövqelərini inamla möhkəmləndirir, sabitlik, iqtisadi artım, eləcə də millətlərarası və dinlərarası həmrəylik prinsiplərinə sadiqliyini nümayiş etdirir.

Azərbaycanda formalaşmış qarşılıqlı hörmət və tolerantlıq mühitini, həmçinin yəhudi irsinin qorunmasına və ölkədəki yəhudi icmasının inkişafına göstərilən xüsusi diqqəti yüksək qiymətləndiririk. Bu ənənələr xalqlar arasında dinc birgəyaşayışın və qarşılıqlı anlaşmanın mühüm nümunəsidir.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Mixail MİRİLAŞVİLİ,***
***Avrasiya Yəhudi Konqresinin prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktorluğu və kollektivi adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Bu tarixi gün Azərbaycan dövlətçiliyinin zəngin ənənələrini, milli birliyinin və ölkənin qlobal miqyasda daha da inkişaf etmək, nüfuzunu gücləndirmək səylərinin rəmzidir. Elm və təhsil bu prosesdə mühüm rol oynayır, Azərbaycan bunların sayəsində beynəlxalq elmi dialoqun inkişafına əhəmiyyətli töhfə verir.

Son yeddi onillik ərzində Azərbaycanın elm və təhsil mərkəzləri ilə Birləşmiş Nüvə Tədqiqatları İnstitutu arasında fundamental, tətbiqi elm sahəsində, həmçinin elm və təhsil proqramlarının həyata keçirilməsində davamlı tərəfdaşlıq münasibətləri qurulub. Bu qarşılıqlı əməkdaşlığın tarixi və əldə olunan nəticələrinə marağın elmi-publisistik fəaliyyətlərdə də öz əksini tapması sevindirici haldır.

Əminəm ki, Azərbaycanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun üzv dövləti kimi onun fəaliyyətində iştirakı, eləcə də ölkənin elmi ictimaiyyətinin birgə layihələrin həyata keçirilməsinə fəal şəkildə cəlb olunması onun elmi potensialının daha da gücləndirilməsinə və beynəlxalq elmi əməkdaşlığın inkişafına bundan sonra da mühüm töhfələr verəcək.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı, yeni-yeni uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, rifah və tərəqqi arzulayıram.

*Dərin və səmimi hörmətlə,*

***Qriqori TRUBNİKOV,***
***Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkəti adından və şəxsən öz adımdan Sizə təbriklərimi çatdırıram.

İcazə verin, Sizə və bütün Azərbaycan xalqına davamlı sülh, sabitlik, əmin-amanlıq və tərəqqi arzulayım. Qoy, müstəqillik və suverenlik tərəqqi və birliyin təməli olmaqda davam etsin!

Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti respublikada baş verən hadisələri bundan sonra da maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaq.

*Dərin hörmətlə,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

28 May milli dirçəliş, dövlətçilik və demokratiya dəyərlərinə sadiqliyin rəmzi kimi Azərbaycanın tarixində xüsusi yerə malikdir. Bu gün Azərbaycan güclü, müasir və dinamik şəkildə inkişaf edən, beynəlxalq arenada öz mövqeyini inamla möhkəmləndirən dövlətdir.

Sizin həyata keçirdiyiniz multikulturalizm, tolerantlıq və millətlərarası barışığın qorunub saxlanılması siyasəti xüsusi hörmətə layiqdir. Bunun sayəsində Azərbaycan bütün dünyada müxtəlif xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və dostluq şəraitində yaşadığı ölkə kimi tanınır. Bu, İsraildə yaşayan azərbaycanəsilli insanlar üçün xüsusi əhəmiyyətə malikdir və onların uşaqlıq, gənclik illərinin keçdiyi ölkə ilə bağlı səmimi qürur hissi doğurur.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, sabitlik və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Şaul Siman-TOV,***
***İsraildə fəaliyyət göstərən "Şolumi" Mərkəzinin rəhbəri, "Azİz" Assosiasiyasının icraçı direktoru, STMEGI TV-nin İsrail filialının rəhbəri***

# Azərbaycan-ABŞ arasında TRIPP layihəsinin icrası məsələləri müzakirə olunub

**İyunun 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-ABŞ münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya əlaqələri, investisiyalar, ticarət, eləcə də regional gündəliyin qarşılıqlı maraq doğuran məsələləri müzakirə olunub.

Tərəflər Azərbaycan ilə ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasına uyğun olaraq qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar. İlk iclası keçiriləcək Azərbaycan-ABŞ İqtisadi Dialoqunun əməkdaşlıq əlaqələrinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığı qeyd olunub.

Görüşdə enerji sahəsində uzunmüddətli əməkdaşlığın, xüsusilə ölkəmizin enerji təhlükəsizliyinə verdiyi töhfə vurğulanıb. Eyni zamanda bərpaolunan enerji, "yaşıl keçid", innovasiyalar və yüksək texnologiyalar sahələrində əməkdaşlığın inkişaf perspektivləri nəzərdən keçirilib.

Nazir Ceyhun Bayramov ölkəmizin əlverişli investisiya mühiti, regional bağlantı layihələri və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən təşəbbüslər barədə məlumat verib. Bu istiqamətdə Orta dəhlizin artan əhəmiyyəti, onun regional iqtisadi inteqrasiyaya verdiyi töhfə vurğulanıb.

Görüşdə ötən ilin avqust ayında Vaşinqton sammiti çərçivəsində əldə edilmiş tarixi razılaşmalardan sonra regionda mövcud vəziyyət və əhəmiyyətli irəliləyişlər, habelə kommunikasiya xətlərinin açılması, TRIPP layihəsinin icrası məsələləri müzakirə olunub.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclası ikitərəfli əməkdaşlığa töhfə verəcək



**İyunun 1-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini və Azərbaycan-ABŞ Strateji İşçi Qrupunun həmsədri Elnur Məmmədov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini və ABŞ tərəfindən Strateji İşçi Qrupun həmsədri Sonata Koulterin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlərin inkişafına həsr olunmuş görüşdə ABŞ-Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində əməkdaşlıq perspektivləri, iqtisadi əlaqələrin genişləndirilməsi, enerji təhlükəsizliyi, regional bağlantılar və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Tərəflər strateji tərəfdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıb və iyunun 2-də Bakıda keçiriləcək Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının ikitərəfli əməkdaşlığın inkişafına əlavə töhfə verəcəyini qeyd ediblər.

Bundan əlavə, görüşdə iqtisadi və ticari əlaqələrin dərinləşdirilməsi, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi, eləcə də regional sabitlik və rifahın təşviqi istiqamətində dialoqu davam etdirmək niyyəti ifadə olunub.

# Energetika naziri: "Mərkəzi Asiya-Azərbaycan "Yaşıl Enerji" Dəhlizi" regionlararası enerji əməkdaşlığının yeni mərhələsini formalaşdırır"

**"Mərkəzi Asiya-Azərbaycan "Yaşıl Enerji" Dəhlizi" layihəsi regionlararası enerji əməkdaşlığının yeni mərhələsini formalaşdırır.**

AZƏRTAC xəbər verir ki, bunu energetika naziri Pərviz Şahbazov Bakı Enerji Forumu çərçivəsində keçirilən "Nazirlər arasında dialoq: Asiyada bərpaolunan enerji mənbələrinə əsaslanan enerji keçidi" mövzusundakı panel müzakirələrdə çıxışı zamanı deyib.

"Regionda enerji əməkdaşlığı istiqamətində artıq konkret və strateji əhəmiyyət daşıyan layihələr həyata keçirilir. Onlardan ən mühümlərindən biri "Mərkəzi Asiya-Azərbaycan "Yaşıl Enerji Dəhlizi" təşəbbüsüdür. Ölkələrimizin nümayiş etdirdiyi siyasi iradə və uzunmüddətli baxış strateqiyası sayəsində iki il əvvəl Bakıda strateji tərəfdaşlıq sənədi imzalanıb. Azərbaycan və Qazaxıstan prezidentlərinin dəstəyi ilə yürüdülən bu təşəbbüs regionlararası enerji əməkdaşlığının yeni mərhələsini formalaşdırır. Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığın inkişafı bu prosesdə mühüm yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin baxışına uyğun olaraq, Cənubi Qafqaz və Mərkəzi Asiya vahid strateji məkan kimi nəzərdən keçirilir. Trans-Xəzər enerji dəhlizlərinin inkişafı ölkələrimizin enerji sistemlərini birləşdirərək daha geniş regional inteqrasiyaya xidmət edir. Eyni zamanda bu layihələr Orta dəhlizin inkişafına da mühüm töhfə verir. Orta dəhliz Avropa ilə Asiyanı, o cümlədən Çini Xəzər dənizi üzərindən birləşdirən strateji əlaqə xəttinə çevrilir. "Yaşıl enerji" dəhlizləri bu marşrutun iqtisadi və geosiyasi əhəmiyyətini daha da artırır", - deyə nazir qeyd edib.

# "Artan geosiyasi gərginliklər və "yaşıl keçid" qlobal enerji mənzərəsini yenidən formalaşdırır"

**Bu gün tək bir mənbəyə, marşruta və ya bazara güvənmək artıq dayanıqlı bir strategiya deyil. Artan geosiyasi gərginliklər, enerji bazarlarındakı dəyişkənlik, təchizat zəncirindəki fasilələr, elektrikləşmənin sürətlənməsi və "yaşıl keçid" qlobal enerji mənzərəsini əhəmiyyətli dərəcədə yenidən formalaşdırır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri energetika naziri Pərviz Şahbazov D-8 Üzv Dövlətlərinin Enerji Nazirlərinin I görüşündə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bu yeni geosiyasi kontekstdə enerji siyasətlərinin şaxələndirilməsi, yeni bazarlara genişlənmə və yeni tərəfdaşlıqların formalaşdırılması dövlətlərin strateji dayanıqlığının gücləndirmək üçün vacibdir.

"Azərbaycan neft-qazdan tutmuş elektrik və "yaşıl enerji"yə qədər regional enerji dəhlizlərini inkişaf etdirərkən enerji təhlükəsizliyi ilə enerji keçidi arasında tarazlı yanaşmanı ardıcıl olaraq həyata keçirir. Eyni zamanda ölkə strateji qitələrarası enerji və tranzit qovşağına çevrilir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, TANAP və TAP kimi strateji qaz dəhlizləri vasitəsilə Azərbaycan uzun müddətdir ki, regional və Avropa enerji təhlükəsizliyində mühüm rol oynayır və indi bu rolu Cənubi Qafqaz, Mərkəzi Asiya, Türkiyə və Avropa arasında "yaşıl enerji" dəhlizləri vasitəsilə daha da genişləndirir",- deyə o nəzərə çatdırıb.

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Belarusda səfərdə olub






**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti "Belaya Rus" Partiyasının dəvəti ilə "XXI əsrdə çoxqütblülük və müxtəliflik şəraitində dövlət suverenliyi və beynəlxalq münasibətlərin prinsipləri" mövzusunda II Beynəlxalq Konfransda iştirak etmək məqsədilə Belarus Respublikasına səfər edib.**

Mayın 28-də konfrans iştirakçıları "Brest - Qəhrəman Qala" Memorial Kompleksində Əbədi məşəlin önünə çələng və gül dəstələri qoyaraq İkinci Dünya müharibəsində həyatını itirmiş qəhrəmanların xatirəsini ehtiramla yad ediblər.

Açılış mərasimində Belarus Prezidenti Aleksandr Lukaşenkonun konfrans iştirakçılarına müraciəti səsləndirilib. Sonra "Belaya Rus" Partiyasının Ali Siyasi Şurası Prezidiumunun üzvü Andrey Krivoşeyevin moderatorluğu ilə keçirilən plenar iclaslarda "Belaya Rus" Partiyasının sədri Olqa Çemodanova, Zimbabve Respublikası Milli Assambleyasının Sədri, Zimbabve Afrika Milli İttifaqı - Vətənpərvər Cəbhə partiyasının baş katibi Ceykob Frensis Nevidamilimo Mudenda, Moldova Respublikasının sabiq prezidenti, Sosialistlər Partiyasının sədri İqor Dodon, Sahibkarlar və İşadamları Hərəkatı - Özbəkistan Liberal - Demokratik Partiyası Siyasi Şurasının İcra Komitəsinin sədri Aktam Xaitov, "Yedinaya Rossiya" Partiyasının Ali Şurasının Beynəlxalq əməkdaşlıq komissiyasının üzvü, Rusiya Federasiyası Federal Şurası Dövlət Dumasının MDB məsələləri üzrə Komitəsi sədrinin müavini Artyom Turov, Tacikistan Xalq Demokratik Partiyası sədrinin birinci müavini Malikşo Nematzoda, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Myanma İttifaqı Respublikasının Həmrəylik və İnkişaf Partiyası sədrinin müavini U Xla Xtun, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr komitəsinin sədri Bunlıa Pxandanuvonq, Koreya Xalq Demokratik Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Əmək Partiyasının üzvü Çi Kyon Su, Kuba Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Kuba Kommunist Partiyasının üzvü Santyaqo Peres Benites, Qazaxıstanın "AMANAT" partiyasının katibi Aleksandr Danilov, Almaniya üçün Alternativ Partiyasından "Lauxhammer" parlament qrupunun rəhbəri Ştefan Korte, Serbiya Sosialistlər Hərəkatı Prezidiumunun üzvü, partiyanın Belqrad şəhər komitəsinin sədri Vladimir İliç, "Belaya Rus" partiyası Ali Siyasi Şurası Prezidiumunun üzvü, Belarus Respublikası Milli Assambleyasının Nümayəndələr Palatasının üzvü Aleksandr Şpakovskiy, Venesuela Vahid Sosialist Partiyası Siyasi Şurasının üzvü, Milli Assambleyanın üzvü Uilyam Farina və Brest Vilayəti İcra Komitəsinin sədri Pyotr Parxomçik çıxış ediblər.




Çıxışlarda dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda və çoxqütblü dünya nizamına transformasiya şəraitində dövlət suverenliyinin qorunmasının, regional və qlobal təhlükəsizlik naminə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanaraq bu xüsusda partiya diplomatiyasının önəminə diqqət çəkilib.

Ayrı-ayrı regionlarda baş verən hərbi-siyasi münaqişələrin və humanitar böhranların qlobal təhlükəsizliyə ciddi təhdidlər yaratdığı vurğulanaraq bütün mübahisəli məsələlərin beynəlxalq hüquq normaları əsasında həllinin vacibliyi qeyd olunub. Bildirilib ki, ölkələrin daxili işlərinə müdaxilə yolverilməzdir və milli maraqlarına mütləq şəkildə hörmət edilməlidir.

Separatizmin və neolokolonializmin bütün forma və təzahürlərinə, müstəqil siyasət həyata keçirən ölkələrə qarşı ikili standartlara söykənən qərəzli münasibətə, çoxsaylı hibrid təhdidlərə, dezinformasiya, manipulyasiya və qara piar kampaniyalarına qarşı qətiyyətli mübarizənin önəmi nəzərə çatdırılıb. Bu kontekstdə dost və tərəfdaş ölkələrin həmrəylik nümayiş etdirməsinin, eləcə də aparıcı ictimai institut kimi siyasi partiyaların səylərinin birləşdirilməsinin və beynəlxalq platformalarda qarşılıqlı dəstəyin təmin olunmasının əhəmiyyəti vurğulanıb.

Partiya diplomatiyasının təkcə ikitərəfli əlaqələrin inkişafını əhatə etmədiyi və çoxşaxəli işbirliyinə hədəfləndiyi qeyd edilərək konfransın beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inam ifadə olunub.

Plenar iclasda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu mötəbər konfransın yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə ev sahibi "Belaya Rus" Partiyasına Yeni Azərbaycan Partiyası adından təşəkkürünü bildirib.

YAP Sədrinin müavini qeyd edib ki, XXI əsrdə müasir dünya nizamının çoxqütblü sistemə getdikcə daha çox transformasiyası ilə müşayiət olunan mürəkkəb geosiyasi proseslər şəraitində dövlətlər arasında qarşılıqlı hörmətə və bərabərhüquqlu tərəfdaşlığa əsaslanan əməkdaşlıq münasibətlərinin qurulması, eyni zamanda milli suverenliyin təmin edilməsi və maraqların qorunması xüsusi əhəmiyyət kəsb edir: "İnkişaf və tərəqqinin ən vacib şərti sülh və təhlükəsizlikdir. Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik anlayışı yalnız hərbi münaqişələrlə məhdudlaşmır. Siyasi dialoq, qarşılıqlı etimad və inklüziv əməkdaşlıq mexanizmləri fikir ayrılıqlarının qarşısının alınmasında və dayanıqlı sülhün təmin edilməsində əsas rol oynayır".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın həyata keçirdiyi çoxşaxəli və məqsədyönlü siyasət bütövlükdə regionda davamlı sülhün, sabitliyin və rifahın təmin olunmasına xidmət edir: "Bu siyasətin ideoloji və hüquqi əsasını beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığın təşviqi təşkil edir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı tikinti-bərpa işləri çərçivəsində müasir nəqliyyat-kommunikasiya infrastrukturu yaradılır, yaşayış məntəqələri isə yeni "ağıllı" konsepsiyalar əsasında yenidən qurulur. Həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının regional əməkdaşlıq və inkişaf baxımından potensialından istifadəsi çərçivəsində Zəngəzur dəhlizinin reallaşdırılması yönündə işlər sürətlə aparılmaqdadır. Bütün bu tədbirlər ölkəmizin sülhə, təhlükəsizliyə və davamlı inkişafa verdiyi önəmin bariz göstəricisidir. Uzunmüddətli regional təhlükəsizlik və inkişafın təmin olunmasına mühüm zəmin yaradan bu yanaşma postmünaqişə dövründə sülhün möhkəmləndirilməsi və qarşılıqlı etimadın gücləndirilməsi baxımından praktik və nümunəvi model kimi çıxış edir".

YAP Sədrinin müavini bildirib ki, qloballaşma şəraitində, beynəlxalq münasibətlərin strukturunun dəyişməsi, qeyri-dövlət aktorlarının rolunun artması və çoxtərəfli əməkdaşlıq formatlarının genişlənməsi fonunda beynəlxalq sistemin fəal iştirakçıları kimi siyasi partiyaların rolu durmadan artır: "Bu kontekstdə partiyalararası dialoq ənənəvi diplomatik mexanizmləri tamamlayan, bəzən isə onları qabaqlayan mühüm vasitə kimi çıxış edir. Regionumuzda və ondan kənarda dayanıqlı sülhün təmin edilməsi üçün inklüziv əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsas götürülməlidir. Bu baxımdan, siyasi partiyalar, müxtəlif beyin mərkəzləri və beynəlxalq siyasi partiya təşkilatları arasında əməkdaşlığın daha da genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası beynəlxalq səviyyədə müxtəlif siyasi partiyalar arasında dialoqu təşviq edir. İkitərəfli formatda, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlər və müzakirələr qarşılıqlı anlaşmanın dərinləşməsinə və müasir qlobal çağırışlara cavab olaraq birgə yanaşmaların formalaşdırılmasına töhfə verir. İkitərəfli əlaqələr kontekstində partiyamızın əməkdaşlıq etdiyi Azərbaycana dost ölkələrin aparıcı siyasi partiyalarının sayı artmaqda, coğrafiyası daim genişlənməkdədir. Sevindirici haldır ki, dostluq, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan Azərbaycan-Belarus münasibətlərinin dövlət başçılarımız cənab İlham Əliyev və cənab Aleksandr Lukaşenkonun müdrik və uzaqgörən siyasəti sayəsində hərtərəfli inkişafı fonunda YAP ilə "Belaya Rus" partiyası arasında əməkdaşlıq yeni yaranmasına baxmayaraq, sürətlə inkişaf edir. Bu isə ölkələrimiz və xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə kimi qiymətləndirilə bilər. Eyni zamanda YAP dünyanın müxtəlif regionlarından yüzlərlə partiyanı əhatə edən Mərkəzçi Demokrat İnternasionalı və Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı kimi siyasi partiya təşkilatları ilə fəal əməkdaşlıq edir. Son illərdə YAP müxtəlif qitələrin aparıcı siyasi partiyalarının yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə regional və qlobal əhəmiyyət kəsb edən aktual məsələlərin müzakirəsi üçün beynəlxalq platforma formalaşdırmışdır. 2022-ci ildən etibarən iyunun 15-də Şuşa şəhərində keçirilən beynəlxalq konfransların mövzu və iştirak baxımından əhatə dairəsi sürətlə genişlənməkdədir. "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusuna həsr olunmuş qarşıdan gələn konfransda dövlət və hökumət strukturlarının nümayəndələri, müxtəlif ölkələrin aparıcı siyasi partiyaları, nüfuzlu analitik mərkəzlər və kütləvi informasiya vasitələrinin iştirakı ilə qlobal çağırışlar şəraitində sülh quruculuğu və partiyalararası diplomatiya mexanizmləri, regional əməkdaşlığın iqtisadi əsasları, eləcə də postmünaqişə dövründə ərazilərin bərpası və müasir şəhərsalma məsələləri ətraflı müzakirə olunacaqdır".

"Partiyalararası dialoq yalnız siyasi əməkdaşlığı deyil, eyni zamanda humanitar və iqtisadi əlaqələrin genişlənməsini də stimullaşdırır. Bu baxımdan, tarixi Brest şəhərində keçirilən bu mötəbər tədbirin ölkələrimiz və xalqlarımızın mənafelərinə, eləcə də qlobal sülh və tərəqqiyə xidmət edən uğurlu nəticələrlə yadda qalacağına əminliyimi ifadə edirəm. Konfransın işinə uğurlar arzulayıram", - deyə T.Budaqov əlavə edib.

Tədbirin sonunda konfransda aparılmış müzakirələrin yekunlarını özündə əks etdirən qətnamə qəbul olunub.

YAP nümayəndə heyəti "Belaya Rus" Partiyası adından konfrans iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə də iştirak edib.

Nümayəndə heyətlərinin "Brest - Qəhrəman Qala" Memorial Kompleksinə, Respublika Gənclərin Vətənpərvərlik Tərbiyəsi Mərkəzinə və "Belovejskaya Puşça" Milli Parkına ziyarəti təşkil edilib. Həmçinin nümayəndə heyətləri Brest vilayətində bir sıra kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti ilə tanış olublar.

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Zimbabve Afrika Milli İttifaqı - Vətənpərvər Cəbhə partiyasının baş katibi Ceykob Frensis Nevidamilimo Mudenda arasında keçirilən görüşdə dövlət başçılarının siyasi iradəsi sayəsində hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı və digər bir sıra beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyi vurğulanıb. İkitərəfli münasibətlərin inkişafı üçün mühüm potensialın mövcud olduğu qeyd edilib. Regional və beynəlxalq təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsinin aparıldığı görüş zamanı siyasi partiyalar və parlamentlər arasında gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Belarus Milli Dövlət Teleradio Şirkətinin "Birinci informasiya" kanalına müsahibəsində beynəlxalq konfransın əhəmiyyətinə və səfərin yekunlarına, eləcə də istər ölkələr, istərsə də partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb.

YAP nümayəndə heyətinin səfəri mayın 30-da başa çatıb.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

## Bakı Zooloji Parkında Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bayram tədbiri keçirilib



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Bakı Zooloji Parkında "Gələcək uşaqlara məxsusdur" adlı ənənəvi bayram şənliyi keçirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Abadlıq Xidmətinin dəstəyi ilə təşkil olunan şənlikdə 1, 2 və 3 saylı uşaq evlərindən, eləcə də müxtəlif uşaq inkişaf mərkəzləri və bağçalardan ümumilikdə 250-dən çox uşaq iştirak edib.

Tədbir çərçivəsində uşaqlar üçün əyləncəli və maarifləndirici proqram təqdim olunub. Zooloji Parkın müxtəlif guşələrində təşkil edilən müsabiqələr və oyunlar balacaların böyük marağına səbəb olub. Sehrbazların çıxışları və cizgi film qəhrəmanlarının iştirakı isə şənliyə xüsusi rəng qatıb.

Bayram tədbirində uşaqların yaradıcılıq bacarıqlarını nümayiş etdirməsi üçün də şərait yaradılıb. Balacalar rəsm çəkmə, ekoçantaların bəzədilməsi, gips fiqurların rənglənməsi kimi müxtəlif ustad dərslərində fəal iştirak ediblər.

Tədbirin əsas istiqamətlərindən biri də ekoloji maarifləndirmə olub. Bakı Zooloji Parkının lektoriyasında uşaqlara heyvanların həyat tərzini əks etdirən animasiyalar nümayiş etdirilib, onların biologiyası və davranış xüsusiyyətləri barədə maraqlı təqdimatlar keçirilib. Açıq hava ekskursiyası zamanı isə uşaqlar heyvanların xarici quruluşu, yaşayış mühiti və həyat şəraiti haqqında əyani məlumatlar əldə ediblər.

Təbiətə məsuliyyətli münasibətin formalaşdırılması və heyvanlara qarşı mərhəmət hissinin aşılanması məqsədilə uşaqlara bəzi heyvanlarla birbaşa təmasda olmaq, onları bəsləmək və qulluq etmək imkanı yaradılıb.

Tədbir çərçivəsində IDEA Heyvanlara Qayğı Mərkəzinin təşkilatçılığı ilə himayə guşəsi də fəaliyyət göstərib. Burada uşaqlara küçə heyvanlarına qayğı göstərməyin əhəmiyyəti barədə məlumat verilib, onlarda canlılara sevgi və məsuliyyət hissinin gücləndirilməsi təşviq olunub.

Bayram şənliyi uşaqların sevinc dolu anları, əyləncəli fəaliyyətləri və maarifləndirici proqramı ilə yadda qalıb.

## Bakı Amritsar hadisələrinə həsr olunan beynəlxalq konfransa evsahibliyi edəcək

**İyunun 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ölkəmizdə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "İyun 1984, Amritsar hadisələri: Hindistanın etnik azlıqlara qarşı transmilli repressiyaları soyqırımı kontekstində" adlı beynəlxalq konfrans keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, Hindistan hökumətinin repressiv və sistemli ayrı-seçkilik siyasətindən əziyyət çəkən Dalit icmasının nümayəndələri də ilk dəfə olaraq ölkəmizdə keçirilən tədbirlərə qatılacaqlar.

Tədbirdə həmçinin Siqh icmasının Kanada, Böyük Britaniya, Niderland, Almaniya, İsveçrə, Avstraliya və ABŞ-dəki nüfuzlu nümayəndələri, həmçinin beyin mərkəzlərinin rəhbərləri, insan hüquqları və etnik azlıqlar sahəsində fəaliyyət göstərən ekspertlər, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər iştirak edəcək.

Konfransda Hindistan hökumətinin etnik və dini azlıqlara, xüsusilə Siqh və Dalit diasporlarının nümayəndələrinə və onların ailə üzvlərinə qarşı həyata keçirdiyi transmilli repressiya və sistemli təqib siyasətinin beynəlxalq təşkilatların gündəliyində daimi saxlanılması məsələləri müzakirə olunacaq. Eyni zamanda repressiyalardan zərər çəkmiş diaspor təşkilatları arasında koordinasiyalı əməkdaşlığın gücləndirilməsi, transmilli təqiblərə qarşı ortaq hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi və beynəlxalq platformalarda birgə fəaliyyət istiqamətində fikir mübadiləsi aparılacaq.

Bununla yanaşı, 1984-cü ilin iyun ayında Amritsar hadisələri zamanı Hindistan tərəfindən siqh icmasına və onların dini-mədəni dəyərlərinə qarşı həyata keçirilmiş silahlı hücumlar, zorakılıq aktları və minlərlə günahsız insanın həlak olması faktlarına beynəlxalq səviyyədə hüquqi qiymət verilməsi və Hindistan hökumətinin etnik azlıqların hüquqları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərinə əməl etməsi məsələləri ətrafında müzakirələr aparılacaq.

1984-cü ilin iyun ayının əvvəllərindən etibarən Hindistan hökuməti tərəfindən siqh icmasının müqəddəs dini məkanlarından biri hesab edilən Amritsardakı Harmandir Sahib (Qızıl Məbəd) kompleksinə qarşı həyata keçirilmiş silahlı hücum, icmanın dini-mənəvi dəyərlərinə, ibadət azadlığına və tarixi-mədəni irsinə qarşı yönələn dövlət səviyyəsində təşkil edilmiş zorakılıq aktıdır. Beynəlxalq qeyri-hökumət təşkilatlarının hesabatları, müstəqil mənbələr və şahid ifadələri əsasında toplanmış məlumatlara əsasən, silahlı hücum nəticəsində Amritsar və ətraf şəhərlərdə 8 minə qədər mülki şəxsin həyatını itirdiyi bildirilir.

Qeyd edək ki, bu ilin mart ayında Bakı Təşəbbüs Qrupu və "Siqh Federation International" tərəfindən birgə hazırlanmış "Sərhədləri aşaraq: Siqh diasporuna qarşı Hindistanın transmilli repressiyası" adlı hesabatda Hindistan hökumətinin ölkədən kənarda yaşayan diaspor nümayəndələrinə qarşı repressiv siyasəti və 1984-cü il Amritsar hadisələri barədə faktlar öz əksini tapıb.



# Azərbaycan bu gün qlobal proseslərdə söz sahibi kimi qəbul olunur

**Müasir beynəlxalq münasibətlər sisteminin dərin transformasiyalar yaşadığı, qlobal güc balansının yenidən formalaşdığı dövrdə dövlətlərin xarici siyasət kursu onların gələcək inkişaf trayektoriyasını müəyyənləşdirən əsas amillərdən birinə çevrilib. İndiki mərhələdə uğurlu xarici siyasət yürütmək əvvəlki dövrlərlə müqayisədə daha mürəkkəb və daha məsuliyyətlidir. Çünki geosiyasi qarşıdurmalar getdikcə genişlənir, beynəlxalq gündəliyi enerji təhlükəsizliyi, nəqliyyat marşrutları, texnoloji rəqabət və regional münaqişələr müəyyənləşdirir.**

Azərbaycan son illər məhz belə mürəkkəb şəraitdə öz milli maraqlarını qorumağı, beynəlxalq mövqelərini gücləndirməyi və regional liderlik imkanlarını genişləndirməyi bacaran ölkələrdəndir. Bu prosesdə Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu xüsusi rol oynayır. Son aylar ayrı-ayrı ölkələrin dövlət və hökumət rəhbərlərinin Azərbaycana, eləcə də Azərbaycan liderinin müxtəlif ölkələrə səfərləri, müxtəlif platformalarda baş tutan çoxsaylı beynəlxalq görüşlər, dövlət və hökumət başçıları ilə aparılan məhsuldar müzakirələr, Azərbaycanın qlobal proseslərdə fəal iştirakı göstərir ki, ölkənin xarici siyasəti yeni və daha təsirli mərhələyə daxil olub. Bu mərhələnin əsas xüsusiyyəti Azərbaycanın artıq yalnız regionun deyil, ümumilikdə Avrasiya məkanının mühüm siyasi, enerji və nəqliyyat mərkəzlərindən birinə çevrilməsidir.

## Çoxvektorlu diplomatiya

Prezident İlham Əliyevin xarici siyasət kursunun ən mühüm cəhətlərindən biri balanslaşdırılmış və çoxvektorlu diplomatiya modelidir. Dünyada bir çox dövlətlər böyük güclər arasında seçim etmək məcburiyyəti ilə üzləşdiyi halda, Azərbaycan müxtəlif güc mərkəzləri ilə eyni vaxtda qarşılıqlı faydalı münasibətlər qurmağa nail olub. Son aylar ABŞ, Avropa İttifaqı, Çin, Türkiyə, həmçinin Türk Dövlətləri Təşkilatının üzvləri, Yaxın Şərq dövlətləri, Afrika ölkələri və beynəlxalq təşkilatlarla fəal diplomatik təmaslar bunun əyani göstəricisidir.

Bu ilin fevralında ABŞ-nin vitse-prezidenti Cey.Di.Vensin ölkəmizə səfəri çərçivəsində ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması Azərbaycanın Vaşinqtonla münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Eyni zamanda Avropa İttifaqı rəhbərliyi ilə keçirilən görüşlər göstərdi ki, bu qurum da Azərbaycanı regionun əsas tərəfdaşlarından biri kimi görür. Ümumiyyətlə, bu gün dünya siyasətində eyni vaxtda həm Vaşinqton, həm Brüssel, həm Ankara, həm Pekin, həm də islam dünyası ilə etibarlı münasibətlər qura bilən dövlətlərin sayı çox deyil, Azərbaycansa məhz belə ölkələrdəndir. Çünki Azərbaycanın diplomatik uğurlarının əsas amillərindən biri elə məhz müxtəlif güc mərkəzləri arasında seçim etmək deyil, onların hər biri ilə milli maraqlara uyğun əməkdaşlıq modeli formalaşdırmaq bacarığıdır. Türkiyə ilə strateji müttəfiqlik, Avropa İttifaqı ilə enerji tərəfdaşlığı, Mərkəzi Asiya ölkələri ilə inteqrasiyanın gücləndirilməsi və eyni zamanda Rusiya ilə konstruktiv dialoqun davam etdirilməsi dövlətimizin çoxşaxəli xarici siyasət kursunun uğurlu nəticələrini ortaya qoyur. Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Putinin 28 May Azərbaycanın Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubu da şimal qonşumuzla münasibətlərin gələcək inkişafına dair mühüm siyasi mesajlar ehtiva edir. Məktubdakı mesajlar regiondakı yeni tarixi reallıqlar fonunda rəsmi Moskvanın Azərbaycanla münasibətləri strateji müstəvidə saxlamaq ehtiyacını və niyyətini açıqlayır. Azərbaycan isə öz milli maraqlarını qətiyyətlə müdafiə etməklə yanaşı, bütün qonşuları ilə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurmağa çalışır. Rusiya ilə əlaqələrin də məhz bu prinsip əsasında inkişaf etdirilməsi Bakının xarici siyasət fəlsəfəsinin mühüm elementidir.

## Enerji-kommunikasiya diplomatiyası yeni geosiyasi alət kimi

Azərbaycanın beynəlxalq nüfuzunun artmasında enerji diplomatiyası mühüm rol oynayır. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində strateji tərəfdaşa çevrilib. Son aylar keçirilən görüşlərdə bu amilin rolu aparıcıdır. Avropa İttifaqı rəhbərliyi ilə danışıqlarda Azərbaycanın Avropanın 10-dan çox ölkəsinə qaz ixrac etməsi xüsusi qeyd olunur. Daha sonra Almaniya və Avstriyanın da Azərbaycan qazı alan ölkələr sırasına qoşulması bu prosesin genişlənməkdə olduğunu göstərir.

Burada bir məqamı da vurğulamaq lazımdır: enerji artıq təkcə iqtisadi gəlir mənbəyi deyil, enerji ixracı Azərbaycanın siyasi təsir imkanlarını artıran mühüm diplomatik alətə çevrilib. Məhz buna görə Slovakiya, Bolqarıstan, İtaliya, Gürcüstan və digər ölkələrin dövlət rəsmiləri ilə keçirilən görüşlərdə enerji əməkdaşlığı əsas mövzulardan biri kimi müzakirə olunur. Prezident İlham Əliyevin formalaşdırdığı enerji strategiyası Azərbaycanın etibarlı tərəfdaş imicini daha da gücləndirir. Bu gün Avropada enerji təhlükəsizliyi ilə bağlı hər hansı ciddi müzakirə Azərbaycan amili nəzərə alınmadan aparılmır.

Ölkəmizin xarici siyasətində nəqliyyat və logistika istiqaməti də xüsusi yer tutur. Azərbaycan artıq Şərqlə Qərbi birləşdirən əsas nəqliyyat qovşaqlarından birinə çevrilməkdədir. Gürcüstanla imzalanan yeni sazişlər, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin genişləndirilməsi, Orta dəhlizin inkişafı istiqamətində atılan addımlar, perspektivli TRIPP layihəsinin reallaşdırılmasına doğru irəliləyişlər göstərir ki, Azəbaycan enerji mərkəzi olmaqla yanaşı, logistika mərkəzi rolunu da gücləndirir və qlobal ticarət marşrutlarının yenidən formalaşdığı dövrdə bu istiqamət Azərbaycanın strateji əhəmiyyətini daha da artırır.

## Türk dünyasının inteqrasiyasında Azərbaycanın rolu

Azərbaycanın xarici siyasət gündəliyində xüsusi yer tutan istiqamətlərdən biri də türk dünyası ilə əlaqələrin daha da dərinləşdirilməsidir. Bu xətt məqsədyönlü strategiyaya əsaslanır. Tarixi, mədəni, o cümlədən dil birliyi ilə bir-birinə sıx bağlı olan türk xalqlarının müasir dövrdə vahid əməkdaşlıq məkanında birləşməsi son onilliklərdə Azərbaycanın xarici siyasət prioritetlərindən biri kimi formalaşıb. Prezident İlham Əliyevin irəli sürdüyü və artıq beynəlxalq siyasi leksikona daxil olan "Türk ailəsi" konsepsiyası konkret layihələr və təşəbbüslərlə müşayiət olunan strateji fəaliyyət proqramına çevrilib.

Bu gün Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən əməkdaşlıq sənaye, nəqliyyat, logistika, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya, təhsil və digər bir çox sahələri əhatə edir. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə reallaşdırılan Orta dəhliz layihəsi Avropa ilə Asiyanı birləşdirən ən perspektivli nəqliyyat marşrutlarından biri kimi türk dünyasının geoiqtisadi əhəmiyyətini artırır. Bakı-Tbilisi-Qars dəmir yolu, Xəzər dənizi üzərindən daşımaların genişləndirilməsi, enerji və kommunikasiya layihələri türk dövlətlərini ortaq tarix, mədəniyyət qədər həm də müasir iqtisadi münasibətlərlə bir-birinə sıx bağlayır.

Azərbaycanın türk dünyasının inteqrasiyasında oynadığı rol çox geniş spektri əhatə edir və ölkəmiz türk xalqlarının ortaq tarixi yaddaşının, mədəni irsinin, elmi ənənələrinin qorunması, təbliği istiqamətində də mühüm missiya həyata keçirir. Bu baxımdan, I Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə 2026-cı ilin iyununda Bakıda keçiriləcək Türk Dünyası Həftəsi xüsusi əhəmiyyət daşıyır. Türk xalqlarının elmi və mədəni birliyinin formalaşmasında mühüm rol oynamış I Türkoloji Qurultay türk xalqlarının intellektual tarixində dönüş nöqtələrindən sayılır. Həmin qurultayda müxtəlif türk respublikalarından, eləcə də dünyanın bir sıra ölkələrindən tanınmış alimlər iştirak etmiş, ortaq əlifba, dilçilik, tarix, ədəbiyyat və mədəni irs məsələləri müzakirə olunmuşdu. Qurultay türk xalqlarının elmi fikir tarixində ilk genişmiqyaslı platforma olmaqla yanaşı, ortaq mədəni məkan ideyasının da əsasını qoymuşdu. Bir əsr sonra həmin tarixi hadisənin yubileyinin yenidən Bakıda qeyd olunması Azərbaycanın türk dünyasının mənəvi və intellektual mərkəzlərindən biri kimi rolunun daha bir təsdiqidir.

Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Türküstan şəhərində keçirilən qeyri-rəsmi Zirvə görüşündə qeyd etdiyi kimi, I Türkoloji Qurultayın 100 illiyinə həsr olunan Türk Dünyası Həftəsinin keçirilməsi xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək. Bu təşəbbüs təkcə keçmişə ehtiram deyil, həm də gələcəyə yönəlmiş strateji mesajdır. Çünki müasir dövrdə türk dünyasının gücü yalnız iqtisadi göstəricilər və siyasi əlaqələrlə deyil, ortaq tarixi yaddaşın, mədəni kimliyin və mənəvi dəyərlərin qorunması ilə də ölçülür.

Beləliklə, Azərbaycan bu gün türk dünyasını birləşdirən coğrafi körpü olmaqla yanaşı, onun siyasi koordinasiya, iqtisadi əməkdaşlıq və mədəni inteqrasiya mərkəzlərindən biri kimi çıxış edir. Son aylar müşahidə olunan diplomatik fəallıq da göstərir ki, Bakı türk dünyasının gələcək inkişaf gündəliyinin formalaşdırılmasında aparıcı rolunu daha da möhkəmləndirmək niyyətindədir. Bu isə Azərbaycanın regional liderlik mövqeyini gücləndirməklə yanaşı, bütövlükdə türk dünyasının qlobal sistemdə daha təsirli aktora çevrilməsinə xidmət edir.

## Azərbaycanın artan nüfuzu

Son ayların ən mühüm xarici siyasət tendensiyalarından biri də Azərbaycan-Çin münasibətlərində müşahidə olunan sürətli inkişafdır. Dövlət rəsmilərinin bəyanatları və keçirilən görüşlər göstərir ki, rəsmi Pekin Azərbaycanı mühüm tərəfdaş kimi qəbul edir. Tərəflər arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi isə müasir tarixi reallıqlardan irəli gələn qanunauyğunluqdur. Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə mühüm yer tutması, Orta dəhlizin inkişafında əsas iştirakçılardan biri olması və tranzit potensialının getdikcə genişlənməsi bu əməkdaşlığın iqtisadi əsaslarını möhkəmləndirir. Prezident İlham Əliyevin Çinlə münasibətlərdə nümayiş etdirdiyi fəallıq Azərbaycanın qlobal iqtisadi proseslərə daha sıx inteqrasiyasına xidmət göstərir.

Son aylardakı görüşlər, səfərlər onu təsdiqləyir ki, Azərbaycanın Yaxın Şərq və islam dünyasındakı mövqeləri də getdikcə əhəmiyyətli dərəcədə möhkəmlənməkdədir. Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, Suriya, eləcə də İslam İnkişaf Bankı ilə aparılan danışıqlar bu istiqamətdə yeni imkanlar açır. Xüsusilə BƏƏ ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, bərpaolunan enerji sahəsində birgə layihələr və investisiya əməkdaşlığı Azərbaycanın Körfəz regionundakı rolunu artırır. Pakistanla münasibətlər isə artıq sadəcə dostluq deyil, strateji tərəfdaşlıq xarakteri daşıyır. Xüsusilə, Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq formatının inkişafı regionda yeni geosiyasi platformanın formalaşdığını göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin son aylardakı xarici siyasət fəaliyyətinin ən mühüm istiqamətlərindən biri də tarixi qələbəmizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra Ermənistanla münasibətlərin normallaşma prosesidir. Azərbaycan liderinin irəli sürdüyü və addım-addım uğurla irəli apardığı sülh gündəliyi beynəlxalq səviyyədə dəstəklənir, ölkəmiz yalnız hərbi qələbənin sahibi kimi deyil, sülh gündəliyinin təşəbbüskarı statusu ilə də tanınır. Ermənistana gedən tranzit yüklərlə bağlı məhdudiyyətlərin aradan qaldırılması, ilkin iqtisadi münasibətlərin formalaşması, beynəlxalq platformalarda dialoqun davam etdirilməsi bunun göstəricilərindəndir. Bu siyasət Azərbaycanın beynəlxalq imicinə mühüm müsbət təsir göstərir və ölkəmizin regionun gələcəyini müəyyənləşdirən əsas siyasi aktora çevrildiyini nümayiş etdirir.

## Qlobal müzakirələrin təşkilatçısı

BMT-nin Məskunlaşma Proqramının bu ilin mayında Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) isə bir daha nümayiş etdirdi ki, Azərbaycan qlobal müzakirələrin təkcə fəal iştirakçısı yox, həm də təşkilatçılarından biridir. COP29-dan sonra WUF13-ün uğurla keçirilməsi ölkəmizin beynəlxalq təşkilatçılıq potensialını növbəti dəfə nümayiş etdirdi. Dünyanın müxtəlif regionlarından dövlət başçılarının, nazirlərin və beynəlxalq təşkilat rəhbərlərinin Bakıya gəlməsi Azərbaycanın beynəlxalq nüfuzunun artmasının göstəricisidir.

Son ayların diplomatik mənzərəsi göstərir ki, bu gün Azərbaycan Cənubi Qafqazdan daha geniş coğrafiyanın diplomatik platformalarından birinə çevrilməkdədir. Prezident İlham Əliyevin xarici siyasət kursu Azərbaycanı beynəlxalq münasibətlər sistemində yeni mövqeyə çıxarıb. Ölkəmiz Qərblə Şərq arasında etibarlı körpü, Avropa üçün mühüm enerji təminatçısı, türk dünyasının aparıcı üzvlərindən biri, Çin üçün vacib tranzit qovşağı, islam dünyasında nüfuz sahibi və Cənubi Qafqazda sülh prosesinin əsas təşəbbüskarı kimi çıxış edir. Əgər bir neçə il əvvəl Azərbaycanın əsas xarici siyasət prioriteti ərazi bütövlüyünün bərpası idisə, bu gün ən önəmli vəzifə əldə edilmiş geosiyasi üstünlüklərin siyasi və iqtisadi dividendlərə çevrilməsidir. Prezident İlham Əliyevin xarici siyasət xətti Azərbaycanın bu məqsədə doğru ardıcıl və sistemli şəkildə irəlilədiyini nümayiş etdirir. Xarici siyasətin müxtəlif istiqamətlərində əldə olunan nəticələr ölkəmizin beynəlxalq nüfuzunun getdikcə artdığını, diplomatik imkanlarının genişləndiyini və qlobal proseslərdə söz sahibinə çevrildiyini nümayiş etdirir. Mövcud tendensiyalar davam edərsə, yaxın illərdə Azərbaycanın yalnız regionun deyil, Avrasiya məkanının ən mühüm siyasi, iqtisadi və nəqliyyat mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirəcəyi şübhəsizdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bakı-Tbilisi-Bakı sərnişin qatarının fəaliyyəti turizmin inkişafına yeni dinamika gətirəcək



**Mayın 26-dan Bakı-Tbilisi-Bakı marşrutu üzrə sərnişin qatarının fəaliyyəti bərpa edilir. Beləliklə, bu tarixdən Azərbaycan-Gürcüstan vətəndaşları dəmir yolu vasitəsilə səfər edə biləcəklər. Dəmir yolu ilə sərnişin daşımalarının bərpası iki qonşu ölkə arasında münasibətlərin inkişafından xəbər verir. Bu qərar eyni zamanda Azərbaycanla Gürcüstan arasında turist axınlarını intensivləşdirməklə, turizm sektorunun inkişafına təkan verəcək.**

**Milli Məclisin deputatı Göydəniz QƏHRƏMANOV** qəzetimizə açıqlamasında bildirib ki, uğurlu regional əməkdaşlıq siyasəti nəticəsində Bakı-Tbilisi-Bakı qatar xəttinin yenidən fəaliyyətə başlaması və Azərbaycan vətəndaşlarının Gürcüstana giriş-çıxışı ilə bağlı imkanların genişləndirilməsi turizm sektoru üçün mühüm addım hesab olunur. Onun sözlərinə görə, bu qərar həm iki ölkə arasında turist axınının artmasına, həm də regionda iqtisadi və mədəni əlaqələrin daha da güclənməsinə xidmət edəcək.

Deputat qeyd edib ki, uzun illərdir Azərbaycan və Gürcüstan arasında formalaşmış turizm əlaqələri hər iki ölkənin iqtisadiyyatına mühüm töhfə verib: "Gürcüstan azərbaycanlı turistlərin ən çox səfər etdiyi istiqamətlərdən biri olduğu kimi, Azərbaycan da Gürcüstan vətəndaşları üçün maraqlı turizm mərkəzlərindən hesab olunur. Dəmir yolu əlaqəsinin yenidən açılması daha sərfəli, rahat və təhlükəsiz səyahət imkanları yaradaraq turist axınının artmasına səbəb olacaq. Bakı-Tbilisi qatar marşrutu həm klassik səyahət ənənələrini yaşadan, həm də regionun turizm potensialını birləşdirən xüsusi nəqliyyat xəttidir".

G.Qəhrəmanov vurğulayıb ki, qatar səyahəti insanlar üçün yalnız bir nəqliyyat vasitəsi deyil, həm də marşrut boyunca bölgələrin təbiətini, mədəniyyətini və əhalinin həyat tərzini müşahidə etmək imkanı yaradan fərqli turizm təcrübəsidir. Bu baxımdan sözügedən xəttin fəaliyyətə başlaması regional turizm paketlərinin hazırlanmasına da yeni imkanlar açır. "Eyni zamanda bu addım Azərbaycanın regionun əsas turizm və nəqliyyat mərkəzlərindən biri kimi mövqeyini daha da gücləndirir. Bakı ilə Tbilisi arasında yenidən canlanan dəmir yolu əlaqəsi Cənubi Qafqazda turizmin inkişafına yeni dinamika qazandıracaq", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın qlobal proseslərə təsir imkanları genişlənib



**Prezident İlham Əliyev "Euronews" televiziyasına verdiyi müsahibədə həm Ümumdünya Şəhərsalma Forumunun (WUF13) Bakıda keçirilməsinin əhəmiyyəti, həm də Azərbaycanın enerji təhlükəsizliyi, dayanıqlı inkişaf və beynəlxalq əməkdaşlıq istiqamətində roluna toxundu. Bakının növbəti dəfə mötəbər beynəlxalq tədbirə uğurla evsahibliyi etməsini Azərbaycanın beynəlxalq etimadının göstəricisi kimi qiymətləndirdi.**

**Milli Məclisin deputatı Nigar MƏMMƏDOVA** qəzetimizə açıqlamasında qeyd edib ki, forumda 182 ölkənin təmsil olunması Azərbaycana göstərilən etimadın və marağın bariz nümunəsidir. Müsahibədə diqqətçəkən əsas məqamlardan biri Azərbaycanın müasir şəhərsalma və dayanıqlı inkişaf konsepsiyasına verdiyi töhfələr oldu. "Cənab Prezident işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin dünyada nümunəvi model kimi təqdim olunduğunu bildirdi. Bu siyasət ekoloji təhlükəsizlik, "yaşıl enerji" və innovativ idarəetmə prinsiplərinin tətbiqi deməkdir. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzuru müasir urbanizasiya məkanına çevirmək niyyəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm hissəsidir", - deyə o əlavə edib.

Deputat deyib ki, Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində balanslaşdırılmış siyasətinə də diqqət çəkib. Əsas mesaj bundan ibarətdir ki, Azərbaycan milli maraqlar əsasında çoxtərəfli əməkdaşlıq modelini uğurla həyata keçirir. Xüsusilə COP29-dan sonra ölkəmizin beynəlxalq diplomatiyada artan fəallığı Azərbaycanın qlobal proseslərə təsir imkanlarını genişləndirib.

N.Məmmədovanın fikrincə, müsahibənin mühüm istiqamətlərindən biri də enerji təhlükəsizliyi ilə bağlı idi: "Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təminatında strateji tərəfdaş olduğunu xüsusi vurğuladı. Qeyd etdi ki, bu gün Azərbaycanın təbii qazı bir sıra Avropa ölkələrinin enerji təhlükəsizliyində mühüm rol oynayır. Hazırda Azərbaycan təbii qazını 16 ölkəyə ixrac edir. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Enerji diplomatiyasının uğurlu nəticələri Azərbaycanın beynəlxalq etibarlı tərəfdaş imicini daha da möhkəmləndirib".

Dövlət başçısının dəyişən dünya nizamına da toxunduğunu qeyd edən N.Məmmədova deyib ki, beynəlxalq münasibətlər sistemi yeni mərhələyə daxil olub və hər bir dövlət öz milli maraqlarını qorumalıdır. Bu kontekstdə Azərbaycanın müstəqil siyasət yürütməsi və müxtəlif güc mərkəzləri ilə qarşılıqlı hörmət əsasında münasibətlər qurması ölkəmizin strateji uğurlarının əsas səbəblərindən biridir. Azərbaycan artıq regional gündəmi müəyyən edən əsas dövlətlərdən biridir. Getdikcə daha da mürəkkəbləşən beynəlxalq mühitdə Azərbaycanın strateji vizyonu beynəlxalq ictimaiyyət tərəfindən də təqdir olunur.

***Əsmər QABİLQIZI,***
***"Azərbaycan"***

# Azərbaycan enerji sahəsində qlobal əməkdaşlığın vacib iştirakçısıdır

## "Bakı Enerji Həftəsi" bunu bir daha təsdiqləyir

**Texniki və texnoloji tərəqqinin sürətlə inkişaf etdiyi bir dövrdə yaşayırıq. Sosial-iqtisadi mühitin dinamik şəkildə dəyişdiyi müasir dünyada enerji təhlükəsizliyi anlayışı da yeni və daha geniş məzmun qazanır.**

Bu anlayışın müxtəlif tərifləri mövcud olsa da, enerji siyasətini araşdıran əksər tədqiqatlar göstərir ki, enerji təhlükəsizliyi yalnız enerji təchizatının etibarlılığı ilə məhdudlaşmır. O, enerji səmərəliliyini, iqtisadi dayanıqlılığı, ekoloji məsuliyyəti və iqlim dəyişiklikləri ilə mübarizəni özündə birləşdirən çoxşaxəli bir məfhumdur.



**Milli Məclisin deputatı Azər BADAMOV** qəzetimizə açıqlamasında deyib ki, enerji sektorunda yeni tendensiyalar formalaşır və həmin dəyişikliklər enerji təhlükəsizliyinə daha geniş və hərtərəfli yanaşmanı zəruri edir: "Artıq enerji təhlükəsizliyi dedikdə yalnız enerji resurslarının əlçatanlığı deyil, həm də enerji səmərəliliyi standartları, ətraf mühitin qorunması və dayanıqlı inkişaf prinsipləri nəzərdə tutulur. Enerji təhlükəsizliyi ilə iqlim dəyişiklikləri arasında sıx əlaqə mövcuddur. Bu iki amil gələcəyin enerji siyasətinin əsas hərəkətverici qüvvələri hesab edilir. Enerji təhlükəsizliyi uzun illərdir enerji siyasətinin əsas sütunlarından biri olsa da, iqlim dəyişiklikləri ilə bağlı narahatlıqlar son dövrlərdə daha da aktuallaşmış və qlobal enerji siyasətinin istiqamətini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Dövlətlər hazırda iki mühüm çağırışla üz-üzədirlər: bir tərəfdən enerji sistemlərinin etibarlılığını təmin etmək, digər tərəfdən isə istixana qazı emissiyalarını azaltmaq. Bu məqsədlərə eyni vaxtda nail olmaq asan deyil, ona görə də yeni yanaşmaların, innovativ həllərin və uzaqgörən siyasətin formalaşdırılması vacibdir".

Deputat qeyd edib ki, təmiz və rəqabətqabiliyyətli enerji sistemlərinin qurulması yeni baxış və strategiyalar tələb edir. Enerji təhlükəsizliyi və iqlim dəyişikliklərinin səbəblərinin düzgün təhlili, həmçinin bu problemlərin həlli üçün müasir yanaşmaların tətbiqi böyük əhəmiyyət daşıyır. Bu baxımdan bərpaolunan enerji mənbələrinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bərpaolunan enerji həm enerji ehtiyatlarının qorunmasına, həm də enerji təchizatının davamlılığının təmin edilməsinə mühüm töhfə verir. Buna görə də bu sahəyə münasibət köklü şəkildə yenilənməli və gələcəyin enerji siyasətinin əsas istiqamətlərindən birinə çevrilməlidir. "Müasir sənaye sahələrinin fəaliyyəti etibarlı və əlverişli enerji təchizatından asılıdır. Elektrik enerjisində baş verən fasilələr istehsal avadanlıqlarına zərər vura, məhsuldarlığı azalda və iqtisadi itkilərə səbəb ola bilər. Eyni zamanda enerji qiymətlərindəki qeyri-sabitlik mal və xidmətlərin maya dəyərinə birbaşa təsir göstərir. Qida sənayesi də enerji təhlükəsizliyindən birbaşa asılıdır. Müasir kənd təsərrüfatı texnikasının işləməsi, gübrə istehsalı, məhsulların daşınması və saxlanılması enerji resursları tələb edir. Qida məhsullarının xarab olmamasını təmin etmək üçün də fasiləsiz enerji təchizatı vacibdir. Enerji təchizatındakı problemlər səhiyyə sisteminə də ciddi təsir göstərə bilər. Xəstəxanaların və tibb müəssisələrinin fəaliyyəti etibarlı enerji təminatından asılıdır. Bu isə birbaşa insan həyatı və sağlamlığı məsələsidir", - deyə o əlavə edib.

A.Badamov bildirib ki, enerji sektoruna yönələn təhdidlər təbii fəlakətlər, texnoloji qəzalar və ya insan fəaliyyəti nəticəsində yarana bilər. Buna görə də enerji təhlükəsizliyi məsələsi bəşəriyyət tərəfindən son dərəcə ciddi qəbul edilməlidir. Enerji təhlükəsizliyinə malik dövlətlər riskləri qabaqlamaq, azaltmaq və dəyişən şəraitə uyğunlaşmaq imkanına sahib olurlar.

Deputat vurğulayıb ki, Azərbaycanın enerji siyasəti bu baxımdan xüsusi diqqətəlayiqdir: "Prezident İlham Əliyev enerji təhlükəsizliyini qlobal səviyyədə mühüm çağırış kimi dəyərləndirir və bu istiqamətdə ardıcıl siyasət həyata keçirir. Azərbaycan liderinin rəhbərliyi ilə ölkəmiz yalnız öz enerji təhlükəsizliyini təmin etmir, həm də regionun və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir. "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən beynəlxalq tədbirlər bir daha göstərir ki, Azərbaycan enerji sahəsində qlobal əməkdaşlığın vacib iştirakçılarından biridir. Dövlət başçısı çıxışında vurğuladı ki, müasir dünyada qazıntı yanacaqları hələ də mühüm rol oynayır. Bununla yanaşı, planetimizin qorunması, ekoloji tarazlığın saxlanılması və daha təmiz ətraf mühitin formalaşdırılması istiqamətində qlobal səylər davam etdirilməlidir".

O bildirib ki, Azərbaycanın iqtisadi göstəriciləri ölkənin uğurlu inkişaf modelini nümayiş etdirir. Yoxsulluğun azalması, maliyyə sabitliyinin möhkəmlənməsi və xarici borcun idarəolunan səviyyədə saxlanılması bu uğurların əsas göstəricilərindəndir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm tərəfdaş kimi çıxış edir. Vaxtilə xarici sərmayələrin cəlb olunması üçün böyük səylər göstərən ölkəmiz hazırda investisiya baxımından cəlbedici məkana çevrilib. Azərbaycanın enerji şirkətləri artıq müxtəlif regionlarda, o cümlədən Yaxın Şərq, Afrika və Mərkəzi Asiyada uğurla fəaliyyət göstərirlər. Nəqliyyat və kommunikasiya infrastrukturunun inkişafı da ölkəmizin strateji prioritetləri sırasındadır. Bu istiqamətdə həyata keçirilən layihələr regionun iqtisadi inteqrasiyasına və enerji əməkdaşlığının genişlənməsinə xidmət edir.

A.Badamov Azərbaycanın müasir enerji siyasətinin təməlinin Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu xatırladaraq, Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində imzalanmış "Əsrin müqaviləsi"nin ölkənin enerji strategiyasının əsasını təşkil etdiyini vurğulayıb: "Bu siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan bərpaolunan enerjiyə və aşağıkarbonlu texnologiyalara böyük investisiyalar yatırır. İşğaldan azad edilmiş ərazilərin "yaşıl enerji zonası" elan olunması və burada müasir enerji layihələrinin həyata keçirilməsi ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm hissəsidir".

Deputat yekunda əlavə edib ki, "Bakı Enerji Həftəsi" enerji sahəsində dialoqun genişləndirilməsi, yeni təşəbbüslərin irəli sürülməsi və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından mühüm platformadır. Bu tədbir bir daha nümayiş etdirdi ki, Azərbaycan enerji resurslarına yalnız iqtisadi vasitə kimi deyil, beynəlxalq əməkdaşlığın, qarşılıqlı etimadın və davamlı inkişafın mühüm elementi kimi yanaşır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# AÇG-dən sərbəst təbii qazın hasilatına başlandı

## 30 ilə yaxındır neft verən bu nəhəng blokun indi yeni səhifəsi açılır

**Xəzərin Azərbaycan sektorunda yerləşən, dünyanın ən böyük neft yataqları bloklarından olan "Azəri-Çıraq-Günəşli"dən (AÇG) sərbəst təbii qaz (STQ) hasilatı əməliyyatlarına başlanıb. Bu barədə AÇG-nin işlənməsi operatoru olaraq BP şirkəti layihədəki tərəfdaşları - SOCAR, MOL, INPEX, "ExxonMobil", TPAO və "ONGC Videsh" adından məlumat yayıb.**

Mövcud "Qərbi Çıraq" platformasından qazılmış ilk STQ quyusu AÇG-nin irihəcmli sərbəst təbii qaz ehtiyatları potensialının açılması istiqamətində atılan ilk mühüm addımdır. İlkin hasilatla yanaşı, bu quyu lay-kollektor və axın haqqında vacib məlumatlar əldə olunmasını təmin etməklə gələcək tammiqyaslı işlənmə planları üçün qaz ehtiyatlarının qiymətləndirilməsinə kömək göstərir.

AÇG blokunun STQ ehtiyatlarının iri həcmdə - təxminən 4 trilyon kubfut çıxarıla bilən ehtiyatlar və bunun da 6 trilyon kubfutadək artmaq imkanı olduğu proqnozlaşdırılır.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bu barədə belə deyib: "Bu gün Azərbaycan və AÇG tərəfdaşları üçün çox böyük bir gündür. AÇG-nin uzun və uğurlu bir tarixi var. Artıq 30 ilə yaxın neft hasil edən bu yataq indi də yeni səhifə açmaqla ölkə və öz investorları üçün dəyər gətirmək potensialını hələ də saxlayır. Neftlə yanaşı, qaz hasilatı dövrünü başlamaqla AÇG indi inteqrasiya olunmuş həm neft, həm də qaz yatağı kimi xüsusi bir mövqeyə malik bir yataq olaraq regional sənayedə aparıcı rol oynayacaq, Azərbaycanın Avropaya enerji təchizatını artırmaq planlarına töhfə verəcək və ölkənin enerji keçidi istiqamətində səylərini dəstəkləyəcək".

Qeyd edək ki, AÇG-də ilk STQ hasilatı əməliyyatları ötən il qazılmış və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layını - daha dayaz Qırmakıüstü Qumlu və daha dərin Qırmakıaltı Qumlu lay dəstlərini hədəfləyən ilk hasilat quyusunda başlanıb. Quyu Qırmakıüstü Qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləmiş, Qırmakıaltı Qumlu lay dəstində isə yüksəktəzyiqli qaz ehtiyatlarının olduğunu aşkar etmişdir.

İlk STQ hasilatı əməliyyatları Qırmakıaltı Qumlu lay dəstində başlanıb və ilkin dövr hasilatı olmaqla yanaşı, həmçinin quyuda və lay dəstində sınaq işlərinin aparılmasını da əhatə edir. Quyudan çıxarılan qaz və kondensat karbohidrogenlərin işlənməsi sistemlərinin inteqrasiyası yolu ilə mövcud AÇG infrastrukturundan istifadə etməklə Səngəçal terminalına göndəriləcək. Bu zaman mövcud dəniz obyektlərindən səmərəli istifadə olunacaq.

Xatırladaq ki, sözügedən sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatına imkan verən AÇG üzrə mövcud hasilatın pay bölgüsü haqqında sazişə (HPBS) əlavə 2024-cü il sentyabrın 20-də elan edilib. STQ layları hazırda hasilatda olan neft laylarının altında və üstündə yerləşən çoxsaylı geoloji formasiyalardan ibarətdir ki, bunlar mövcud AÇG HPBS-yə əvvəldən daxil edilməmişdi.

HPBS-yə əlavə sənədi 2049-cu ildə AÇG üzrə mövcud sazişin müddətinin sonunadək qüvvədə olacaq. Növbəti 23 il ərzində STQ ehtiyatlarının kəşfiyyatı və qiymətləndirilməsindən asılı olaraq AÇG-də onların işlənməsinə milyardlarla dollar sərmayə qoyulması potensialı var.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanın uğurlu tərəfdaşlıq modeli

## Ölkəmiz qlobal enerji təhlükəsizliyinin təminatında strateji önəmə və əhəmiyyətli mövqeyə malikdir

**1990-cı illərin çətin şəraitində kiçik bir təşəbbüs kimi başlayan Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin bu gün genişmiqyaslı "Bakı Enerji Həftəsi"nə çevrilməsi Azərbaycanın iqtisadi müstəqilliyinin və qlobal nüfuzunun bariz göstəricisidir. ABŞ, Türkiyə və Böyük Britaniya kimi dövlətlərin liderlərinin bu tədbirə rəsmi məktub göndərməsi də Bakının qlobal enerji arxitekturasını formalaşdıran mühüm mərkəzlərdən biri olduğunu beynəlxalq səviyyədə təsdiqləyir. Bu məktublar tədbirə verilən siyasi dəstəyin və etimadın ən bariz nümunəsidir.**

İyunun 1-də Azərbaycan Prezidenti İlham Əliyev 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışı zamanı bu məqama xüsusi toxundu. Dövlətimizin başçısı vurğuladı ki, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu: "Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır".

Prezident İlham Əliyev qeyd edib ki, bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub: "Bu bir daha göstərir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində, həqiqətən, aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm. Enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar".

Dövlətimizin başçısının ABŞ Prezidenti Donald Trampın real enerji xəttini təqdir etməsi ölkəmizin beynəlxalq münasibətlərdə hər zaman rasional tərəfdaşlığa üstünlük verdiyini göstərir. Dövlət başçıları arasındakı birbaşa məktublaşmalar və səmimi dialoq şəxsi diplomatiyanın gücünü nümayiş etdirir. Bu münasibətlər Azərbaycanın xarici siyasətdə çevik olduğunu, böyük güclərlə qarşılıqlı hörmət və milli maraqlar çərçivəsində strateji tərəfdaşlıq qura bildiyini sübut edir.

Məlum olduğu kimi, son illərdə karbohidrogen resurslarına qarşı aparılan təbliğat "yaşıl keçid" adı altında sənayenin damğalanması qlobal enerji böhranlarına yol açmışdı. Burada ən mühüm tezis praqmatizmdir. Bu, ənənəvi enerjini tamamilə rədd etmək yox, onun gəlirləri ilə bərpaolunan enerjiyə investisiya qoymaq deməkdir. Azərbaycan məhz bu balansı qoruyan model yaradıb. Ölkəmiz həm Avropanın qaz təhlükəsizliyini təmin edir, həm də regionun "yaşıl enerji" mərkəzinə çevrilir.

Xüsusilə son illərdə yaşanan qlobal geosiyasi böhranlar və təchizat riskləri fonunda Azərbaycan Avropa İttifaqı (Aİ) üçün ən etibarlı alternativ qaz mənbəyinə çevrilib. "Cənub qaz dəhlizi" vasitəsilə qitənin enerji xəritəsi yenidən formalaşır. Azərbaycan ötən il Avropa İttifaqının boru kəməri ilə qaz idxalının təxminən 8,1 faizini təkbaşına təmin edib. Hazırda ölkəmiz qlobal miqyasda 20-dən çox ölkəyə neft, 16 ölkəyə isə təbii qaz ixrac edərək strateji tərəfdaşlıq şəbəkəsini genişləndirir.

Prezident İlham Əliyev çıxışında bu məsələyə də münasibət bildirib. Dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu gün Avropa enerji bazarının "Cənub qaz dəhlizi" olmadan necə olacağını təsəvvür etmək çətindir: "Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada - "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq".

Müasir dövrdə enerji gücü həm də təhlükəsiz marşrutlar və regional bağlantılar yaratmaq qabiliyyəti ilə ölçülür. Azərbaycan Xəzər regionunu kəsişən logistik marşrutların mərkəzinə çevirərək, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin təhlükəsizliyini təmin edir. Bu tranzit imkanları resursların qlobal bazarlara fasiləsiz və siyasi risklərdən uzaq şəkildə çatdırılmasına zəmanət verir.

Nəticə etibarilə "Bakı Enerji Həftəsi" və onun çərçivəsində səsləndirilən bəyanatlar Azərbaycanın qlobal enerji siyasətindəki mərkəzi rolunu bir daha təsdiqləyir. Ölkəmiz populist şüarlardan uzaq, milli maraqlara və praqmatizmə əsaslanan balanslı xəttilə həm ənənəvi karbohidrogen sənayesini qoruyur, həm də gələcəyin "yaşıl enerji" ekosistemini uğurla inşa edir. Tədbirə verilən yüksək siyasi dəstək Bakının qərarlarının beynəlxalq miqyasda daşıdığı çəkini və şəxsi diplomatiyanın gücünü nümayiş etdirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Rəqabət kəskinləşir, qarşılıqlı ittihamlar artır

## Ermənistandakı seçki prosesi getdikcə daha dramatik hal alır

**Ermənistanda parlament seçkilərinə artıq sayılı günlər qalır və son həftələrdə müşahidə olunan proseslər göstərir ki, bu seçkilər təkcə hakimiyyət uğrunda siyasi mübarizə deyil, həm də ölkənin gələcək geosiyasi kursunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Seçkiqabağı kampaniya son mərhələsinə yaxınlaşdıqca siyasi rəqabət daha da kəskinləşir, hakimiyyət və müxalifət arasında qarşılıqlı ittihamlar artır, cəmiyyət daxilində isə müxtəlif siyasi baxışların toqquşması daha aydın şəkildə özünü göstərir.**



**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, mövcud siyasi mənzərə Ermənistan cəmiyyətinin növbəti dəfə mühüm seçim qarşısında olduğunu deməyə əsas verir: "Bu seçkilər yalnız parlamentdə qüvvələr nisbətinin müəyyənləşdirilməsi ilə yekunlaşmayacaq, eyni zamanda ölkənin xarici siyasət prioritetlərinin, regional əməkdaşlıq imkanlarının və təhlükəsizlik strategiyasının gələcək istiqamətlərinə də təsir göstərəcək. Məhz buna görə də seçki kampaniyasının əsas müzakirə mövzuları sırasında Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, sülh sazişinin perspektivləri, regionda kommunikasiya xətlərinin açılması və Ermənistanın beynəlxalq tərəfdaşları ilə münasibətləri xüsusi yer tutur. Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Mülki Müqavilə" partiyası seçki kampaniyasını əsasən sülh gündəliyi, Azərbaycanla münasibətlərin normallaşdırılması, kommunikasiyaların açılması və Qərblə inteqrasiyanın gücləndirilməsi üzərində qurur. Ancaq müxalifət Paşinyanı Qarabağ məsələsində güzəştlərdə ittiham edir və daha sərt siyasi xətt tələb edir".

Kamran Bayramov hesab edir ki, son aylarda Ermənistan daxilində hökumətlə erməni Apostol kilsəsi arasında yaşanan gərginlik də seçki prosesinin mühüm elementlərindən birinə çevrilib. Kilsə ətrafında baş verən qarşıdurmalar, bəzi din xadimləri və müxalif dairələrlə bağlı hüquqi proseslər ölkədə daxili siyasi mübarizənin daha da sərtləşdiyini göstərir. Bu amil seçkilər ərəfəsində cəmiyyət daxilində əlavə parçalanma yaradan faktor kimi çıxış edir. Ermənistanın xarici siyasət istiqaməti də seçki kampaniyasının əsas mövzularındandır. "ABŞ və Ermənistan arasında strateji tərəfdaşlıq sənədlərinin imzalanması, həmçinin Rusiya ilə münasibətlərdə müşahidə olunan gərginlik seçkilərin geosiyasi əhəmiyyətini artırır. Moskva ilə İrəvan arasında yaranmış fikir ayrılıqları fonunda Ermənistan cəmiyyətində ölkənin gələcək xarici siyasət kursu ilə bağlı müzakirələr daha da intensivləşib", - deyə o bildirib.

Deputat vurğulayıb ki, Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticələri regiondakı proseslərə də birbaşa təsir göstərəcək. Xüsusilə Azərbaycan-Ermənistan sülh gündəliyinin gələcək taleyi, nəqliyyat-kommunikasiya layihələrinin perspektivi və regionda sabitliyin möhkəmləndirilməsi baxımından seçkilərin nəticələri diqqətlə izlənilir. Bu gün Ermənistan cəmiyyəti faktiki olaraq iki fərqli yanaşma arasında seçim edir. Bir tərəfdə regionda əməkdaşlıq, iqtisadi inteqrasiya və sülh perspektivini önə çəkən qüvvələr, digər tərəfdə isə revanşist ritorikanı davam etdirən siyasi dairələr dayanır. Ermənistan xalqının verəcəyi qərar yalnız ölkənin daxili siyasi həyatına deyil, bütövlükdə Cənubi Qafqazın gələcək siyasi mənzərəsinə təsir göstərəcək.

K.Bayramov deyib ki, Ermənistanda seçkilər ərəfəsində baş verən proseslər ölkənin daxili siyasi mənzərəsindəki qeyri-sabitliyi və cəmiyyətdəki dərin parçalanmanı bir daha açıq şəkildə nümayiş etdirir: "Regionda sülh və sabitliyin bərqərar olması üçün Ermənistanın destruktiv yanaşmalardan əl çəkməsi, qonşularına qarşı ərazi iddialarından və revanşist ideologiyadan imtina etməsi əsas şərtdir. Lakin seçkiqabağı ritorika və siyasi qüvvələrin nümayiş etdirdiyi mövqe göstərir ki, Ermənistan hələ də reallıqları qəbul etməkdə çətinlik çəkir. Azərbaycan öz gücü və beynəlxalq hüququn prinsipləri əsasında tarixi ədaləti bərpa edib və regionda yeni reallıqlar yaradıb. Ermənistanın siyasi dairələri isə bu yeni reallıqlarla hesablaşmaq əvəzinə, populist vədlər və xalqı aldatmağa yönələn çağırışlarla məşğuldurlar".

K.Bayramov əlavə edib ki, Ermənistanın gələcək inkişafı və regiondakı inteqrasiya proseslərinə qoşulması yalnız konstruktiv dialoqdan və beynəlxalq öhdəliklərə əməl etməkdən keçir. Seçkilərin nəticələrindən asılı olmayaraq, rəsmi İrəvan dərk etməlidir ki, Azərbaycanla münasibətlərin normallaşması üçün tək yol səmimi və real addımların atılmasıdır. Əks təqdirdə, bu cür siyasi proseslər ölkəni daha böyük dalana dirəyəcək.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *PAŞİNYAN:* "Ermənistan Türkiyə və Azərbaycanla münasibətləri yaxşılaşdırmaq üzərində çalışır"

**Ermənistan balanslı siyasətə nail olmaq üçün Türkiyə və Azərbaycanla münasibətləri yaxşılaşdırmaq üzərində çalışır.**

AZƏRTAC xəbər verir ki, Ermənistanın Baş naziri Nikol Paşinyan bu barədə sosial mediada xarici siyasət mövzusunda çıxışı zamanı deyib. "Bu gün Türkiyə və Azərbaycanla münasibətləri yaxşılaşdırmaq istiqamətində ciddi çalışırıq. Əminəm ki, məqsədimizə çatacağıq. Balanslı xarici siyasət Ermənistan üçün yeni imkanlar yaradacaq", - deyə Nikol Paşinyan bildirib.

Qeyd edək ki, hazırda Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələr mövcud deyil. Ankara Qarabağ müharibəsi səbəbindən 1993-cü ildən bəri bu ölkə ilə sərhədlərini bağlı saxlayır. Ankara və İrəvan 2022-ci ildən xüsusi nümayəndələr səviyyəsində sərhədin üçüncü ölkə vətəndaşları üçün açılması və münasibətlərin normallaşdırılması ilə bağlı danışıqlar aparır. Türkiyə və Ermənistanın münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyan arasında ilk görüş 2022-ci il yanvarın 14-də Moskvada baş tutub.

# Müstəqilliyin Qarabağ zirvəsi

**"Şanlı Zəfərimizdən sonra bu gözəl bayramı - 28 May - Müstəqillik Günü bayramını azad edilmiş torpaqlarda qeyd edirəm və bu, artıq bir ənənəyə çevrilib. Hesab edirəm ki, ən düzgün seçimdir. Bu Müstəqillik Günü hər birimiz üçün çox əzizdir".**



Prezident İlham Əliyevin bu il 28 may tarixində Qarabağdan - Şuşanın Böyük Qaladərəsi kəndindən səsləndirdiyi qürur dolu sözləri həm də Azərbaycanın müstəqillik tarixinə yazılan yeni, şərəfli bir dövrün bəyannaməsidir. Altı ildir ki, xalqımız 28 May Müstəqillik Gününü tarixi zəfərin verdiyi məğrurluqla, doğma torpaqların azadlığının, suverenliyin tam bərpasının və üçrəngli bayrağımızın vətənin hər guşəsində dalğalanmasının verdiyi coşqu ilə qeyd edir.

## Qürurlu ənənə

Ərazilərimizi işğaldan azad edərək Azərbaycanı bütövləşdirən qalib lider İlham Əliyev hər il 28 May Müstəqillik Günündə xalqımıza xoş müjdələr verməyi ənənəyə çevirib. Dövlət başçısının həmin günü azad olunmuş ərazilərdə, quruculuğun mərkəzində, xalqı ilə birbaşa təmasda keçirməsi artıq dövlətçilik fəaliyyətinin ayrılmaz parçasına dönüb. Bu xoş ənənənin kökündə xalqla dövlətin sarsılmaz birliyi dayanır.

Ölkəmizin rəhbəri quruculuğun ilk təməl daşını 28 may 2021-ci ildə Ağdamda qoyması ilə ümumilikdə Qarabağın tezliklə dirçələcəyinin mesajını vermişdi.

"Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir", - deyə həmin tarixdə Prezident Ağdamdan bəyan etmişdi. Dövlətimizin başçısı vurğulamışdı ki, əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik: "Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi".

Prezident İlham Əliyevin 2022-ci ildə Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşməsi, 2023-cü ilin Müstəqillik Günündə Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etməsi, 28 may 2024-cü ildə xocalılılarla Xocalıda görüşməsi müstəqillik salnaməmizə qızıl hərflərlə yazılıb.

Ötən il 28 May Müstəqillik Gününün əlamətdar hadisələrindən biri strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Laçın Beynəlxalq Hava Limanının açılışı oldu. Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəmzi olaraq yaşıl lentini kəsdikləri bu Beynəlxalq Hava Limanı ümumilikdə Qarabağ və Şərqi Zəngəzurun iqtisadi intibahına işarə idi.

Laçında - azad Azərbaycan torpağında Prezident İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin görüşü dünyaya üç qardaş ölkənin - Azərbaycan, Türkiyə və Pakistanın sarsılmaz birliyini, həmrəyliyini nümayiş etdirdi. Qardaş ölkələrin liderləri 44 günlük müharibə sayəsində beynəlxalq hüququn tələblərinə uyğun şəkildə azadlığına qovuşdurulan Şərqi Zəngəzur bölgəsindən sülh mesajları verdilər, yeni dünya nizamında daim haqqın tərəfində olduqlarının, eyni zamanda xalqlarının, ölkələrinin milli maraqlarına qarşı istənilən təhdidə qarşı birlikdə mübarizə aparacaqlarının qətiyyətli bəyanını etdilər.

## Şuşadan dünyaya sülh mesajı

2026-cı ilin 28 may tarixi bir daha təsdiqlədi ki, Azərbaycan öz tarixinin ən qüdrətli və əzəmətli dövrünü yaşayır. Ölkəmiz bu gün taleyini özü həll edən, heç kimin diktəsinə boyun əyməyən və regional proseslərin əsas aktoru olan dövlətdir.

Prezident Böyük Qaladərəsi kəndində sakinlərlə görüşü zamanı vurğuladı ki, müstəqillik böyük nemətdir, böyük nailiyyətdir: "Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax Azərbaycan o ölkələrdəndir... ... Həm 2020-ci il, həm də 2023-cü il Şanlı Zəfərimizdir və biz əbədi bu Zəfərlə fəxr edəcəyik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq bizim nəzarətimizdədir. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam bərpa edilmişdir. Əldə edilmiş sülh bizim şərtlərimiz əsasında olmuşdur".

Müstəqillik Günündə Qarabağdan Prezident İlham Əliyev tərəfindən səsləndirilən bu fikirlər həm də dünyaya verilən aydın mesajdır. Qalib dövlət, müzəffər xalq bugünkü Azərbaycanın reallığıdır. "Dəmir yumruq" yerindədir və azadlığı uğrunda gözümüzü qırpmadan canımızı fəda etdiyimiz torpaqlarımızdan bizi ayırmaq istəyən hər cəhdin qarşısı qətiyyətlə alınacaq. Biz bu torpaqlarda əbədiyyən varıq. Qarabağ, Azərbaycandır.

Qalib liderin söylədiyi kimi, "dəmir yumruq" hesabına, xalqımızın birliyi hesabına, ordumuzun qüdrəti, şəhidlərimizin qanı-canı bahasına bu gün buradayıq və bundan sonra bizi heç kim buradan tərpədə bilməz.

Bəli, ötən illərin mürəkkəb siyasi prosesləri, 44 günlük müharibənin şanlı zəfəri və antiterror tədbirləri Azərbaycanı regionda söz sahibinə çevirib. Artıq viran qoyulmuş kəndlərin, dağıdılmış şəhərlərin yerində müasir yaşayış məntəqələri, geniş infrastruktur və bərpaolunan yurd yerləri yüksəlir.

## "Nə yaxşı ki, gəlmisən..."

2026-cı ilin 28 May Müstəqillik Günündə Böyük Qaladərəsi kəndində təsirli və sevincli anlar yaşandı. Dövlət başçısının sakinlərlə səmimi söhbəti, onların sevincini bölüşməsi, ailə ocaqlarının istiliyini hiss etməsi özündə zəfərimizin qürurunu daşıyırdı. Bu səmimi görüşdə ağbirçək anaların duası, sakinlərin fəxr dolu baxışları "dəmir yumruq" ətrafında birləşən xalqın inamını əks etdirirdi. Prezident İlham Əliyevin kənd sakinləri ilə görüşü həm də 30 illik yurd həsrətinə son qoyan bir qovuşma idi.

Ölkəmizin rəhbərinin kənd sakini Akif Qəhrəmanovun evində qonaq olması, səmimi söhbəti, xalq və lider arasındakı sarsılmaz bağı bir daha nümayiş etdirdi. Evin ağbirçək sakini Prezidentə olan minnətdarlığını səmimi sözlərlə belə dilə gətirdi: "Sənin hesabına, Sənin sayəndə gəlmişik. Allah Səni bizim üstümüzdən əskik etməsin... ...Nə yaxşı ki, gəlmisən, bala. Bizi nə yaxşı ki, torpağımıza gətirmisən, ayağımız torpağımıza dəyib".

Ağbirçək ananın ürək sözləri sadəcə yurda qayıdış xoşbəxtliyinin yox, bütöv bir xalqın zəfər qürurunun təcəssümü idi. Görüşdə sakinlər yaşadıqları çətinlikləri də xatırladılar, lakin onların dilindəki əsas not zəfər inamı idi.

Böyük Qaladərəsi kəndinə qayıdan sakinlərlə ümumi görüşdə Prezident İlham Əliyev bir daha müstəqillik bayramının doğma torpaqlarımızda qeyd olunmasının tarixi əhəmiyyətini vurğuladı: "Uzun fasilədən sonra doğma vətənə qayıtmaq böyük xoşbəxtlikdir... ...Bu, bir daha göstərir ki, xalqımız böyük xalqdır. Əzab-əziyyətə baxmayaraq, əyilmədi, iradəsini yerində saxladı və bir ümidlə yaşayırdı ki, gün gələcək və biz bu torpaqlara qayıdacağıq. Son illər ərzində - 2003-cü ildən bu yana keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə həm işğal dövründə, həm Zəfərdən sonra bir daha əmin oluram ki, bizim xalqımız nə qədər əzəmətlidir, vüqarlıdır və yenilməzdir. Siz 30 il doğma diyarınızdan məhrum edilmişdiniz, amma ümidinizi itirmədiniz, iradənizi qırmadınız və inanırdınız ki, bu gün gələcək və gəldi".

Görüşdə sakinin "Cənab Prezident, oradan baxırlar bizə, peşmandırlar ki, bir vaxt biz baxırdıq. İndi deyirlər ki, günah özlərindədir" deməsi, tarixi ədalətin tamamilə bərpa olunduğunun və işğalçıların öz məğlubiyyətlərini dərk etdiklərinin ən bariz ifadəsi oldu. Prezident İlham Əliyevin Laçın sakinləri ilə görüşünü xatırladaraq ermənilərə, - "dedim ki, bilin ha, biz sizi görürük buradan. Özünüzü yaxşı aparın" xəbərdarlığı isə dövlətimizin gücünün və bölgədəki mütləq hakimiyyətinin rəmzi kimi yaddaşlara həkk olundu.

Qarabağı azadlığına qovuşduran qalib lider İlham Əliyevin Şuşanın Böyük Qaladərəsi kəndində, məğrur dağların ətəyində, azad edilmiş torpaqlarımızda sakinlərlə bu görüşü bir daha sübut etdi ki, müstəqillik yalnız dövlət atributları ilə deyil, həm də xalqın doğma yurduna sahiblik hüququ ilə ölçülür.

Digər keçmiş məcburi köçkünlərimiz kimi, Böyük Qaladərəsi kəndinin sakinləri də öz evlərinə qayıdarkən, əslində, tarixin ədalətini bərpa etdilər. Bu qayıdış həm də müstəqilliyimizin möhürüdür. Azad Qarabağ və Şərqi Zəngəzurda ucalan hər yeni ev, çəkilən hər yol, əkilən hər ağac dövlətimizin qüdrətinin və xalqımızın zəfər əzminin göstəricisidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

**Qanun layihələri və onların şərhi**

# Diplomatların fəaliyyət səmərəliliyinin yüksəlməsinə xidmət edən dəyişikliklər

**Azərbaycanın xarici siyasət sahəsindəki uğurları ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirir. Bu nailiyyətlərdə diplomatik korpusun fəaliyyəti müstəsna rol oynayır.**

Diplomatlarımızın fəaliyyətini tənzimləyən əsas sənəd isə "Diplomatik xidmət haqqında" qanundur. Bu qanun diplomatik xidmət orqanlarının iş prinsiplərini, əməkdaşların hüquqi statusunu, eləcə də onların və ailə üzvlərinin sosial-maddi təminatını müəyyən edir. Məhz bu mənada, sözügedən qanuna təklif edilən yeni dəyişikliklər böyük əhəmiyyət kəsb edir. Dəyişikliklər diplomatların fəaliyyət səmərəliliyini artırmaqla yanaşı, onların sosial müdafiəsini də əhəmiyyətli dərəcədə gücləndirəcək. Qeyd edək ki, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisdə ikinci oxunuşdan keçib.



**Milli Məclisin deputatı Günay ƏFƏNDİYEVA** mövzu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında "Diplomatik xidmət haqqında" qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin ciddi əhəmiyyət kəsb etdiyini bildirib. O qeyd edib ki, xarici siyasət Azərbaycanın dünyadakı mövqeyini formalaşdıran aparıcı istiqamətlərdəndir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz bu gün mürəkkəb beynəlxalq şəraitdə öz müstəqil xarici siyasət kursunu güclü iradə ilə davam etdirir. Ölkəmiz dünyada beynəlxalq siyasi dialoqun, nəqliyyat və enerji əməkdaşlığının, mədəni və humanitar təşəbbüslərin mühüm mərkəzlərindən birinə çevrilib. Azərbaycan həm Avropa, həm türk dünyası, həm islam dünyası dövlətləri, həm də Mərkəzi Asiya və Qlobal Cənub ölkələri ilə əlaqələrini ardıcıl şəkildə gücləndirir".

Deputat dövlətimizin uzun illərdir peşəkarlıqla, uzaqgörənliklə yürütdüyü ardıcıl siyasi xəttin davamı kimi Azərbaycan Prezidentinin son dövrdə həyata keçirdiyi fəal diplomatik təmaslara diqqət çəkib: "Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri, Türkiyədə, Antalya Diplomatiya Forumu çərçivəsində keçirdiyi çoxsaylı görüşlər, Latviya və Ukraynanın prezidentlərinin, Litva, Çexiya, İtaliyanın baş nazirlərinin ölkəmizə səfərləri, Slovakiyanın Baş naziri Robert Fitsonun dövlətimizin başçısının Avropa Parlamenti ilə bağlı fikirlərinə açıq dəstəyini ifadə etməsi ölkəmizin xarici siyasətinin uğurlarıdır. Eləcə də mayın 15-də Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının növbəti qeyri-rəsmi zirvə görüşündə Azərbaycanın iştirakı və nəhayət, mötəbər, qlobal əhəmiyyətli tədbirlərdən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda keçirilməsi Azərbaycanın dünya miqyasında qazandığı nüfuzu bir daha təsdiqləyir".

"Sözügedən proseslərə Azərbaycan diplomatlarının gündəlik, bəzən görünməyən, lakin son dərəcə məsuliyyətli xidməti də öz töhfəsini verir. Diplomatlarımız arxa cəbhənin peşəkar əsgərləridir. Mən bu sahədə uzun illər çalışmış bir insan kimi deyə bilərəm ki, diplomatlarımız çox vaxt qürbətdə - Azərbaycanın hüdudlarından kənarda, fərqli siyasi və ictimai mühitdə, beynəlxalq qeyri-sabitlik fonunda ölkəmizin milli maraqlarının qorunması üçün çalışırlar. Ona görə də peşə öhdəliklərindən irəli gələn, hər an hazırlıq və çeviklik tələb edən həyat tərzi diplomatlarımızın sosial müdafiəsinin daha da gücləndirilməsini zəruri edir. Bu baxımdan düşünürəm ki, diplomatların dəstəklənməsi yalnız sosial siyasət məsələsi deyil, bu dövlət strategiyası, Azərbaycanın qlobal mövqelərinin daha da möhkəmləndirilməsi məsələsidir. Ona görə də hesab edirəm ki, "Diplomatik xidmət haqqında" qanuna təklif olunan dəyişikliklər olduqca lazımi və gözlənilən bir addımdır", - deyə Günay Əfəndiyeva əlavə edib.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Milli iradəyə söykənən müstəqil siyasət

## Prezident İlham Əliyevin uğurlu siyasi kursu və qətiyyətli mövqeyi Azərbaycanı dünyada söz sahibi olan ölkəyə çevirib

**Qlobal güclərin rəqabət meydanına çevrilən dünyada kənar diktələri dəf edərək sırf öz xalqının marağına uyğun siyasət yürütmək heç də hər ölkənin bacardığı iş deyil. Tarix sübut edir ki, BMT-də bayrağın dalğalanması və ya rəsmi sənədlərdə müstəqil dövlət statusunun yazılması hər ölkəni siyasi təsirlərindən qorumağa kifayət etmir. Bir çox dövlət böyük güclərin siyasi və iqtisadi təzyiqləri qarşısında öz milli maraqlarını qurban vermək məcburiyyətində qalır. O baxımdan, əsl müstəqillik rəsmi atributlardan daha çox güclü siyasi iradə, prinsipiallıq və uzaqgörən siyasətlə mümkündür.**

Belə mürəkkəb geosiyasi mühitdə Azərbaycan fərqli və nümunəvi bir model ortaya qoyub. Ölkəmiz onilliklər boyu torpaqlarının işğal altında qalmasına və çoxsaylı təzyiqlərə, üzləşdiyi ikili standartlara baxmayaraq, öz strateji xəttindən və prinsipial mövqeyindən zərrə qədər geri addım atmayıb. Azərbaycanın bütün tarixi nailiyyətlərinin, hərtərəfli inkişafının, o cümlədən 2020-ci ildə qazanılan möhtəşəm Zəfərimizin, regional reallıqları tamamilə dəyişən antiterror əməliyyatlarının kökündə Ulu Öndərin təməlini qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müstəqil və qətiyyətli siyasət dayanır. Prinsipial mövqe və siyasi iradənin sayəsində Azərbaycanın beynəlxalq arenadakı hörmət və nüfuzu daha da artıb, ölkəmiz qlobal miqyasda önəmli söz sahibi olan dövlətlərdən birinə çevrilib.

Prezident İlham Əliyevin mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndində sakinlərlə görüşü zamanı vurğuladığı məqamlar bu önəmli reallığı bir daha təsdiqləyir. Dövlətimizin başçısı bəyan edib ki, Azərbaycan hətta torpaqları işğal altında olan ən çətin dövrlərdə belə müstəqil duruşundan zərrə qədər güzəştə getməyib: "Müstəqillik - bu, böyük nemətdir, böyük nailiyyətdir. Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri doğrudan da müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik. Çünki öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq. Buna görə də dünyada böyük şöhrət qazanmışıq. Baxmayaraq ki, torpaqlarımız uzun illər erməni işğalı altında idi, hətta o vaxt müstəqil siyasət apararaq böyük hörmət qazanmışıq dünyada. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi və ondan üç il sonra antiterror əməliyyatı, bizim şanlı Zəfərimiz ölkəmizin, xalqımızın nüfuzunu dünyada daha da artırmışdır".

Prezident İlham Əliyevin sözləri bir daha təsdiqləyir ki, qazanılan tarixi qələbələr və bu gün Qarabağda atılan hər bir addım onilliklər boyu qurulan müstəqil siyasətin və sarsılmaz iradənin məntiqi nəticəsidir. Dövlətimizin başçısı haqlı olaraq müstəqilliyi ölkəmizin öz taleyini sərbəst şəkildə müəyyən etmə qabiliyyəti kimi xarakterizə edir. Bu yanaşma Azərbaycan dövlətinin suverenlik fəlsəfəsinin tarixi köklərinə işıq tutan və gələcək hədəflərini müəyyənləşdirən əsas strategiyadır.




44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları təkcə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə yox, eyni zamanda Azərbaycanın bölgədə yaratdığı yeni reallığın bütün dünya tərəfindən qəbul edilməsi ilə nəticələndi. Tarixi zəfərlər ölkəmizin hərbi-siyasi gücünü təsdiqləməklə yanaşı, beynəlxalq arenadakı nüfuzunu daha yüksək mərhələyə daşıdı.

Azərbaycan Prezidenti çıxışında müstəqilliyimizin ciddi təhdid altında olduğu illəri də xatırlatdı və bildirdi ki, 1991-ci ilin oktyabrında müstəqillik əldə ediləndə o vaxt hakimiyyətdə olanlar ərazi bütövlüyümüzü qoruya bilmədilər: "Hakimiyyətə can atanlar faktiki olaraq Şuşanı, Laçını, o cümlədən bax bu gözəl kəndi Ermənistana, demək olar ki, satmışdılar. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi. Ovaxtkı hakimiyyət hakimiyyətdə qalmaq istəyirdi. Hakimiyyətə can atan AXC-Müsavat istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. Buna görə də təxribat nəticəsində bu gözəl diyarımız Ermənistana verildi ki, yenidən Azərbaycan bu fəlakətlə üzləşsin. Ondan sonrakı dövr də sizin yadınızdadır: vətəndaş müharibəsi, torpaqlarımızın itirilməsi..."

Dövlətimizin başçısının ifadələri Azərbaycanın ən ağrılı dönəmi ilə ən parlaq mərhələsinin müqayisəli siyasi-tarixi analizidir. 1990-cı illərin əvvəllərindəki daxili siyasi xaosun, özbaşınalığın və naşı idarəetmənin torpaqlarımızın işğalına necə zəmin yaratdığı hamıya bəllidir. O zaman dövlət maraqlarının şəxsi və qrup ambisiyalarına qurban verilməsi Şuşa, Laçın və ətraf kəndlərin itirilməsinə səbəb oldu. Hakimiyyət uğrunda mübarizə aparan dağıdıcı qüvvələrin milli təhlükəsizlik məsələlərini arxa plana keçirməsi faktiki olaraq müstəqilliyimizi tükdən asılı hala gətirmişdi.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi əgər Ulu Öndər Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıtmasaydı, ölkəmizin hansı aqibətlə üzləşəcəyi, nələrə məruz qalacağı bəlli idi: "Dediyim kimi, erməni işğalı, daxildəki hərcmərclik, qarşıdurma, vətəndaş müharibəsi, hakimiyyət uğrunda mübarizə faktiki olaraq ölkəmizi məhvə aparırdı. Əgər o vaxt Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, indi xalqımızın, dövlətimizin taleyi necə olacaqdı, onu demək çətindir. Hər halda o vaxt Azərbaycan böyük fəlakətlə üz-üzə idi. O vaxt müharibə dayandırıldı, inkişafa qədəm qoyuldu, güc toplanıldı".

Dövlətimizin başçısının "bundan sonra bizi heç kim buradan tərpədə bilməz" ifadəsi revanşist qüvvələrə və onların xaricdəki havadarlarına ünvanlanmış xəbərdarlıqdır. Bu yanaşma Azərbaycanın öz torpaqlarında əbədi möhkəmləndiyini və regionun geosiyasi xəritəsinin bir daha dəyişdirilməsinə imkan verilməyəcəyinin rəsmən elanıdır.

Kənar təzyiqlərə boyun əyməyən, qərarlarını milli mənafeyə söykənərək verən Azərbaycan beynəlxalq arenada iradəsi ilə hesablaşılan, etibarlı strateji tərəfdaş sayılan bir güc mərkəzidir. Bu qətiyyətli siyasət ölkəmizi qlobal böhranlar və qeyri-müəyyənliklər fonunda təhlükəsiz sabitlik adasına çevirir. Müstəqil siyasət Azərbaycanın bütün diplomatik masalarda söz sahibi kimi fərqlənməsini və regional təhlükəsizliyin əsas təminatçısı olaraq qalmasını təmin edəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

Bu gün Mülki Aviasiya İşçilərinin peşə bayramıdır

# Uzaq yolu yaxın edənlər

**Hər il iyun ayının 2-si ölkəmizdə Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Bununla bağlı Prezident İlham Əliyev 2006-cı il mayın 18-də sərəncam imzalayıb. Bu peşə bayramının tarixi Azərbaycanda ilk aviasiya qrupunun yaradıldığı günün - 1938-ci il iyunun 2-nin şərəfinə seçilib.**

Sözügedən bayramın qeyd olunmasının məqsədi isə ölkə iqtisadiyyatının inkişafında və nəqliyyat sistemində mühüm rol oynayan mülki aviasiya işçilərinin əməyini qiymətləndirməkdir. Təsadüfi deyil ki, sahənin bütün qurumlarının işçiləri bu bayramı təntənə ilə qeyd edirlər.

Xatırladaq ki, həmin qurumlardan biri - Dövlət Mülki Aviasiya Administrasiyası dövlət başçısının 29 dekabr 2006-cı fərmanı ilə Azərbaycan ərazisindəki mülki aviasiyanın tənzimlənməsi və təkmilləşdirilməsi və beynəlxalq aviasiya ilə əməkdaşlığın inkişafı məqsədilə yaradılıb. Prezidentin 12 yanvar 2018-ci il tarixli sərəncamı çərçivəsində isə bu qurum Dövlət Mülki Aviasiya Agentliyi olaraq Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyinə verilib. Dövlət Mülki Aviasiya Agentliyi respublikamızda mülki aviasiya sahəsində fəaliyyətin tənzimlənməsinə cavabdeh olan dövlət orqanıdır. Mülki təyyarələrin uçuşunun təhlükəsizliyinə nəzarət etmək, təhlükəsizlik və ətraf mühiti mülki təyyarələrin yaratdığı tullantılardan qorumaq, aviasiya sahəsində tənzimləyici fəaliyyətlər aparmaq, digər ölkələrin aviasiya orqanları ilə əməkdaşlıq etmək və s. məhz bu agentliyin işçilərinin üzərinə düşür.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti (AZAL) isə ölkəmizdə fəaliyyət göstərən ən böyük aviaşirkətdir. AZAL hava nəqliyyatları üzrə beynəlxalq ittifaqın (IATA) üzvüdür. Bakı Aviaşirkətin Mərkəzi Aeroportu Heydər Əliyev adına Beynəlxalq Hava Limanıdır. Bu hava limanı beynəlxalq standartların tələblərinə cavab verir. Coğrafi mövqeyinə görə isə Şərqlə Qərb arasında və Şimalla Cənub arasında transfer marşrutlar



üçün regionda birnömrəli hava limanına çevrilmişdir.

Son onilliklər milli aviasiyamız da böyük uğurlar qazanıb. Beynəlxalq standartlara uyğunlaşma, modern hava limanları şəbəkəsi və təhlükəsizlik sahəsində böyük nailiyyətlər əldə edilib. AZAL yüksək təhlükəsizlik standartları ilə beynəlxalq reyslər həyata keçirir. Yeni hava limanlarının inşası mühüm əhəmiyyət kəsb edir.

Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala, Qəbələ, Füzuli, Laçın, Zəngilan müasir hava limanlarının inşası və ya yenidən qurulması, beynəlxalq standartlara cavab verən uçuş-enmə zolaqlarının yaradılması son illərin bu sahədəki önəmli hadisələridir. İşğaldan olunmuş ərazilərimizdə qısa zaman kəsiyində, həm də relyefi mürəkkəb olan bölgələrdə üç aeroportun tikilməsi dünyanı heyrətə gətirir.

Sahə üçün kadrların hazırlanması isə Milli Aviasiya Akademiyasının üzərinə düşür. Akademiya Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) və aparıcı xarici aviasiya təhsil müəssisələri ilə sıx əməkdaşlıq edərək təhsilin beynəlxalq səviyyəyə çatdırılmasını təmin edir. Elə bir neçə ay əvvəl Milli Aviasiya Akademiyasında açılan yeni Beynəlxalq Təlim Mərkəzi bu istiqamətdə atılan növbəti mühüm addımdır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mərkəzin açılışında iştirak etməsi hadisənin önəminə bir daha diqqət çəkir.

Milli Aviasiya Akademiyası bu gün Azərbaycanın strateji əhəmiyyətə malik aerokosmik sahəsini, o cümlədən mülki aviasiyanı və bir sıra digər sahələri beynəlxalq tələblərə cavab verən yüksəkixtisaslı mütəxəssislərlə təmin edən ali təhsil müəssisəsidir. Akademiyada ali təhsil pillələri tələbələrə ixtisaslaşmış bilik, analitik düşüncə və tədqiqat bacarıqları qazandıraraq, onları əmək bazarının tələblərinə uyğun peşəkarlar kimi yetişdirməyi hədəfləyir.

Yeni mərkəz AZAL-ın təşəbbüsü ilə məhz akademiyanın ərazisində yaradılıb. Bu, uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulan bir mərkəzdir. Burada Beynəlxalq Mülki Aviasiya Təşkilatının və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək. Beynəlxalq Təlim Mərkəzində hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır.

Mərkəzdə quraşdırılmış sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün şərait yaradır. Burada eləcə də hava limanlarında real iş şəraitinə uyğun müxtəlif xüsusi avtonəqliyyat vasitələri sürücülərinin bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müasir təlim trenajoru kompleksi quraşdırılıb.

Beləliklə, mərkəz müasir aviasiya sahəsinin tələblərinə uyğun olaraq, kadr hazırlığını həyata keçirən ixtisaslaşmış tədris strukturu kimi aviasiya mütəxəssislərinin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayacaq. Mərkəzin müasir texnologiyalarla təchiz olunması, burada son model uçuş simulyatorlarının quraşdırılması real uçuş şəraitinə yaxın mühitdə təcrübə qazanmağa imkan yaradır ki, bu da ümumilikdə uçuşların təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət daşıyır.

Bütün bunlar Azərbaycanın mülki aviasiyasının həm regional, həm də beynəlxalq miqyasda nüfuzunu artırmaq, ölkəmizin logistika və turizm potensialını daim gücləndirmək məqsədi daşıyır.

Bu gün öz peşə bayramlarını qeyd edən milli aviasiya işçiləri dünyasını dəyişmiş qəhrəman həmkarlarını da xatırlayırlar. 31 may - Beynəlxalq Təyyarə Bələdçiləri Günündə həmkarlarından ibarət qrup və ailə üzvləri birlikdə Azərbaycanın Milli Qəhrəmanı Hökumə Əliyevanın İkinci Fəxri xiyabandakı məzarını ziyarət ediblər.

AZAL heyəti tərəfindən Milli Qəhrəman pilotlar İqor Kşnyakin və Aleksandr Kalyaninovun da əziz xatirəsi ehtiramla yad olunub.

Xatırladaq ki, Prezident İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli sərəncamı ilə bu mərd insanların hər biri "Azərbaycan Hava Yolları"na məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı-Qroznı reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq və fədakarlıq göstərdiyinə görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "CandyFest" yay festivalının ilk günü xoş anlarla yadda qaldı





















**1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü Bakı Bulvarında yeni festivalın açılışı olub. - Dənizkənarı Milli Parkda "CandyFest" yay festivalına start verilib. Odur ki, "CandyFest" yay festivalının ilk günü ikiqat bayrama çevrilib.**

Festivalın ən böyük sevincini balacalar yaşayıblar. Dənizkənarı Milli Park sevinclə ora-bura qaçan, müxtəlif oyunlar oynayan uşaqların şən səslərinə bürünüb. Beləcə rəngarəng dekorasiyalar, şən musiqilər, maraqlı oyunlar və müxtəlif əyləncə proqramları ilə diqqət çəkən festivalın ilk günündən Bakı Bulvarında əsl bayram ab-havası hökm sürür.

İki ay davam edəcək "CandyFest" yay festivalı üçün Bakı Bulvarının ənənəvi yarmarka məkanı xüsusi tərtibatla hazırlanıb. Yayın ən müxtəlif dadlarını, rənglərini və əhvalını əks etdirən bu festival iyul ayının sonunadək ziyarətçilərin ixtiyarında olacaq. Dənizkənarı Bulvar İdarəsinin Mətbuat xidmətinin rəhbəri Əfsanə Mehdiyeva bildirib ki, festival hər yaş qrupundan olan ziyarətçilər üçün maraqlı və yaddaqalan istirahət imkanı yaradacaq. "CandyFest" yay festivalı hər yaşdan olan qonaqlara unudulmaz təəssüratlar bəxş edəcək. Tədbirin keçirildiyi məkanda ziyarətçilərə müxtəlif mövzulu və rəngarəng dizayna malik satış köşklərində yayın ən müxtəlif dadları, əyləncə və oyunlar, canlı tamaşalar və başqa tədbirlər təqdim olunacaq.

Dənizkənarı Bulvar İdarəsinin Mətbuat xidmətinin rəhbəri festival çərçivəsində keçiriləcək tədbirlər barədə də məlumat verərək bildirib ki, hər gün saat 17:00-dan 19:00-dək uşaqlar üçün maraqlı tamaşalar, interaktiv oyunlar və müxtəlif əyləncə proqramları təşkil olunacaq. Əfsanə Mehdiyeva qeyd edib ki, festival hər yaşdan olan qonaqlara unudulmaz təəssüratlar yaşadacaq. Bu məqsədlə ziyarətçilərə müxtəlif mövzulu və rəngarəng dizayna malik satış köşklərində yayın ən müxtəlif dadları, əyləncə və oyunlar, canlı tamaşalar və başqa tədbirlər təqdim olunur.

Yay festivalının əsas diqqət çəkən məqamlarından biri burada 1500 nəfərlik açıq hava amfiteatrının qurulmasıdır. "CandyFest"də ilk dəfə olaraq ziyarətçilərə su sirki və möhtəşəm şou təqdim edilir. Xüsusi vizual həllər və musiqi müşayiətilə təqdim olunacaq proqram hər gün saat 20:30-da başlayacaq və 75 dəqiqə ərzində izləyiciləri fərqli bir dünyaya səyahətə aparacaq. Su sirki saat 23:00-dan isə böyüklər üçün xüsusi musiqili proqramlarla davam edəcək.

Uşaqların Beynəlxalq Müdafiəsi Günündə təşkil olunan belə tədbirlər balacaların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyət daşıyır. Lakin bu tədbirə sevinən yalnız balacalar olmayıb. "CandyFest" yay festivalının ilk günü övladları, nəvələri ilə gələn böyüklər üçün də olduqca maraqlı keçib.

*Zöhrə FƏRƏCOVA,*
*İlham BABAYEV (Foto),*
*"Azərbaycan"*

# N.Paşinyan seçkiqabağı sorğularda liderdir

## Moskva isə İrəvana "Ukrayna ssenarisi"ni xatırladır

**Yeni sorğuya görə, Ermənistanın Baş naziri Nikol Paşinyanın partiyası parlamentdə əhəmiyyətli çoxluq qazana bilər. Bu arada, Rusiya İrəvanın qərbyönümlü dönüşünə qarşı kampaniyasını gücləndirir və Ermənistan hakimiyyətinə "Ukrayna ssenarisi" barədə xəbərdarlıq edir.**

Ermənistanda iyunun 7-də keçiriləcək həlledici seçkilərdən əvvəl təşkil olunmuş son sorğu göstərir ki, Baş nazir Nikol Paşinyanın "Vətəndaş müqaviləsi" partiyası səslərin təxminən 65 faizini qazana bilər və bu, qarşıdan gələn parlamentdə inandırıcı qələbə və əhəmiyyətli çoxluq vəd edir. "Breavis" təşkilatının 5-11 may tarixlərində 1551 respondent arasında apardığı sorğu göstərib ki, "Vətəndaş müqaviləsi" parçalanmış müxalifət üzərində rahat bir üstünlük əldə edəcək və qalan partiyaların heç biri 12 faizdən çox səs toplaya bilməyəcək, baxmayaraq ki, onlardan bəziləri Rusiya tərəfindən açıq şəkildə dəstəklənir.

Ekspertlər hesab edirlər ki, əgər gələn bazar günü keçiriləcək səsvermə bu proqnozları təsdiqləsə, ermənilər N.Paşinyana ölkənin strateji istiqamətini Avropa və qərbyönümlü kursa yönəltmək üçün həlledici mandat verəcək, onu Kremllə birbaşa qarşıdurma yoluna çıxaracaq və Qarabağla bağlı Azərbaycanla tarixi sülh müqaviləsini möhkəmləndirəcək, regional sabitliyi və əməkdaşlığı daha da təşviq edəcək. "Breavis" sorğusu həmçinin İrəvanın milli strategiyasının yenidən nəzərdən keçirilməsini və Rusiyanın postsovet orbitində onilliklərdən sonra Qərbə doğru daha da irəliləyişini göstərir.



Son həftələr Moskva İrəvana təzyiqi durmadan artıraraq kritik ticarət məhdudiyyətləri tətbiq edir və Ermənistanın Avrasiya İqtisadi İttifaqında (AİI) üzvlüyünü dayandırmaqla hədələyir. Rusiya Prezidenti Vladimir Putin isə amerikalı həmkarı Donald Trampın N.Paşinyana tam və hərtərəfli dəstəyini bildirməsindən bir neçə gün sonra Ermənistanla Ukrayna arasında paralellər aparıb.

Yeni sorğunun dərc olunması həmçinin Rusiyanın İrəvanın Aİ-yə üzvlüyünü sürətləndirmək qərarı ilə əlaqədar Ermənistandakı səfirini "məsləhətləşmələr üçün" geri çağırmaq qərarı ilə üst-üstə düşüb. Rusiya Xarici İşlər Nazirliyinin şənbə günü verdiyi açıqlamada deyilir: "Rusiya Federasiyasının Ermənistan Respublikasındakı səfiri S.P.Kopırkin Ermənistan rəhbərliyinin Avropa İttifaqı ilə yaxınlaşma addımları ilə əlaqədar məsləhətləşmələr üçün Moskvaya geri çağırılıb".

Bir gün əvvəl isə Kreml iqtisadi xəbərdarlıqlar və tədbirlərlə hücumunu davam etdirərək Ermənistandan müəyyən meyvə və tərəvəzlərin ixracına müvəqqəti məhdudiyyətlər elan etmiş, Ermənistanın mineral suyu, şərabı və konyakına qoyulan son qadağalara əlavə olaraq, ölkə üçün həyati əhəmiyyət kəsb edən ucuz qaz və neft tədarükünün kəsilməsi ilə bağlı təhdidlər irəli sürmüşdü. Məlumat üçün bildirək ki, təxminən 3 milyon nəfər əhalisi olan Ermənistan ötən il qazının 80 faizdən çoxunu Rusiyadan idxal etmişdir.

Elə həmin gün AİI liderləri Ermənistanı Avropa İttifaqına qoşulmaq planlarının bütün üzv dövlətlərin iqtisadi təhlükəsizliyi üçün ciddi risklər yaratdığı barədə xəbərdar edən birgə bəyanat yayıblar. Astana sammiti zamanı Rusiya, Belarus, Qazaxıstan və Qırğızıstan liderləri İrəvanı Ermənistanın Aİ ilə Moskvanın rəhbərlik etdiyi blok arasında seçim etməsi ilə bağlı mümkün qədər tez bir zamanda milli referendum keçirməyə çağırıblar. Vadimir Putin isə Astanada keçirilən sammitdən sonra mətbuat konfransında "Ukraynadakı böhran Kiyevin Aİ-yə qoşulmaq cəhdləri ilə başladı" deyə yenidən Ukrayna ilə Ermənistan arasında paralellər aparıb.

Dünən Vladimir Putin Nikol Paşinyanı ad günü münasibətilə təbrik edib. Kreml saytında yerləşdirilən təbrik teleqramında Rusiya Prezidenti Moskva ilə İrəvan arasındakı münasibətlərin dostluq xarakterini qeyd etməklə yanaşı, onların davamlı mütərəqqi inkişafında maraqlı olduğunu vurğulayıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin axşam qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Səhər saatlarından arabir güclənən şimal-qərb küləyi axşam tədricən mülayimləşəcək.

Havanın temperaturu gecə 15-18, gündüz 19-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər şimal və qərb rayonlarından başlayaraq, bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 12-17, gündüz 23-28, dağlarda gecə 6-11, gündüz 13-18, bəzi yerlərdə 20-25 dərəcə isti olacağı ehtimal edilir.


# "Bakıxanov Trikotaj" ASC-nin səhmdarlarının nəzərinə

"Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq "Bakıxanov Trikotaj" ASC səhmdarlarını 12 iyun 2026-cı il saat 11:00-da növbəti yığıncağa dəvət edir.

**Yığıncaqda aşağıdakı məsələlərə baxılacaq.**

2025-ci il üzrə mühasibat balansı və hesabatların təsdiq edilməsi.

Cari məsələlər.

**Ünvan: Bakı şəhəri,**
**Bakıxanov qəsəbəsi, Yavər Əliyev, 26.**
**Əlaqə telefonu: (012)-425-23-22**

*"Bakıxanov Trikotaj" ASC*


# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsi müdirinin müavini Səməd Sultanova əzizi
**ƏLİMUSA ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə basağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı
**MAARİF HƏMZƏYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1978-ci il, 1980-ci il, 1982-ci il və 1985-ci il buraxılış 10-cu sinif məzunları sinif yoldaşları Mahir, Azər, Kəmalə və Fərhad Həsənovlara anaları
**ZƏHRA ƏLİ QIZI HƏSƏNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun əməkdaşları Cavad Abdinov, Afin Nəzərov, Tünzalə Əliyeva, Rafiq Sadıqov və Nigar Qurbanova professor
**HİDAYƏT RƏHİM OĞLU NURİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru





www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3788
Sifariş 690

Qiyməti 60 qəpik